HƏSƏN HƏSƏNOV



100

# Heydər Əliyev

## Parlaq, xarizmatik şəxsiyyət haqqında

XATİRƏLƏR

TEAS PRESS

# Heydər Əliyev:

## Parlaq, xarizmatik şəxsiyyət haqqında XATİRƏLƏR

HƏSƏN HƏSƏNOV

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 128601

TEAS PRESS

66.3(5Aze)6-8
H 63

Həsən Həsənov
Heydər Əliyev: Parlaq, xarizmatik şəxsiyyət haqqında xatirələr

Bakı, TEAS Press Nəşriyyat evi, 2023, 200 səh.

ISBN 978 9952 563 27 6

Kitabın nəşr hüququ
TEAS Press Nəşriyyat evinə məxsusdur.

Redaktor: Famil Cəfərli
Texniki redaktor: Vüsalə Babayeva
Korrektor: Flora Əliyeva
Art direktor: Sevinc Ələkbərova
Buraxılışa məsul: Rəşad İsmixanov

www.teaspress.az

Bütün hüquqlar qorunur.

© TEAS Press Nəşriyyat evi, 2023

Türkiyədə çap edilib.

# MÜNDƏRİCAT

*Redaksiyadan*
5

Vətəninin böyük təəssübkeşi
7
Heydər Əliyevin diplomatiyası
131
Heydər Əliyev və Bakı
148
Gələcək haqqında ... xatirələr
177

*Müəllif haqqında*
199

# REDAKSİYADAN

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib.

Dövrünə möhür vurmuş nəhəng tarixi şəxsiyyətlərlə bir cərgədə dayanan Heydər Əliyev öz ölkəsini tarixin mürəkkəb siyasi sınaqlarından ustalıqla çıxarmış və qətiyyətlə mübarizə apararaq onu gerçək müstəqilliyə qovuşdurmuş qüdrətli və müdrik dövlət adamıdır. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyevin parlaq zəkasının işığında qədəm qoymuşdur. Bugünkü müstəqil, qüdrətli, sivil və demokratik Azərbaycan məhz Ulu Öndərin şah əsəri, bu böyük şəxsiyyətin həyat amalının və ideallarının təntənəsidir.

Müstəqil Azərbaycan Respublikası Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə Azərbaycan xalqının milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Heydər Əliyev irsinin təbliğ olunması və gələcək nəsillərə ötürülməsi isə bu baxımdan çox vacib məsələlərdən biridir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin istər birinci, istərsə də sonrakı dövründə uzun illər boyunca Ümummilli liderin rəhbərliyi altında çalışmış görkəmli dövlət xadimi, sovet Azərbaycanının sonuncu, müstəqil Azərbaycanın ilk Baş naziri, müstəqillik dövründə isə xarici işlər naziri postunu tutmuş Həsən Həsənov Ulu Öndərin Azərbaycanın taleyindəki müstəsna roluna həsr olunan çoxsaylı çıxış və məqalələrin müəllifidir. Ümid edirik ki, onun müsahibə və yazılarının toplandığı "Heydər Əliyev: parlaq, xarizmatik şəxsiyyət" kitabı "Heydər Əliyev İli"nə, bütövlükdə isə Ümummilli liderin qiymətli siyasi irsinin qorunub saxlanılması və təbliği işinə sanballı töhfə olacaq.



# VƏTƏNİNİN BÖYÜK TƏƏSSÜBKEŞİ

*Müsahibəni Xalq yazıçısı Elmira Axundova götürüb. Müsahibənin bəzi hissələri "Heydər Əliyev. Şəxsiyyət və zaman" (2007-2013) altıcildliyinə daxil edilib.*

***Həsən müəllim, siz uzun illər Heydər Əliyevin birbaşa rəhbərliyi altında çalışmış "ağırçəkili" siyasətçilərdən birisiniz. Sizinlə birlikdə dönüb keçmişə baxmaq və həmin vaxtları xatırlamaq istərdim. Siz onun barəsində ilk dəfə nə vaxt eşitmişdiniz?***

Bu, 1965-ci ilin may ayında olmuşdu. Mən onda Oktyabr, indiki Yasamal Rayon Komsomol Komitəsinin katibi idim. Bakının hazırda "Azadlıq meydanı" adlanan mərkəzi meydanında Böyük Vətən müharibəsindəki qələbənin 20 illiyinə

həsr olunmuş parad keçiriləcəkdi. Mən qonaqlar üçün nəzərdə tutulmuş kürsüdə, rayon partiya komitəsinin birinci katibi Yunus Heydəroviç Məmmədovun yanında oturmuşdum. Respublikanın partiya rəhbərliyinin tribunaya çıxmasını gözləyirdik. Bu vaxt rayon partiya komitəsinin katibi mənə tərəf əyilib dedi: "Bax gör kim gəlir". Əynində açıqrəngli köynək olan hündürboylu, atletik bədənli gənc bir adam gördüm. Kürsüdə oturanların çoxu üzünü ona tərəf çevirdi. "O kimdir?" – deyə soruşdum. "Heydərdir", – raykom katibi cavab verdi. Sonralar həmin adı tez-tez eşitməyə başladım – o bizim mühitdə çox məşhurlaşmışdı. 60-cı illərdə bizim nəsil artıq Heydər Əliyevin böyük gələcəyinin olduğunu bilir və ona rəğbətlə yanaşırdı. Üstəlik Heydər Əliyev kifayət qədər cavan idi, buna görə də çoxları ona ata adı olmadan, sadə şəkildə, amma hörmətlə "Heydər" deyə müraciət edirdilər. Rayon partiya komitəsi katibinin o vaxt, 1965-ci ilin mayında dediyi sözlər yaxşı yadımdadır: "O, bir gün Azərbaycana rəhbərlik edəcək. Bu adamı yadında saxla".

***Heydər Əliyev haqqında başqa hansı məlumatınız var idi?***

1967-ci ildə məni irəli çəkdilər, partiya mərkəzi komitəsinin aparatında işləməyə başladım. Şöbəmizdə Eldar Nuriyev adlı təlimatçı işləyirdi. Bir dəfə Sov.İKP[1] Mərkəzi Komitəsindən

[1] Sovet İttifaqı Kommunist Partiyası





bir nəfər məsul işçi gəlmişdi. Eldar onu Naxçıvana səfəri zamanı müşayiət etməli idi. Qayıdanda öz təəssüratlarını mənimlə bölüşdü. Şəhər stadionunda bayram keçirilirmiş. Eldarı da Sov.İKP MK-nın əməkdaşı ilə birlikdə həmin tədbirə dəvət edirlər. Bayram vaxtı stadionda elan edilir ki, Heydər Əliyevə general rütbəsi verilib. O vaxt Heydər Əliyev artıq Azərbaycan DTK-nın[1] sədri idi. Xəbər elan ediləndə stadiondakıların hamısı bir nəfər kimi ayağa qalxaraq alqışlamağa başlayır. Sov.İKP MK-nın əməkdaşı da nə baş verdiyini bilmədən ayağa qalxır və hamı ilə birlikdə əl çalır. Oturduqdan sonra Eldardan alqışların səbəbini soruşur. Eldar ona izah edir ki, Azərbaycan DTK-nın sədri Heydər Əliyevə general rütbəsi verilib. Eşitdiklərindən və gördüklərindən heyrətlənən Sov.İKP MK əməkdaşı deyir: "Təsəvvür etməzdim ki, minlərlə insan bir DTK generalını ayaq üstə və belə sevinclə alqışlaya bilər. O, qeyri-adi bir insan olmalıdır".

***Bəs Heydər Əliyevlə ilk dəfə şəxsən nə vaxt görüşmüsünüz?***

Həmin görüşü indiki kimi xatırlayıram. 1969-cu ildə məni Moskvaya, ÜİLKGİ[2] MK aparatına köçürdülər. Həmin ilin iyul ayında Bakıda Yaponiya və sovet gənclərinin dostluq festivalı keçirilməli idi. Azərbaycanı yaxşı tanıyan biri kimi məni festivalın hazırlanması və keçirilməsi ilə bağlı qərargahın tərkibinə

[1] Dövlət Təhlükəsizlik Komitəsi
[2] Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı

daxil etmişdilər. Biz Bakıya gəldik. Bundan bir neçə gün sonra, iyulun 14-də Azərbaycan KP MK-nın plenumu keçirildi və Heydər Əliyev birinci katib seçildi. O vaxt çoxlarının ağlına belə gəlməzdi ki, DTK sədri respublikanın partiya rəhbəri seçilə bilər. Bir neçə gündən sonra Heydər Əliyev festivalın keçirilməsi ilə bağlı təşkilati məsələlərin müzakirəsi üçün ÜİLKGİ MK-nın işçilərini qəbul etməli idi. Festivala hazırlıqla bağlı qərargahın üzvləri kimi Moskvadan qırx nəfərdən çox adam gəlmişdi. Qərara alındı ki, Heydər Əliyevin qəbuluna üç nəfər getsin – ÜİLKGİ MK-nın beynəlxalq şöbəsinin müdir müavini, eyni zamanda qərargahın rəhbəri, mən və Azərbaycan LKGİ MK-nın birinci katibi Elmira Qafarova.

İlk dəfə idi ki, Heydər Əliyevi belə yaxından görürdüm. Heydər Əliyevin xarakterinin sonralar uzun illər boyunca müşahidə etdiyim fərqli xüsusiyyətləri hələ o vaxt, həmin birinci görüşdə məndə silinməz təəssürat oyatmışdı. Bu xüsusiyyətlər həmsöhbəti çox diqqətlə dinləmək və qeyri-adi enerji ilə yanaşı heyrətamiz sakitlik idi. O, ilk baxışda həlledilməz görünən problemləri qısa müddətdə həm dinləməyi, həm də həll etməyi bacarırdı. Elmira Qafarova məni təqdim edəndə Heydər Əliyev mənə tərəf baxdı, tərcümeyi-halım və ÜİLKGİ MK-da fəaliyyətim haqqında bir neçə sual verdi. Sonra nümayəndə heyətimizin rəhbərindən operativ surətdə həll edilməli olan problemlər haqqında soruşmağa başladı. Heydər Əliyev respublikanın rəhbər işçilərinə bütün məsələlər üzrə dərhal tapşırıqlar verdi. Sonra soruşdu:





– Deyəcəkləriniz bu qədər idi?

– Bəli.

– Elə isə mən sizə bizim işlərimiz barədə danışım.

O, respublikadakı vəziyyət haqqında danışmağa başladı, mənfi hallar, proteksionizm üzərində dayandı, kadr siyasətindəki səhvləri, iqtisadiyyatdakı nöqsanları qeyd etdi, həmin halların aradan qaldırılması ilə bağlı planlarından söhbət açdı. Yəni özünün gələcək proqramını konseptual şəkildə izah etdi. Bir müddət Azərbaycan KP MK aparatında işləməyimə, vəziyyətlə müəyyən qədər tanış olmağıma, respublikadakı mövcud çətinlikləri bilməyimə baxmayaraq, onun verdiyi məlumatlar məndə böyük təəssürat oyatmışdı. Mənə aydın olmuşdu ki, bu cür kadr yenilənməsi nəticəsində Azərbaycanda çox ciddi dəyişikliklər baş verəcək. Mənim ÜİLKGİ MK-dakı həmkarıma gəlincə, o, eşitdiklərindən, sözün həqiqi mənasında, sarsılmışdı. Biz həyətə çıxandan və Elmira Qafarova ilə sağollaşandan sonra o, astaca mənə dedi: "Əgər Heydər Əliyeviç dediklərinin hamısını həqiqətən həyata keçirsə, SSRİ-də çox şey dəyişəcək və yəqin ki, çoxları özlərini narahat hiss edəcəklər". Tarix Heydər Əliyevin məhz bunu nəzərdə tutduğunu göstərdi və ÜİLKGİ MK-nın məsul işçisinin gümanları düz çıxdı. Heydər Əliyev nəzərdə tutduqlarını həmin illərdə Azərbaycanda tam şəkildə həyata keçirdi. SSRİ-də bütün sahələrdə bir çox rəhbər işçilər özlərini, həqiqətən də, əvvəlki kimi rahat hiss edə bilmədilər. Cəmiyyət isə başa düşdü ki, hətta sosializm şəraitində də ciddi iqtisadi nəticələr əldə etmək,

kommunist ideologiyasının hökm sürdüyü vəziyyətdə də mənəvi-əxlaqi qaydalardakı qüsurlardan açıq şəkildə danışmaq, sosializm quruluşunun və kommunist ideologiyasının doğurduğu nöqsanları tənqid etmək olar. Bir sözlə, Heydər Əliyevin fəaliyyəti SSRİ-də köklü dəyişikliklərin tələb olunduğu yeni zamanın gəldiyini göstərirdi. Ancaq həmin dəyişikliklər yalnız Azərbaycanda baş verirdi.

Festival başa çatandan sonra hamımız Moskvaya qayıtdıq. Avqustun 6-da həmin şöbə müdiri müavini mənə zəng edərək soruşdu: "Həsən, dünən Bakıda MK-nın plenumunun keçirildiyindən xəbərin var?" "Yox". "Bakıya zəng vur, uşaqlar sənə qəzetləri göndərsinlər". Mən Azərbaycan LKGİ Mərkəzi Komitəsinə zəng vurdum və Heydər Əliyevin məruzəsinin dərc olunduğu qəzeti təyyarə ilə mənə göndərmələrini xahiş etdim. Onu oxuduqda gördüm ki, Heydər Əliyev bizimlə görüşündə qeyd etdiyi bütün problemləri MK-nın plenumunun müzakirəsinə çıxarıb. Bu, Azərbaycanın partiya təcrübəsində görünməmiş bir hadisə idi. Plenum tamamilə açıq, tənqidi təhlil şəraitində keçmişdi. Onun gedişində şəxsiyyətindən asılı olmayaraq, respublikanın, demək olar ki, bütün rəhbər işçiləri kəskin tənqidə məruz qalmış, bütün bu qərəzsiz təhlillər qəzet səhifələrində öz əksini taparaq ümumi müzakirəyə çıxarılmışdı. Nəhayət, əvvəllər gizli qalan, yalnız şayiə və dedi-qodu kimi yayılan hallar açıq şəkildə ictimaiyyətə təqdim olunmuşdu. Öz növbəsində ictimaiyyət də respublikadakı vəziyyətin yaxşılaşdırılması prosesində özünün iştirakını dərk





etməyə başlamışdı. Mən qəzeti oxuyub beynəlxalq şöbəyə, sonra ÜİLKGİ MK-nın Təşkilat şöbəsinə və digər şöbələrə verdim. Qəzet uzun müddət komsomolun mərkəzi aparatında dolaşdı. Onu çoxları oxudular. Tam bir ay qəzetin şöbələrdə necə dolaşdığını izlədim, bir şöbədən alıb digərinə verdim, itməməsinə çalışdım. Axı o vaxt nə faks, nə də surətçıxaran aparatlar var idi... Həmin günlərdə Azərbaycan mövzusu ÜİLKGİ MK-da (fikrimcə, yalnız orada deyil, həm də Sov.İKP MK aparatının özündə) ən aktual məsələyə çevrilmişdi. Bu maraq və diqqətdən mənə də pay düşürdü – axı mən orada yeganə azərbaycanlı idim. Yeri gəlmişkən, mən həmin qəzeti bir neçə ay davam edən ezamiyyətlərim zamanı özümlə Qazaxıstana da aparmışdım. Onu orada da böyük maraqla oxumuş, mənə çoxlu suallar vermişdilər. "Azərinform"un (AzərTAc o zaman belə adlanırdı) direktoru Yefim Qurviç bir neçə ildən sonra 1969-cu ilin iyul-avqust aylarındakı maraqlı vəziyyət barədə mənə bunları danışmışdı: "Heydər Əliyev birinci katib seçiləndə Leninin anadan olmasının 100 illiyinə hazırlıq məsələlərinə həsr olunmuş MK plenumunun məruzəsi artıq hazır idi. Biz ənənəvi üsulla hazırlanmış məruzəni ona təqdim etdik. O, məruzəyə diqqətlə göz gəzdirib soruşdu: "Bu nə məruzədir?" Məruzəni hazırlayanlar ona izah etməyə başladılar ki, yubileylərlə, xüsusilə də Vladimir İliç Leninin yubileyi ilə əlaqədar məruzələr məhz bu tərzdə, bir qədər nikbin ruhda hazırlanır, onlarda daha çox uğurlardan, yüksək nəticələrdən və s. bəhs etmək lazımdır. Heydər Əliyev soruşdu: "Bu

qaydanı kim qoyub?" Təbii ki, onlar bu suala məntiqli bir cavab verə bilmədilər. Heydər Əliyev hazır mətni qətiyyətlə bir kənara qoydu və necə bir məruzə istədiyini izah etməyə başladı. Heydər Əliyevin Leninin yubileyinə hazırlıq məsələlərinə həsr olunmuş gələcək məruzənin məzmunu haqda dedikləri Azərbaycan KP MK-nın aparat işçilərini bir qədər çaşdırmışdı, amma, təbii ki, bununla hesablaşmaya bilməzdilər. Beləliklə, Heydər Əliyevin Azərbaycan KP MK-nın plenumundakı Leninin yubileyinə hazırlıq işlərinə həsr olunmuş məruzəsində yalnız uğurlardan deyil, ilk növbədə respublikanın partiya və sovet orqanlarının işindəki ciddi nöqsanlardan danışılırdı..."

MK-nın 1969-cu il 5 avqust plenumu bu ruhda keçmişdi. "MK-nın avqust plenumunun ruhu, MK-nın avqust plenumunun tələbləri" anlayışları uzun illər boyunca bir növ respublikada partiya-siyasi işinin səviyyəsini müəyyən edən amil oldu. Bəlkə də, Sov.İKP və SSRİ tarixində ilk dəfə idi ki, rəhbərin yubiley hazırlıqları bu cür tənqidi tərzdə gedirdi. Bunu yalnız dəmir iradəyə, böyük cəsarətə və yüksək ədalət hissinə malik olan bir insan edə bilərdi. Heydər Əliyev belə bir insan idi!

***Maraqlıdır, həmkarlarınızın həmin məruzəyə münasibəti necə idi?***

ÜİLKGİ MK-nın böyük kollektivində, demək olar ki, heç kim həmin məruzəyə və Azərbaycanda yaranmaqda olan vəziyyətə biganə qalmamışdı. Münasibətlər fərqli idi. Təqdir





etməyənlər, ümumiyyətlə, "partiyanın sirrini çölə çıxarmaq olmaz" fikrində olanlar idi. Gizli təşkilat şəklində yaranan Kommunist Partiyası o vaxt artıq 50 il idi ki, hakimiyyətdə idi, buna baxmayaraq, həmin gizlilik taktikası hələ də böyük əhəmiyyət daşıyırdı. Taktikanın yalnız izahı dəyişmişdi. Partiya yarandığı zaman çarın məxfi polisindən gizlənirdisə, XX əsrin 60-cı illərində xarici antisovet ruhlu kütləvi informasiya vasitələrindən qorunurdu. Belə bir fikir var idi ki, xaricdəkilər partiya və sovet orqanlarına ünvanlanan istənilən tənqidi fikirdən dərhal istifadə edir və onu bizə qarşı mübarizə vasitəsinə çevirirlər. Buradan da belə nəticə çıxırdı ki, nöqsanlardan xəlvətdə, bağlı qapılar arxasında danışılsa yaxşıdır. Buna baxmayaraq, Azərbaycan kommunistlərinin və rəhbər işçilərin əksəriyyəti məruzəni çox rəğbətlə qarşıladı. Məruzənin özü və onun dərc olunması faktı təəccübdən daha çox cəsarət, qətiyyət və yeniliyə görə məmnunluq hissi yaradırdı. ÜİLKGİ MK-nın yüksək rəhbərliyi də, aparatın digər işçiləri də ölkədəki vəziyyəti yaxşı bilirdilər. Məsələn, məsul təşkilatçı kimi mənim vəzifəmə yalnız ÜİLKGİ MK-nın və vilayət komsomol komitələrinin katibləri ilə deyil, həm də vilayət partiya komitələrinin birinci katibləri ilə iş daxil idi. Ona görə də ezamiyyətə getdiyim vilayətlərdəki mövcud vəziyyətdən xəbərdar idim. Mənim müqayisə etmək imkanım var idi, çünki Heydər Əliyevin haqqında danışdığı neqativ hallar, proseslər digər müttəfiq respublikalarda və vilayətlərdə də mövcud idi. Çoxları məruzəni oxuduqdan sonra deyirdilər: "Bütün bunlar

hər yerdə var. Amma bu barədə yalnız Əliyev danışır. Yalnız Əliyev bu cür hallarla mübarizə aparmaq istəyir!"

Heydər Əliyevin iş üslubuna, Azərbaycanda baş verən dəyişikliklərə münasibət keçici, ötəri bir hal deyildi, bu maraq XX əsrin 70-80-ci illəri ərzində aktuallığını həmişə saxlayırdı. 1981-ci ildə mən Azərbaycan KP MK-nın ideologiya məsələləri üzrə katibi işlədiyim zaman "Literaturnaya qazeta"nın rəhbərliyi bizə müraciətlə Heydər Əliyevdən müsahibə almağı xahiş etmişdi. Təbii ki, o buna razılıq verdi. O vaxtlar həmin qəzet demokratik baxışlara malik olması ilə başqalarından seçilirdi. Söhbət gedirdi ki, SSRİ-nin ali siyasi rəhbərliyi həmin qəzetə ölkədəki və kommunist ideologiyasındakı nöqsanlardan geniş yazmağa qeyri-rəsmi olaraq icazə verir. Heydər Əliyevlə müsahibə baş tutdu və onun məzmunundan, yeri gəlmişkən, Nizami Gəncəvinin misralarından götürülmüş "Qoy ədalət zəfər çalsın" sözlərindən ibarət başlıq yarandı. Həmin müsahibə ümumittifaq miqyaslı istənilən siyasi materialdan daha güclü bir ictimai rəy yaratdı. O dövrün dissident məzmunlu məqalələrindən heç biri həmin müsahibənin yaratdığı böyük rezonans və effektlə müqayisə oluna bilməzdi. Qəzetin redaksiyasına ölkənin hər yerindən çoxlu məktub gəlirdi. SSRİ-nin hər yerindən gələn bu məktublarda, əsasən, iki məsələ qaldırılırdı. Birincisi, Heydər Əliyevin Azərbaycanda apardığı mübarizənin digər respublikalarda da aparılmalı olduğundan, ikincisi, Əliyevi öz regionlarının, hətta ölkənin rəhbəri kimi görmək istədiklərindən yazırdılar. İlk vaxtlarda qəzet redaksiyaya gələn





məktubları, sadəcə, bizim ünvana göndərirdi. Sonra məktub axını o qədər gücləndi ki, qəzetin rəhbərliyi məktubları redaksiyadan mütəmadi olaraq bizim özümüzün gəlib götürməyimizi xahiş etdi. Ancaq məktub axını davam edirdi. Nəhayət, sovet rəhbərliyi bunun yaxşı qurtarmayacağını başa düşdü və qəzetə göstəriş verdi ki, məktubları heç kimə göstərməsinlər, heç yerə göndərməsinlər, onlara cavab verməsinlər, sadəcə olaraq, məhv etsinlər.

***Mən tərcümeyi-halınızla tanış oldum və öyrəndim ki, siz 1967-1969-cu illərdə Azərbaycan KP MK-nın aparatında işləmiş, sonra Moskvaya köçürülmüş, 1971-ci ilin əvvəlində, yəni Heydər Əliyev respublikanın rəhbəri olandan az sonra isə Bakıya – Moskvaya getməzdən əvvəl tutduğunuz vəzifəyə qayıtmısınız. Bu mənə bir qədər qəribə göründü. Bu əhvalatı izah edə bilərsinizmi?***

Haqlısınız. 1967-ci ildə, 26 yaşımda ikən Azərbaycan KP MK-nın aparatında məsul vəzifəyə təyin edilmişdim. Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov 1968-ci ilin noyabrında məni qəbul etdi (bildiyimə görə, bu, Azərbaycan komsomolu MK-nın birinci katibi Elmira Qafarovanın təklifi ilə olmuşdu) və Moskvaya, ÜİLKGİ MK aparatına keçməyi təklif etdi. Həm də açıq şəkildə bildirdi ki, Moskvadakı işimin nəticəsi müsbət olsa, bir ildən sonra qayıdıb Azərbaycan komsomolu MK-nın birinci katibi vəzifəsində işləyəcəyəm. Mən onsuz da komsomol sistemində yetişmişdim, mənim



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 128601

üçün tanış mühit idi. Bu səbəbdən razılaşdım. 1969-cu ilin yanvarında Moskvaya getdim və orada Qazaxıstan üzrə məsul təşkilatçı təyin olundum. 1970-ci ilin yanvarında Azərbaycan komsomolunun növbəti qurultayı keçirildi. Həmin qurultayda Elmira Qafarova Azərbaycan KP MK-nın Mədəniyyət şöbəsinin müdir müavini vəzifəsinə keçməsi ilə əlaqədar olaraq, birinci katib vəzifəsindən azad edildi, onun yerinə isə Rafiq Əsgərov seçildi. Mən həmin qurultayda Azərbaycan komsomolu Mərkəzi Komitəsinin üzvü seçildim. Lakin bu məni qane etmirdi, çünki rəhbərlikdə növbəti dəyişikliyin tezliklə baş verməyəcəyinə əmin idim. Etiraf etməliyəm ki, bu hadisə məndə ciddi narahatlıq yaratmışdı. Axı mən Moskvaya tezliklə geri qayıtmaq ümidi ilə getmişdim. Hadisələrin gələcəkdə necə inkişaf edəcəyini bilmirdim. Bakıya qayıtmaq üçün bircə yol var idi. Mən ÜİLKGİ MK-nın rəhbərliyinə müraciət etdim. ÜİLKGİ MK-nın rəhbərliyi istəyimi nəzərə alaraq, mənim respublika Kommunist Partiyası MK aparatındakı işimə qaytarılmağım xahişi ilə Azərbaycanın rəhbərliyinə müraciət etdi. Lakin gözlənilmədən Bakıdan cavab gəldi ki, məni aparata işə götürə bilməyəcəklər. ÜİLKGİ MK-nın rəhbərliyi mənə ittifaq miqyaslı müxtəlif orqanlarda iş təklif edirdi: komsomolun mərkəzi komitəsindəki bütün işçilərin arzusunda olduğu SSRİ DİN-ə, təhsilim üzrə inşaatçı-mühəndis olduğuma görə Tikinti Nazirliyinə, Azərbaycandan olduğuma görə Neft Nazirliyinə... Lakin mən bütün təkliflərdən boyun qaçırır, Bakıya qayıtmaqda israr edirdim. Bakıdan isə yenə rədd cavabı





gəlirdi. Heydər Əliyevin həmin dövrə uyğun gəlməyən iş üslubuna görə respublikadakı vəziyyət son dərəcə gərgin kimi qiymətləndirilirdi. Dost-tanışlarım məni fikrimdən döndərməyə çalışır, Bakıya qayıtmağa tələsməməyi, gözləyib vəziyyət düzələndən sonra getməyi məsləhət görürdülər. Mənə deyirdilər, sən ki işsiz deyilsən, Moskvada işləyirsən. Mən isə Bakıya qayıtmaqda israr edirdim. Bir müddətdən sonra ÜİLKGİ MK-nın rəhbərliyindən izin alaraq Azərbaycana qayıtmaq imkanlarını öyrənmək üçün Bakıya gəldim. Həmin günlərdə Əbdürrəhman Vəzirov gözlənilmədən mənə zəng etdi və dərhal da özü haqda məlumat verdi.

– Yəqin ki, bilirsiniz, – dedi, – mən Kirovabad[1] Şəhər Partiya Komitəsinin birinci katibi təyin olunmuşam. Mən dəyişikliklər etmək, gənclərlə işləmək istəyirəm. Ona görə də sizə təklif edirəm ki, respublikaya qayıdıb burada mənimlə işləyəsiniz.

– Hansı vəzifədə? – soruşdum.

– Şəhər xalq nəzarəti komitəsinin sədri vəzifəsində, – Vəzirov cavab verdi və davam etdi: – Bu vəzifəni tutan şəxsin respublika Ali Sovetinin deputatlığına namizədliyinin irəli sürülməsi ilə bağlı Heydər Əliyevlə razılaşmam var.

– Yox, – cavab verdim, – etimadınıza görə təşəkkür edirəm, amma istəmirəm.

– Niyə? – Vəzirov təəccüblə soruşdu.

[1] Gəncə şəhəri 1935-1989-cu illərdə "Kirovabad" adlanıb.

– Çünki, – dedim, – mən xalq nəzarəti komitəsinin sədri vəzifəsinə uyğun gəlmirəm.

– Nəyi nəzərdə tutursan? – Vəzirov israr etdi.

– Sadəcə, öz həyatımı yoxlamalara həsr etmək istəmirəm, – fikrimi qəti şəkildə bildirdim. – Audit yaradıcı iş deyil, həm də mənim xarakterimə uyğun gəlmir.

– Amma sənin üçün imkanlar yaranacaq, – Vəzirov təkid edirdi, – gələcəkdə partiya işinə keçə bilərsən.

– Yox, – qətiyyətlə dedim, – istəmirəm.

– Başqa vəzifə olsa, gələrsən? – Vəzirov yenə mənim razılığımı almağa çalışdı.

– Yox. Mən hələlik Bakıya qayıtmaq istəmirəm, – dedim.

Əslində, qayıtmaq istəyirdim, ancaq Vəzirovun Moskvada SSRİ komsomolunun rəhbərlərindən biri, mənim isə komsomol aparatının işçisi olduğum vaxtlarda onun mənə qarşı soyuq münasibəti şüuraltı olaraq belə bir hiss yaradırdı ki, onunla işləməyim mümkün deyil.

Azərbaycan KP MK aparatının rəhbər işçiləri müraciətlərimə cavab olaraq mənə Bakıdan kənardakı sovet orqanlarında iş təklif edirdilər (o vaxt həmin orqanlar rayon icraiyyə komitəsi, şəhər İK, vilayət İK adlanırdı). Lakin həmin vəzifələr məni qane etmirdi. Təxminən bir il keçdi. Nəhayət, xəbər verdilər ki, Heydər Əliyev məni qəbul etməyə razılıq verib. Bu xəbər məni qane edən qərarın təminatı deyildi, lakin artıq böhrandan çıxmaq üçün real imkan yaranırdı. Əvvəlcə MK-nın katibi Əli Əmirovun kabinetinə dəvət olundum. O məni





əvvəlki işimdən kifayət qədər yaxşı tanıyırdı. Qısa söhbətdən sonra Heydər Əliyevin yanına getdik. O, xüsusi sınayıcı nəzərlərlə mənə baxıb soruşdu:

– Siz nə üçün belə hay-küy qaldırmısınız və mütləq Azərbaycan KP MK-nın aparatına qayıtmaq istəyirsiniz?

Düşündüm ki, o məni sınayır və Moskvaya göndərildiyim zaman mənə verilən vədi xatırladacağımı gözləyir. Lakin mən o barədə danışmamağı qərara almışdım.

– Mən bir müddətdir ki, Moskvada işləyirəm, – dedim, – amma normal yaşayış şəraitim olmadığı üçün ailəmi özümlə apara bilmirəm. Moskvada mənzil almaq üçün Bakıdakı mənzili təhvil verməyimi tələb edirlər. Ona görə də respublikaya qayıtmağı qərara aldım.

– Bakıdakı mənzili təhvil ver, orada al, – Heydər Əliyev dedi.

– Amma mən təhvil vermək istəmirəm, – dedim.

– Niyə? – o soruşdu.

– Mən Bakıdakı mənzili böyük çətinliklə almışam, Moskvada isə daimi yaşamaq fikrim yoxdur.

– Nə üçün Moskvada daimi yaşamaq istəmirsən? – Heydər Əliyev soruşdu.

– Mənim iki övladım: qızım və oğlum var. Onların Moskva mühitində böyüməsini istəmirəm.

Heydər Əliyev qarşısındakı insanı tam şəkildə öyrənənədək sual verməyi bacarırdı. Ona görə də növbəti sualını verdi:

– Nə üçün Moskvada qalmaq istəmirsən?

– Mən özüm Azərbaycandan kənarda böyümüşəm, – cavab verdim. – Övladlarımın da Azərbaycandan kənarda böyüməsini istəmirəm.

– O halda niyə Moskvaya getməyə razılaşmışdın, indi isə geri qayıtmaq istəyirsən? – Heydər Əliyev yenə sınayıcı nəzərlərini üzümə zillədi.

– Taleyin işidir, – dedim, – təklif oldu, imtina edə bilmədim, indi isə dediyim səbəblərdən qayıtmaq istəyirəm.

O, söhbətin hansı təklifdən getdiyini soruşmadı, daha şəxsi problemlərimlə maraqlanmadı, Moskvada və tez-tez xidməti ezamiyyətdə olduğum Qazaxıstandakı vəziyyət haqqında suallar verməyə başladı. Görünür, artıq onun mənim barəmdə müəyyən fikri var idi. O, suallarına ara verərək dedi:

– Bilirsən ki, səni tanımıram. Məndə olan məlumata görə, sən özün respublikaya qayıtmaqda israr edirsən. Mən səni işə götürməyə razıyam, amma əvvəlcədən deyim ki, sürətli karyera yüksəlişi vəd etmirəm.

– Etimadınıza görə çox sağ olun, – dedim. – Yeganə istəyim respublikaya qayıtmaq, ailəmlə birlikdə olmaq və mənim üçün maraqlı olan yerdə işləməkdir. – Sonra bir növ nəticə kimi əlavə etdim: – Sizin iş üsulunuz və tələbkarlığınız haqqında məlumatım var, onlar məni tamamilə qane edir və işləməyə hazıram.

– Yaxşı, – Heydər Əliyev söhbəti bitirdi, – işə başla.

Beləliklə, mənim bir ildən artıq çəkən sınaqlarım başa çatdı. 1971-ci ilin fevralında MK-nın Tikinti şöbəsinə təlimatçı





təyin olundum. Heydər Əliyevin mənə heç bir perspektiv vəd etmədiyini deməsinə baxmayaraq, təxminən on aydan sonra vəzifədə irəli çəkildim, kənd təsərrüfatı və hidrotexniki qurğular tikintisi şöbəsinin müdiri oldum. Bir müddətdən sonra məni tikinti şöbəsinin müdir müavini təyin etdilər. MK aparatının işçisində eyni zamanda iki keyfiyyətin olması vacib idi: sənədlərin hazırlanmasında iştirak etmək bacarığı və təşkilatçılıq qabiliyyəti. Məni tez-tez sənədlərin hazırlanmasına cəlb edir və respublikadakı mühüm obyektlərin tikintisini sürətləndirmək məqsədilə rayonlara göndərirdilər. Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə Azərbaycan nəhəng bir tikinti meydançasına çevrilmişdi. İnsanın özünü ifadə etməsi üçün geniş imkanlar var idi. Mənim respublikanın ən mühüm tikintilərinə səfərlərim haqqında Heydər Əliyevə məlumat verilirdi. 1975-ci ilin dekabrında Heydər Əliyevin təşəbbüsü ilə məni 26 Bakı komissarı[1] Rayon Partiya Komitəsinin, sonra Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi kimi müstəqil işə keçirdilər, cəmi üç aydan sonra isə Gəncə şəhərinin birinci katibi vəzifəsinə irəli çəkdilər. Mənim uğurlu xidmət karyeram Heydər Əliyevin işindən razı qaldığı şəxslərə münasibətinin nəticəsi idi. Onun üçün mənəvi təmizlik və müxtəlif şəraitlərdə işləmək bacarığı vacib idi. Nə Moskvaya xüsusi olaraq göndərilməyim, nə respublikaya qayıtmaq istəyim, nə komsomol və partiya sistemindəki iş təcrübəm məsul vəzifələrə iddia

[1] Bakının Səbail rayonu 1960-1992-ci illərdə "26 Bakı komissarı" adlanıb.

etməyimə əsas vermirdi. Heydər Əliyevin hərəkətlərindən belə qənaətə gəlmək olardı ki, onun üçün işçilərə münasibətində əsas meyarlar insani keyfiyyətlər və işi aparmaq bacarığıdır.

Moskvadan Azərbaycana qayıtdığım vaxtdan on il keçirdi. Mən artıq Gəncədə birinci katib idim. Heydər Əliyev şəhərimizə gəldi, gördüyüm işlərlə tanış oldu və razı qaldı. Sonra gözlənilmədən soruşdu:

– Axı bir vaxtlar Azərbaycan komsomolunun Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə sənin namizədliyin nəzərdə tutulurdu.

– Bilirəm, – dedim.

– Haradan bilirsən? – o, maraqla soruşdu.

– Bu barədə məni Moskvaya göndərdikləri zaman Vəli Axundov demişdi.

– Bəs səni nə üçün birinci katib seçmədilər? – Heydər Əliyev yenə sual verdi.

– Dəqiq deyə bilmərəm, amma mənə eyham vurmuşdular ki, sizə mənim Vəli Axundovun adamı olduğumu deyiblər.

O, sözünə davam etdi:

– Yox, Vəli Axundovun bununla heç bir əlaqəsi yoxdur. Məsələ bundadır ki, mən o vaxt səni qətiyyən tanımırdım, ona görə də sənin barəndə Əbdürrəhman Vəzirovdan soruşdum. Çünki sən ÜİLKGİ MK-da onunla işləmişdin. Vəzirov məni səni seçməkdən çəkindirdi, dedi ki, "o, bacarıqsız adamdır". Mən ona inandım, biz onun tövsiyə etdiyi adamı seçdik.





Amma indi görürəm ki, Vəzirov bu şəhərdə işin öhdəsindən gələ bilməyib, amma sən bura gəlib çox şeyə nail olmusan. Mən sənin işindən razıyam. O vaxt respublika komsomolunun başçısı seçilmədiyinə görə təəssüflənirəm. Axı o vaxt mənə düzgün məlumat versəydilər, sənin taleyin başqa cür olardı.

– Mən öz taleyimdən razıyam, – qətiyyətlə bildirdim.

Heydər Əliyev sınayıcı nəzərlərlə mənə baxdı.

– Bəli, – təkrarladım, – əlbəttə, razıyam.

Heydər Əliyevin üzündə məmnun bir ifadə yarandı. Yüngülləşdiyi aydın idi. Nədənsə ona demədim ki, taleyimin həmin çətin, dolaşıq vaxtlarında Vəzirov mənə zəng edib şəhərin rəhbərlərindən biri kimi Gəncədə onunla birlikdə işləməyi təklif etmişdi. Mən isə məhz Vəzirovun məni Heydər Əliyevə "o qədər də bacarıqlı olmayan işçi" kimi təqdim etdiyini bilmədiyim halda onunla işləməkdən imtina etmişdim.

***Bəs rəsmi Moskva Heydər Əliyevin fəaliyyətini necə qiymətləndirirdi?***

Ölkədə konstruktiv yeniliklərin olmasını arzu edənlər ona çox yaxşı yanaşırdılar, amma, təbii ki, həsəd aparanlar, yaxud, sadəcə, durğunluq şəraitində özlərini daha arxayın və inamlı hiss edənlər də var idi. Nəticədə isə Heydər Əliyevin iş üsulunun və metodlarının çox səmərəli olduğunu birincilər məmnuniyyətlə, ikincilər isə məcburən etiraf etdilər. Bu sözlərimə qüvvət olaraq Heydər Əliyevin mükafatlandırılması ilə

bağlı iki hadisəni danışmaq istəyirəm. 1979-cu ilin avqustunda Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyətinin 10 illiyi münasibətilə ona Sosialist Əməyi Qəhrəmanı adı vermişdilər. Mən 1983-cü ilin may ayında Azərbaycan KP MK-nın katibi kimi Çexoslovakiyaya ezam olunmuşdum. Moskvada olanda Heydər Əliyevin qəbul otağına zəng edib haqqımda xəbər vermələrini xahiş etdim və ad gününü nəzərə alaraq, ertəsi gün ona baş çəkəcəyimi bildirdim. Mayın 9-da axşam "Vremya" proqramında 60 illik yubileyi münasibətilə Heydər Əliyevin ikinci Sosialist Əməyi Qəhrəmanı "Qızıl ulduzu" ilə təltif olunduğunu eşitdim. Mayın 10-da səhər onu təbrik etmək üçün Kremlə getdim. Saat təxminən 10, ya da 11-in yarısı olardı. Amma Heydər Əliyevin qəbul otağında artıq böyük izdiham vardı. Orada kimlər yox idi?! SSRİ-nin nazirləri, nazir müavinləri, müttəfiq respublikaların daimi nümayəndələri, yaradıcı ittifaqların rəhbərləri, ziyalıların nümayəndələri. Onun köməkçisindən mənim barəmdə məlumat verməsini xahiş etdim. Köməkçi içəri girdi və qayıdıb dedi: "Əliyev xahiş etdi ki, heç yerə getməyib gözləyəsiniz. O hamını qəbul edəcək və sizinlə mütləq danışacaq". Təbrikə gələnlərin böyük axını davam edirdi və Azərbaycandan bunun şahidi olan yeganə adam mən idim. Qəbul otağında oturub gözləyən insanlar mənə həm Heydər Əliyev, həm də Azərbaycan haqda suallar verirdilər. Onların Heydər Əliyevə marağı mənim xoşuma gəlirdi. Gecə saat 12-nin yarısında axın dayandı və mən, nəhayət, içəri keçdim. Heydər Əliyev gül-çiçəklə dolu





olan kabinetində əyləşmişdi, əhvalı çox yaxşı idi. "Necədir, Həsən? Gördünmü? Nəzərə al ki, bunu səndən başqa heç kim görməyib", – mənə dedi. Mən Heydər Əliyevi ürəkdən təbrik etdim, gün ərzində qəbul otağında onun haqqında eşitdiklərim və orada müşahidə etdiklərim haqqında danışdım. Çox gec idi, amma həmişəki kimi Heydər Əliyevdə heç bir yorğunluq hiss olunmurdu, ikimizin də ovqatı çox yaxşı idi, getməyə tələsmirdik. Heydər Əliyevin siyasi fəaliyyətə necə başladığını, bu yoldakı maneələri, çətinlikləri xatırlayırdıq... Mən Heydər Əliyeviçə xatırlatdım ki, ikinci ulduz münasibətilə Azərbaycanda onun abidəsi ucaldılacaq. O, əvvəlcə söhbətdən yayınmaq istədi və hələ bu barədə düşünmədiyini dedi. Lakin gecə vaxtı olduğundan artıq telefonlar susmuşdu, abidənin müəllifi və qoyulacağı yer haqqında fikir mübadiləsi etmək üçün imkanımız vardı. Qeyd etmək lazımdır ki, o vaxt SSRİ-də açıqlanmayan bir qayda vardı: mükafatlar arasındakı fasilə beş ildən az olmamalı idi. Bu qayda nadir hallarda pozulardı. Heydər Əliyev birinci qəhrəman ulduzunu 1979-cu ilin avqustunda, MK-nın birinci katibi kimi fəaliyyətinin 10 illik yubileyi münasibətilə, həm də MK-nın avqust plenumunun keçirildiyi gün almışdı. Cəmi üç il yarım keçəndən sonra yenə bu cür yüksək mükafata layiq görülmüşdü. O mənə açıq şəkildə dedi: "Mən belə yüksək mükafat gözləmirdim. Təbii ki, mükafat olacağını düşünürdüm, Lenin ordeni ola bilərdi, təbrik məktubu göndərərdilər. Bunlara ümid edirdim. Amma ulduza inanmırdım. Mənim üçün gözlənilməz oldu, həm də

bundan lap son anda xəbər tutdum. Siyasi Büronun iclası başlamazdan əvvəl Andropov mənə zəng edib dedi ki, sizi ulduzla mükafatlandıracağıq".

Heydər Əliyev SSRİ-nin ali siyasi rəhbərliyinin iş üsulundakı bəzi ehkamçı prinsiplərlə yaxşı tanış idi, bu səbəbdən ulduzla mükafatlandırılacağına inanmırdı. Lakin ilk dəfə məhz Heydər Əliyev kommunist ehkamlarını rədd etmək yolu ilə getmiş və ölkənin ali rəhbərliyi də onun nümunəsində belə bir istisnaya yol verməyi qərara almışdı. Həmin gün mənim yaddaşımda unudulmaz iz qoydu. Mübaliğəsiz olaraq deməliyəm ki, bu, Heydər Əliyev şəxsiyyətinin qələbəsi idi.

***Moskva nəşrlərinin birindən oxumuşdum ki, Heydər Əliyev MK-nın 1984-cü il plenumunda Sov.İKP MK-nın katibi seçilməli imiş. Lakin partiyanın baş katibi Andropovun ölümü həmin planın həyata keçirilməsinə mane olub. Deyirlər ki, Andropov onu "uzaq məqsədlər" naminə, MK-nın katibi seçmək üçün Moskvaya aparmışdı, ona görə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsi Heydər Əliyev üçün bir növ aralıq vəzifə idi. Bu barədə nə deyə bilərsiniz?***

Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildiyi zaman artıq onun Moskvaya köçürüləcəyi haqqında danışırdılar. 50-ci illərdə cəmi bir neçə ay çəkən hal istisna olmaqla Azərbaycan heç vaxt Siyasi Büroda təmsil olunmamışdı. Aydın idi ki, Heydər Əliyevin Siyasi





Büroya seçilməsi məhz onun fəaliyyəti və şəxsi keyfiyyətləri sayəsində mümkün olmuşdu. Onun gələcəkdə Moskvaya köçürüləcəyi haqqında 1976-1982-ci illər ərzində fasiləsiz olaraq söhbətlər gedirdi. Biz hər plenumda belə bir hadisənin baş verəcəyini gözləyirdik. Təbii ki, o, İttifaq respublikası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən Sov.İKP MK-nın katibi vəzifəsinə keçə bilərdi. Əlbəttə, o vaxt çoxları belə fikirləşirdilər ki, Heydər Əliyev Sov.İKP MK-nın katibi işləsəydi, yaxşı olardı. İctimai şüurda belə bir fikir var idi. Yeri gəlmişkən, Heydər Əliyev Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi zaman həmin ictimai fikir barəsində mənə də danışmışdı. Hətta çoxları onun özünə deyirmişlər ki, Sov.İKP MK-nın katibi olmaq Nazirlər Soveti sədrinin birinci müavini olmaqdan yaxşıdır. Mən isə başqa cür düşünürdüm: eyni zamanda Siyasi Büronun da üzvü olan Sov.İKP MK katibləri bir neçə nəfər idi, üstəlik onlar Sov.İKP MK aparatının bürokratik ənənələrinə bağlı idilər. Eyni zamanda həm Siyasi Büronun üzvü, həm də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini isə təkcə Heydər Əliyev idi. Hüquqi statusuna görə o, SSRİ kimi böyük bir dövlətin hökumətində ikinci şəxs idi. Lakin onun şəxsi keyfiyyətlərini, proseslərə təsir gücünü, məsələləri həll etmək bacarığını, uzaqgörənliyini, SSRİ iqtisadiyyatının strateji inkişaf yollarını əvvəlcədən görmək qabiliyyətini nəzərə aldıqda Heydər Əliyev, şübhəsiz ki, həmin vaxt SSRİ hökumətində birinci şəxs idi. O, ölkədə vəziyyəti qaydasına salmaq, özünün artıq Azərbaycanda yoxlanılmış və müsbət

nəticə vermiş iş üsulunu və metodlarını həyata keçirmək üçün bütün səlahiyyətlərə malik idi. Əlbəttə, Heydər Əliyev kimi nadir şəxsiyyət özünü hər yerdə kifayət qədər aydın şəkildə göstərə bilərdi, lakin Heydər Əliyevin gəlişi ilə Nazirlər Sovetinin aparatı Sov.İKP MK aparatından işlək oldu, konstruktiv transformasiyaya, köklü dəyişikliklərə, yenilənməyə daha çox məruz qaldı. Uzun müddətdən sonra, 90-cı illərdə, xarici işlər naziri kimi Prezident Heydər Əliyevi müşayiət etdiyim zaman müxtəlif ölkələrin yüksəkvəzifəli siyasətçilərinin Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin müavini kimi fəaliyyətindən onlara məlum olan ayrı-ayrı faktları necə məmnuniyyətlə xatırladıqlarına dəfələrlə şahid olmuşam. İctimai rəyə gəlincə, SSRİ Nazirlər Soveti sədri vəzifəsinə ən çox ehtimal olunan namizəd kimi çox vaxt Heydər Əliyevin adı çəkilirdi. 1983-cü ilin oktyabrında Belçika və Lüksemburqda xidməti ezamiyyətdə olduğum zaman Avropanın televiziya kanallarının birində gördüyüm verilişdə Heydər Əliyev Sov.İKP MK-nın baş katibi vəzifəsinə ən çox ehtimal olunan namizəd kimi qeyd edilirdi.

***Demək istəyirsiniz ki, ora müstəqil fəaliyyət göstərmək və qətiyyətli qərarlar qəbul etmək baxımından Heydər Əliyev üçün daha uyğun bir sahə idi?***

Tamamilə doğrudur. Birincisi, o, Siyasi Büronun üzvü kimi bilavasitə ölkənin siyasi rəhbərliyinin tərkibinə daxil idi, ikincisi, SSRİ hökuməti sədrinin birinci müavini kimi konkret, həm də kifayət qədər geniş bir sahəyə – həm sırf iqtisadi,





həm də humanitar sahəyə cavabdeh idi. Heydər Əliyev SSRİ hökumətində ölkənin dəmir yollarına uğurla nəzarət edirdi. Heydər Əliyev həmin vəzifəyə gəlməzdən əvvəl ölkənin dəmir yolları dərin böhran vəziyyətində idi. Qısa müddətdə əldə olunmuş nəticələr göz qabağında idi. O, ölkənin Avropa hissəsinə Qərbi Sibir və Urenqoydan nəhəng qaz kəmərlərinin çəkilməsinə nəzarət edirdi. Heydər Əliyev məşhur BAM-ın (Baykal-Amur magistralı) tikintisinə rəhbərlik edirdi. Yeri gəlmişkən, mən 1983-cü ildə Urenqoyda olmuş, 1984-cü ildə isə BAM-ın tikintisi ilə bağlı ezamiyyətə getmiş və Baykal gölündən başlayaraq 10 gün ərzində həmin dəmir yolunun tikinti sahəsindəki vəziyyətlə tanış oldum. Fəhlələrlə, yaxud yerli rəhbərlərlə görüşdüyüm hər yerdə Heydər Əliyev haqqında xoş sözlər eşidirdim. 1985-ci ilin aprelində, Vyetnama ezamiyyətə getdiyim zaman bir neçə ay əvvəl orada olmuş Heydər Əliyevin necə taleyüklü məsələləri həll etdiyi haqqında fikirlər eşidirdim.

O vaxt Nazirlər Sovetinin nəzdində operativ, yaxud xüsusi əhəmiyyətli məsələlər üzrə komissiya fəaliyyət göstərirdi. Rus dilində hər iki halda qısaca "KOV" alınırdı. Həmin komissiyaya Nazirlər Soveti sədrinin müavinləri və bir neçə nazir daxil idi. Komissiya həftədə bir dəfə, bazar ertəsi günlərində toplaşırdı. Heydər Əliyev Nazirlər Sovetinə getməzdən əvvəl komissiyanın işi formal xarakter daşıyırdı. Heydər Əliyev həmin komissiyaya başçılıq etməyə başladı və onun iş üsulunu kökündən dəyişdirdi. Heydər Əliyevin rəhbərliyi dövründə KOV az qala ikinci Siyasi Büroya çevrilmişdi. Komissiya

ölkənin təsərrüfat idarəçiliyinin bütün mühüm məsələlərini həll edirdi və faktiki olaraq bütün ölkənin rəhbər orqanına çevrilmişdi. Heydər Əliyev müttəfiq respublikalardan sədr müavinlərini, nazirləri və başqalarını KOV-un iclaslarına dəvət edir, ciddi tələbkarlıq nümayiş etdirir, "qulaqburması" verirdi. Heydər Əliyev SSRİ-nin xalq təsərrüfatı sahəsində ən nüfuzlu şəxsə çevrilmişdi. Nazirlər Sovetinin sədr müavinləri, nazirlər, Sov.İKP MK-nın katibləri ən müxtəlif məsələlərə görə Heydər Əliyevə müraciət edir və onun fikri ilə hesablaşırdılar.

***Siz Moskvada işlədiyi müddətdə konkret məsələlərlə bağlı ona müraciət etmişdinizmi?***

Demək olar ki, Azərbaycana aid məsələlərə görə ona müraciət etmək lazım gəlmirdi, respublikadakı vəziyyətlə həmişə özü maraqlanır, kömək edirdi. İttifaq rəhbərlərinin də çoxu onun marağını nəzərə alaraq, Azərbaycana münasibətini müsbət mənada kəskin şəkildə dəyişmişdi. Bizim problemlərimiz çox vaxt maneəsiz olaraq həll edilirdi. Artıq digər respublikalar da bizə müraciət etməyə başlamışdı. Müttəfiq respublikaların kommunist partiyalarının MK katiblərinin çoxu, həmkarlarım Moskvada olanda mənə müraciət edir, onların Heydər Əliyevlə görüşünü təşkil etməyimi xahiş edirdilər. Mən həmin xahişləri Heydər Əliyevə çatdırmağa çalışırdım. Həm də onun özü mənə demişdi ki, nəzarətində olan sahələrlə bağlı hər hansı məsələyə görə mənə müraciət etsələr, onunla





görüş təşkil edəcəyimə arxayınlıqla söz verə bilərəm. Məsələn, o dövrdə iri sosial-mədəni təyinatlı obyektlərin maliyyələşdirilməsi ciddi şəkildə məhdudlaşdırılırdı, ona görə də Heydər Əliyev mədəniyyət obyektlərinin tikintisində bəzi respublikalara, xüsusilə də Mərkəzi Asiya respublikalarına kömək etmişdi. Belə hesab olunurdu ki, daha çox sənaye müəssisələri və yaşayış evləri tikilməlidir. Yadımdadır ki, məhz Heydər Əliyevin şəxsi qayğısı sayəsində Qazaxıstan və Özbəkistanda teatr binaları tikilmişdi.

***Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə Azərbaycanda hansısa yeni obyektlər tikilmişdimi?***

O, Azərbaycanda işlədiyi zaman yalnız hansısa obyektlərin əsasını qoymamışdı. O dövrdə Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin bir sıra qərarları nəticəsində böyükmiqyaslı tikinti işlərinin uzunmüddətli və səmərəli proqramı hazırlanmışdı. Tikinti işlərinin proqramı o qədər geniş idi ki, inşaatçılar çox vaxt işi çatdıra bilmirdilər. Heydər Əliyev Azərbaycana rəhbər seçildiyi zaman respublika iqtisadiyyatı bir qədər qapalı və baxımsız vəziyyətdə idi. Kənd təsərrüfatında pambıqçılıq, sənayedə isə neft hasilatı üstünlük təşkil edirdi. Bununla yanaşı, pambıq planı sistemli olaraq yerinə yetirilmir, neft istehsalının səviyyəsi isə daim aşağı düşürdü. Respublikada ən geridə qalan sahə isə SSRİ üzrə bütövlükdə yaxşı inkişaf etmiş maşınqayırma sənayesi idi. Heydər Əliyev iqtisadi məsələlərin

həllinə o zamanlar məşhur olan "istənilən halda plan yerinə yetirilməlidir" üsulunu tətbiq etməklə deyil, strateji cəhətdən yanaşırdı. O, Azərbaycan iqtisadiyyatının quruluşunun köklü şəkildə yenidən qurulmasını həyata keçirməyi qərara almışdı. Məsələn, kənd təsərrüfatında üzümçülüyün, şərabçılığın, tərəvəzçiliyin, çay və digər subtropik bitkilərin inkişaf etdirilməsi proqramı qəbul edilmişdi. Kənd təsərrüfatında texniki bitkilərin inkişaf etdirilməsi öz ardınca emal sahələrinin də inkişafına, yeni müəssisələrin yaradılmasına səbəb oldu. Sənayedə neft-mədən avadanlıqlarının istehsalının həcmi kəskin şəkildə artdı. İşlər daha geniş miqyas alır, mövcud zavodlar yenidən qurulur, eyni zamanda bu gün də fəaliyyət göstərən Dərin Özüllər Zavodu kimi müasir texnologiyalı nəhəng müəssisələr tikilirdi. Azərbaycan qısa müddət ərzində SSRİ üzrə neft maşınqayırması məhsullarının, demək olar ki, 70 faizini istehsal etməyə başlamışdı. Dəzgahqayırma, elektronika, elektrotexnika kimi qabaqcıl sahələrin ilk müəssisələri yaranırdı ki, bunların da ən öndə gedəni dünyada məşhur olan Bakı Məişət Kondisionerləri Zavodu idi. Azərbaycanın siyasi uğurları və iqtisadi nəticələri bir vəhdət təşkil edirdi. 1980-ci ilin sentyabrında Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi işlədiyim zaman Qazaxıstanda keçirilən, Leonid İliç Brejnevin də iştirak etdiyi yubiley tədbirlərində Heydər Əliyevi müşayiət edirdim. O vaxt Almatıdakı təntənəli yığıncaqda çıxış edənlərdən birinin dediyi bu sözlər diqqətəlayiqdir: "Bu gün Azərbaycan özünün məişət kondisionerləri vasitəsilə





təkcə otaqların havasını dəyişdirmir, həm də bütövlükdə ölkənin sağlam mənəvi, ictimai-siyasi mühitini müəyyənləşdirir". Moskvadakı fəaliyyət dövrünə gəlincə, "şəhər yük maşınları" adlandırılan tonyarımlıq azlitrajlı avtomobillər istehsal edən zavodun Azərbaycanda tikintisinin əsası Heydər Əliyevin təşəbbüsü ilə məhz o vaxt qoyulmuşdu. Zavodun Gəncə şəhərində tikilməsi nəzərdə tutulurdu. O vaxt mən artıq Mərkəzi Komitənin tikinti və nəqliyyat üzrə katibi idim, ona görə də həmin tikintiyə birbaşa rəhbərlik etməli olmuşdum. Obyektin tikinti qrafiki uğurla həyata keçirilirdi. Moskvaya, Heydər Əliyevə, demək olar ki, hər həftə vəziyyətlə bağlı hesabat verirdim. Ortaya çıxan bütün problemlər Moskvada çox operativ şəkildə həll edilirdi. İttifaq rəhbərləri tikintinin gedişinə Heydər Əliyevin nəzarət etdiyini yaxşı bilirdilər. Hər şey tezliklə Azərbaycan istehsalı olan yük maşınlarının buraxılmasına doğru gedirdi. Bu təkcə Azərbaycanın nüfuzunu artırmayacaq, həm də bütövlükdə sənaye istehsalının strukturunda ciddi müsbət dəyişikliklərə səbəb olacaqdı. Çox təəssüf ki, əvvəl Qarabağ hadisələri, sonra respublika rəhbərliyinin dəyişməsi, daha sonra isə SSRİ-nin dağılması Azərbaycan üçün unikal olan bu layihənin həyata keçməsini ləngitdi. Düşünürəm ki, bu unikal layihə tezliklə, nəhayət, öz layiqli həllini tapacaq.

***Deyə bilərsinizmi, Heydər Əliyev gedəndən sonra Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinin davamçısı məsələsi necə qoyulmuşdu? Müxtəlif adlar çəkilirdi...***

Mən 1981-ci ilin yanvarında Mərkəzi Komitənin katibi seçiləndə MK katibliyində yenilənmə baş verdi və Kamran Bağırov, diplomatik dillə desək, duayen oldu. Yəni "bərabər olanlar arasında böyük". Heydər Əliyev də hərdən onu belə çağırırdı. Heydər Əliyev və MK-nın ikinci katibi yerində olmayanda, o vaxt deyildiyi kimi, "təsərrüfatın başında" Kamran Bağırov qalırdı. Heydər Əliyev vəzifədən gedərkən büro üzvlərinin çoxuna "Sən özünü MK-nın birinci katibi vəzifəsində görürsənmi və həmin vəzifədə kimi görmək istərdin?" sualını vermişdi. Çox güman ki, milliyyətcə rus olan MK-nın ikinci katibi və 4-cü Ordunun komandanı istisna idi. Ola bilsin ki, bu bəzilərinin həmin vəzifəyə başqalarından daha artıq layiq görüldüyünü düşünməsi üçün əsas olub. Azərbaycan KP MK-nın Bürosunda Kamran Bağırovun seçilməsi ilə bağlı rəsmi qərar qəbul edildiyi zaman Heydər Əliyev belə demişdi: "Azərbaycan KP MK-nın keçmiş birinci katibi Vəli Axundov vəzifədən gedəndə nəinki büro üzvləri arasında, hətta MK-nın üzvləri arasında belə həmin vəzifəyə uyğun gələn bir nəfər də yox idi. İndi isə MK-nın Büro üzvlərindən hər biri bu vəzifəni tutmaq üçün münasib namizəddir".

### *Heydər Əliyevin Bakıdan gedişi necə baş vermişdi?*

Bir gün Heydər Əliyevin Bakıdakı kabinetində oturmuşdum. Elə bu vaxt VÇ[1] (xüsusi kommutator) telefonu zəng

[1] Yüksəktezlikli (высокие частоты) rabitə; keçmiş SSRİ-nin hökumət və hərbi rabitə sistemində geniş tətbiq olunurdu.





vurdu. Danışan Yuri Vladimiroviç Andropov idi, Siyasi Büroda müzakirə etmək istədiyi hansısa məsələni onunla razılaşdırırdı. Söhbət əsnasında soruşdu: "Siz nə üçün Bakıda bu qədər yubanırsınız?" Bəlkə də, başqa birisi özünü itirərdi, amma mən Heydər Əliyevin qətiyyətli cavabının şahidi oldum: "Mən 14 il birinci katib vəzifəsində işləmişəm, işlərə yekun vurmaq və vidalaşmaq üçün də mənə heç olmasa 14 gün lazımdır". Düzdür, bu vidalaşma rəmzi xarakter daşıyırdı. Heydər Əliyev tezliklə məzuniyyətini keçirmək, sonra isə 1983-cü ilin payızında Bakıda keçirilən "Şərq xalçaları" beynəlxalq simpoziumunda iştirak etmək üçün Azərbaycana gəldi. O, Azərbaycanla bağlı Moskvada keçirilən bütün mədəni tədbirlərdə iştirak edirdi. Dekabrın ilk günlərində MK-nın plenumu keçirildi, Heydər Əliyev orada özünün fəaliyyətinə yekun vuran böyük məruzə ilə çıxış etdi, eyni zamanda Azərbaycanın rəhbərliyində dəyişiklik oldu. Beləliklə, Heydər Əliyev noyabrın 10-da Moskvada Siyasi Büronun üzvü seçilərək Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi, bir neçə gündən sonra Bakıya qayıtdı, nəhayət, dekabrın 10-da birdəfəlik getdi. Həmin günlərdə minlərlə insan onunla vidalaşmaq istəyirdi. Lakin o dövrün qaydalarına görə, bunu tam miqyasda həyata keçirmək mümkün deyildi. İstisna olaraq ziyalılar üçün şərait yaradılmışdı, onların nümayəndələri dəstə-dəstə kabinetə gələrək Heydər Əliyevlə vidalaşırdılar. Heydər Əliyevin seçilməsi ilk növbədə həm onun şəxsi uğuru, həm də Azərbaycanın uğuru kimi qəbul edilirdi. Hər kəs ikili hiss

keçirirdi: bir tərəfdən Heydər Əliyevin uğuruna görə sevinc, digər tərəfdən Azərbaycanın sonrakı taleyi üçün narahatlıq. Sonralar, Ermənistanın Dağlıq Qarabağa iddiaları açıq şəkil aldığı zaman Heydər Əliyevin yeri çox görünürdü.

***Onun kadrlara münasibətində hər hansı bir xüsusi cəhət var idimi?***

SSRİ şəraitində kadr siyasəti vəzifəli şəxslərin fəaliyyətinin ən çox siyasiləşmiş hissəsi idi. Hər vəzifəli şəxs məhz özünün kadr siyasətinə əsasən qiymətləndirilirdi. Məlumdur ki, SSRİ-də uzun müddət “kadrlar hər şeyi həll edir” şüarı qüvvədə idi. Heydər Əliyevin həmin şüara gətirdiyi xüsusiyyət bundan ibarət idi ki, ümumi sağlam mənəvi-siyasi mühit yaradılmadığı halda heç bir “kadr hər şeyi həll edə bilməzdi”. Eyni zamanda həmin mühitin yalnız bir şəhərdə, yaxud rayonda yaradılması kifayət deyildi. Ona görə də Heydər Əliyev öz növbəsində hər şeyi edirdi ki, bütövlükdə respublikadakı mənəvi-siyasi mühit kadrların yerlərdə uğurlu fəaliyyətini təmin edə bilsin. Bundan əlavə, onun kadrlara münasibəti çoxcəhətli idi. O bir tərəfdən bütün işçilərə mənəvi və əxlaqi keyfiyyətlərinə görə eyni dərəcədə tələbkarlıqla yanaşır, digər tərəfdən onları müəyyən bir vəzifəyə uyğunluğuna görə dəyərləndirirdi. Məsul vəzifəyə təklif edilən istənilən namizəd haqqında öz fikrinin olmasına çalışırdı. O, qaydaları müəyyən edir, amma onları ehkamlaşdırmırdı. Bəzən işçilərin nəyə qabil olduğunu onların özlərindən yaxşı bilirdi. Onların fəaliyyətini





müxtəlif vəziyyətlərdə diqqətlə müşahidə edir və yalnız işin nəticəsinə görə qiymət verirdi. Qiymətləndirmə meyarları çox idi, amma əsas olanlar mənəvi və siyasi keyfiyyətlər idi.

1981-ci ilin yanvarında Heydər Əliyev Azərbaycan KP MK-nın katibi vəzifəsinə məni tövsiyə etdi. O dövrün qaydalarına görə, seçkidən əvvəl Moskvada yüksək səviyyədə müsahibədən keçmək lazım idi. Siyasi Büronun üzvü, Sov.İKP MK-nın katibi, partiyada ikinci şəxs olan Mixail Suslov tərcümeyi-halımla tanış olandan sonra (müsahibə cəmi yarım saat çəkmiş, onun 15 dəqiqəsində Suslov mənim tərcümeyi-halımı oxuyaraq şərh etmişdi) eynəyini çıxararaq dedi: “Bəli! Heydər Əliyeviç sizi çoxdan bu vəzifəyə hazırlayır”. Həqiqətən, sanki Heydər Əliyev bizim nəsildən olan bir çox insanların xidmət karyerasını yalnız ona məlum olan kodla proqramlaşdırmışdı. Hamıya eyni başlanğıc fürsəti, bərabər imkanlar verilirdi. Amma eyni zamanda hər şey insanın daim öz üzərində işləməsindən, özünü təkmilləşdirmək qabiliyyətindən, özünü ifadə etmək səylərindən asılı idi. Heydər Əliyev kadrları səmimi, açıq təbiətli, təbii görməyə üstünlük verirdi, çünki onların davranışlarında süniliyi, saxtakarlığı sevmirdi. Bir dəfə belə demişdi: “Nədənsə müsahibə üçün yanıma gələn insanların hamısı eynidir, hamısı bir-birinə bənzəyir”. “Bu, yaxşıdır, yoxsa pis?” “Bu nə yaxşıdır, nə də pis, sadəcə, belə olmamalıdır. Mən bu insanları olduqları kimi görmək istəyirəm, xüsusi olaraq mənimlə görüşə hazırlaşdıqları kimi yox”.

***Bizim yaddaşımız seçici xarakterə malikdir. Heydər Əliyevin isə fenomenal yaddaşa malik olduğunu deyirlər.***

Bəli, həqiqətən, onun fenomenal yaddaşı vardı. Həm də o, sadəcə, məlumatları əzbərləmirdi, onları yaddaşda saxlamağın xüsusi bir üsuluna malik idi. Bu, xüsusilə vəzifəli şəxslərin verdiyi vəd və təminatlara aid idi. Hər hansı sənədi nəinki yadda saxlamaq, hətta olduğu kimi təkrarlamaq üçün də onu bircə dəfə eşitməsi, yaxud oxuması kifayət idi. Yəqin ki, o öz yaddaşını möhkəmləndirmək üçün məşqlər edirdi, xüsusi yaddasaxlama üsulu vardı. Xarici işlər naziri işlədiyim zaman Heydər Əliyev bir dəfə mənə zəng edib Moskvaya teleqram hazırladığını dedi və soruşdu:

– Sən SSRİ avtomobil sənayesi nazirini xatırlayırsan?

– Xatırlayıram, Polyakov idi. Gəncə Avtomobil Zavodunun binaları tikilərkən onunla çox danışmışam.

– Bəs onun həyat yoldaşının adı və ata adı necə idi?

– Xatırlamıram.

– Axı biz onlara tez-tez təbrik teleqramları göndərirdik, o teleqramlarda mütləq yoldaşının da adını çəkirdik.

– Bəli, elədir.

– Deyəsən, bir dəfə də yoldaşı ilə birlikdə bura gəlmişdi.

– Elədir, gəlmişdi.

– Yaxşı, sən öz tanışlarından öyrənə bilərsən?

– Çalışaram.

Məndə Sov.İKP MK aparatının və SSRİ Nazirlər Soveti əməkdaşlarının ev telefonlarının da qeyd olunduğu köhnə





bir məlumat kitabçası vardı. Fikirləşdim ki, köhnə tanışlardan birinin telefon nömrəsini tapıb zəng edərəm və ondan soruşaram. Kitabçanı tapdım, kimə zəng edəcəyimi fikirləşərək onu vərəqləməyə başladım. Mən fikirləşənədək prezidentlə birbaşa əlaqə telefonu yenidən zəng çaldı: "Daha axtarma, – Heydər Əliyev dedi, – özüm xatırladım". Bir dəfə respublikamızın müstəqilliyi dövründə, Heydər Əliyev prezident, mən isə xarici işlər naziri kimi Kremldə olanda bizim üçün keçmiş SSRİ Nazirlər Sovetinin binasına kiçik bir səyahət təşkil etmişdilər. İndi həmin bina Rusiya Federasiyası Prezidentinin iqamətgahıdır. Orada hər şey dəyişdirilib, yenidən qurulub, otaqlar yenidən rənglənib, tamamilə başqa cür, 70-80-ci illərdəkindən fərqli üslubda bəzədilib, anfilada[1] şəklində düzülüb... Biz həmin otaqları gəzirdik, hər şeyi bizə göstərir, binanın daxili quruluşu, bəzəklər, naxışlar və s. haqqında danışırdılar. Heydər Əliyev otaqların birində dayandı və bələdçidən soruşdu: "Buranın kimin kabineti olduğunu bilirsiniz?" Bələdçi fikrə getdi. "Özünüzə əziyyət verməyin, – Heydər Əliyeviç gülümsədi, – bura mənim kabinetim idi". Halbuki dizayn tamamilə fərqli idi, anfilada şəklində düzülmələri də otaqların xarici görünüşünü bir qədər dəyişdirmişdi. "Məndən əvvəl bura Molotovun otağı olub, – o dedi, – sonra uzun illər boş qalıb, 1982-ci ilin dekabrından isə burada mən işləyirdim".

---

[1] Anfilada – ardıcıl olaraq bir-birinə bitişik şəkildə yerləşən və vahid ox boyunca eyni istiqamətə açılan məkanlar

1979-cu ildə Gəncədə işlədiyim zaman sonralar Heydər Əliyevlə razılaşdırmaq və həll etmək üçün bir neçə təklif hazırlamışdım. Bakıya gəlməzdən əvvəl Mərkəzi Komitəyə zəng etdim və "Birinci"nin qəbuluna yazıldım. Daha sonra onlar zəng etdilər, "Birinci"nin məni qəbul edəcəyi günü və saatı bildirdilər. Mən Bakıya gəldim. Heydər Əliyevlə görüşərək təkliflərimi izah etdim, o da bəyəndi. Sonra onun çoxsaylı suallarına cavab verdim. Bir neçə saat çəkən söhbətimizin sonunda dedi: "Yaxşı, hamısını yazılı şəkildə təqdim et, sənin məsələni həll edəcəyəm". Cavab verdim: "Mən artıq hamısını hazırlamışam". "Onda ver Yakov Mixayloviçə, mən indi sənədləri nəzərdən keçirəcəyəm, ona da dərkənar qoyaram". Mən Heydər Əliyevin yanından çox gec çıxdım, gecə saat 12 idi. Görüşün uğurlu keçməsindən ruhlanmış halda Azərbaycan KP MK-nın Ümumi şöbəsinin müdiri Yakov Mixayloviç Kirsanovun otağına girdim, sənədə qol çəkib məsələnin mahiyyətini ona izah etdim. Sonra məmnun halda evə gəldim, şam yeməyini yeyib yatmağa hazırlaşırdım. Təxminən gecə saat 1-də telefon zəng çaldı. Dəstəyi qaldırdım – Yakov Mixayloviç Kirsanov idi.

– Siz mənə sənəd verdiniz, ora qol çəkdiniz, amma tarix yoxdur.

– Üzr istəyirəm, Yakov Mixayloviç, Heydər Əliyeviçin yanından elə sevincək çıxmışdım ki, hər şeyi unutdum. Sabah səhər gəlib sənəddə tarixi qeyd edərəm.

– Yox, sabah olmaz, indi gəlməlisiniz.





– Nə üçün? Gecənin bu vaxtı mənim kağızlarımı neyləyəcəksiniz?

– Mən heç nə etməyəcəyəm. Amma Heydər Əliyeviç dedi ki, əgər Həsənov bu gecə saat 1-də Mərkəzi Komitəyə gəlib sənəddə tarixi qeyd etsə, bir də heç vaxt imzaladığı sənədlərdə tarix qoymağı yaddan çıxarmayacaq.

Gedib sənəddə tarixi yazmalı oldum və adi görünən bu əhvalatı, həqiqətən, bütün ömrüm boyu xatırladım. Sonralar özüm də tabeliyimdə olanlara həmin üsulu tətbiq edirdim ki, onlar işi başqa cür yox, məhz bu şəkildə aparmalı olduqlarını xatırlasınlar. Bu təkcə tarix məsələsinə deyil, bu və ya digər hallarda özünü göstərən istənilən səliqəsizliyə aid idi.

***Heydər Əliyevin iş üsulunun və metodlarının xüsusiyyətlərini bilmək maraqlı olardı.***

XX əsrin 70-ci illəri Azərbaycan üçün ümumi yüksəliş dövrü idi və o, əvvəlki illərin iş üslubundan kəskin şəkildə fərqlənirdi. Mənim onları müqayisə etmək imkanım var, çünki Heydər Əliyevdən əvvəl həm Kommunist Partiyası MK-nın aparatında, həm də komsomolda işləmişdim. Ondan əvvəl ətalət hökm sürürdü, coşqunluq, dinamizm yox idi, ayrı-ayrı fəal və həvəsli işçilərin ümumi ab-hava yaratması isə çətin məsələ idi. Düzdür, o vaxt da mənfi hallarla mübarizə aparır, kimi isə işdən çıxarır, cəzalandırırdılar, lakin bütün bunlar sistemli, ardıcıl xarakter daşımırdı. Ab-havanın dəyişməsi yalnız kollektiv səylər nəticəsində baş verə bilərdi. Heydər Əliyevin

iş üsulu onunla fərqlənirdi ki, o, mənəvi və siyasi sağlamlaşdırma ilə bağlı bütün işləri aşkarlıq şəraitində, ictimai rəyi nəzərə alaraq həyata keçirirdi, cəmiyyəti birləşdirməyi və onu əsaslı dəyişikliklərə yönləndirməyi bacarırdı. Heydər Əliyev öz prinsiplərində və hərəkətlərində ardıcıl idi. Ona görə də Qorbaçov aşkarlıq siyasətini elan edəndə deyirdik ki, bu bizim üçün yeni deyil, Azərbaycanda aşkarlıq çoxdan – 15 ildir mövcuddur. Sovet cəmiyyətinin həyatına həmin aşkarlığı daha təbii və mükəmməl şəkildə Heydər Əliyev gətirmişdi.

***Belə çıxır ki, Heydər Əliyev də öz növbəsində yenidənqurma həyata keçirirdi?***

Şübhəsiz. Ümumiyyətlə, bəzi paralellər aparmaq olar: Heydər Əliyev yenidənqurması və Qorbaçov yenidənqurması, Qorbaçov nümunəsində aşkarlıq və Əliyev tərzində aşkarlıq nə idi? Qorbaçovun kadr siyasəti islahatları və Əliyevin kadr siyasəti... Əliyev özünün yenidənqurmasına başlayaraq və onu həyata keçirərək aydın mənəvi-əxlaqi və siyasi meyarlar, aydın və dəqiq strategiya, etibarlı fəaliyyət taktikası işləyib-hazırlamışdı. Qorbaçov özünün uzun-uzadı nitqləri ilə ictimai rəyi çaşdırırdı, onun "insan simalı sosializm" formulunu heç kim axıradək başa düşə bilmirdi, "yeni təfəkkür" anlayışını isə hərə öz bildiyi kimi şərh edirdi. Təsadüfi deyildi ki, Qorbaçovun yenidənqurmanı dəstəkləməklə bağlı xalqa müraciətinə cavab olaraq məhz onun şəxsiyyətinə münasibətdə ən radikal mövqedə olan təşkilatlar





"Yenidənqurmanı dəstəkləyən Xalq Cəbhəsi" adlanırdı. Xalq aşkarlıq arzusunda olduğu halda kollektiv və kütləvi dedi-qodu sistemi ilə, demokratiya istədiyi halda özbaşınalıq və qanunsuzluqla, iqtisadi islahatlar gözlədiyi halda iqtisadi iflasla üzləşmişdi. Qorbaçovun dövründə sağlam ictimai fikrin formalaşdırılması ictimai şüurun manipulyasiyası ilə əvəzləndi, cəmiyyətdə parçalanma, qarşıdurma yarandı. Qorbaçovun vaxtında ölkədə yürüdülən siyasətlə onun təbliğatının təşkili arasında ziddiyyət baş verirdi, Əliyevin fəaliyyətində isə onlar vəhdət təşkil edirdi. Əliyevdə kadrlara qarşı sabit və ardıcıl, Qorbaçovda xain münasibət vardı, Əliyev öz xarakterinin sabitliyi ilə, Qorbaçov qətiyyətsizliyi və qərarsızlığı ilə seçilirdi. Əliyevin həyata keçirdiyi yenidənqurma, aşkarlıq və kadr siyasəti Azərbaycanın çiçəklənməsinə və sabitliyinə gətirib çıxarmışdı, Qorbaçovun yenidənqurma, aşkarlıq və kadr siyasəti isə, sadəcə, rəhbərlik etdiyi dövlətin gec-tez baş verməli olan süqutuna deyil, ən əsası tam iqtisadi çöküşə, bir çox mənəvi dəyərlərin devalvasiyasına, cəmiyyət daxilində və xalqlar arasında qarşıdurmaya, qan tökülməsinə, təkcə silahlı toqquşmalara deyil, həm də respublikalar arasında açıq müharibəyə səbəb oldu. Biz xüsusilə sonuncu halı öz nümunəmizdə hiss etmişik.

***Heydər Əliyevin Sovet İttifaqının digər rəhbərləri ilə münasibətlərinin şahidi kimi öz təəssüratlarınızı danışmağınızı istərdim.***

Belə xatirələr çoxdur. Mən onun Siyasi Büro üzvlərinin, Sov.İKP MK katiblərinin, İttifaq nazirlərinin, müttəfiq respublikaların rəhbərlərinin çoxu ilə ünsiyyətinin şahidi olmuşam. Lakin onun Qorbaçovla münasibəti üzərində dayanmaq istəyirəm. Mənim bu müşahidəm təxminən on il davam edib. Biz 1981-ci ildə Moskvada Nizami Gəncəvinin yubileyini – anadan olmasının 840 illiyini keçirirdik. Mən onda Mərkəzi Komitənin ideologiya məsələləri üzrə katibi idim, ona görə də İttifaqlar evinin sütunlu salonunda keçirilən tədbirin təşkili ilə birbaşa özüm məşğul olurdum. Heydər Əliyevin tövsiyəsi ilə məruzəçi kimi də məni təsdiq etmişdilər. Biz bütün Siyasi Büro üzvlərinə, nazirlərə, Nazirlər Sovetinin yüksəkvəzifəli şəxslərinə və digərlərinə dəvətnamələr göndərmişdik. Yubiley günü gəlib çatdı, biz Sütunlu salona gəldik. Bayramın başlanmasına az qalırdı. Mən Rəyasət Heyətinin otağına daxil oldum, Heydər Əliyevə salonun dolduğunu, bütün qonaqların artıq gəldiyini məruzə etdim. O isə dedi: “Hazırda Siyasi Büronun iclası gedir, məni tədbir keçirdiyimə görə buraxdılar. Amma Siyasi Büronun digər üzvləri, çətin ki, gəlib çata bilsinlər. Deməli, yubiley gününü müəyyən edəndə nələri isə nəzərə almamışıq”. Biz söhbəti bitirməyə macal tapmadıq, qapı açıldı və Azərbaycanın daimi nümayəndəsi Ənvər Hüseynov içəri girdi, o vaxt Sov.İKP MK-nın kənd təsərrüfatı üzrə katibi olan Mixail Qorbaçov da onun yanında idi. Qorbaçov içəri keçib çox mehribanlıqla Heydər Əliyevi salamladı. Sonra cəld əlavə etdi: “Heydər Əliyeviç, mən sizə görə izin aldım. Heç kimi





Siyasi Büronun iclasından buraxmırdılar, təkid etdim ki, mən Heydər Əliyeviçin dəvətindən imtina edə bilmərəm”. Heydər Əliyev qısaca cavab verdi: “Diqqətinə görə təşəkkür edirəm”. Sonra məni ona təqdim edərək MK-nın ideologiya məsələləri üzrə katibi və tədbirin məruzəçisi olduğumu dedi və zarafat etdi: “Əgər Nizamiyə aid hansısa sualın varsa, çəkinmədən ona müraciət edə bilərsən”. Biz salona keçdik, tədbir başlandı. Danışdığım bir neçə əhvalat mənə Qorbaçovun Heydər Əliyevlə hesablaşdığını, özü də təkcə hesablaşmadığını, onda özünə qarşı xoş münasibət və rəğbət oyatmağa çalışdığını da deməyə əsas verir. Düşünürəm ki, Qorbaçovun Heydər Əliyevə qarşı münasibətində yaranan dəyişikliklər, qısaca desək, ümumiyyətlə, onun öz ətrafındakı insanlara, xüsusilə də Heydər Əliyevə qarşı qeyri-səmimi, riyakar münasibətindən xəbər verir. Mən 1984-cü ildə xidməti işlərimlə əlaqədar olaraq, Moskvaya getmişdim. Həmişəki kimi Heydər Əliyevin yanında oldum. Respublikadakı vəziyyət haqqında söhbət edirdik. Bu vaxt birbaşa əlaqə telefonlarından biri zəng çaldı. Heydər Əliyev dəstəyi qaldırdı: “Mixail Sergeyeviç? Bəli, eşidirəm sizi”. Təbii ki, mən protokol qaydalarına uyğun olaraq, qalxıb otaqdan çıxmaq istədim. Ancaq o, əli ilə qalmağım üçün işarə etdi. Onların söhbətinin mahiyyəti bundan ibarət idi ki, Qorbaçov bir yığın məsələni Heydər Əliyevlə razılaşdırırdı, ondan məsləhət, yaxud tövsiyə vermәsini istəyirdi. Heydər Əliyev isə hər şeyi ona ətraflı izah edirdi. Söhbətdən aydın olurdu ki, Qorbaçov hansısa məsələlərin həllində ondan

kömək istəyir. Heydər Əliyevin ona dediyi sözləri xatırlayıram: "Eybi yoxdur, mən filankəsə tapşıraram, bu məsələni həll edər... Yaxşı, mən bu məsələni ən yaxın zamanda KOV-da müzakirə edərəm, sizə məlumat verərlər... Mən dəvət edərəm... Mən zəng edərəm... Mən göstəriş verərəm..."

Danışıq başa çatdıqdan sonra dedim: "Məndə belə fikir yaranır ki, onun sizin təşkilatçılığınızdan daha çox siyasi dəstəyinizə ehtiyacı var". Heydər Əliyev cavab vermədi, yalnız gülümsədi.

1985-ci ildə Sov.İKP MK-nın nümayəndə heyətinin rəhbəri kimi Laosda və Vyetnamda ezamiyyətdə idim. Həmin vaxt Zərifə xanım Əliyeva vəfat etdi. Moskvadan göstəriş gəlmişdi ki, dəfn mərasiminə yalnız üç nəfər birinci şəxs: birinci katib, Nazirlər Sovetinin sədri və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri gedəcək. MK-nın digər katibləri getməmişdilər. Həyat yoldaşım Aybəniz xanım Bakıda idi, həmin göstərişdən xəbərdar deyildi və mən Bakıda olmadığıma görə dəfn mərasimində iştirak etmək üçün Moskvaya getməyi qərara almışdı. Mən isə Zərifə xanımın vəfatından yalnız Vyetnamdan qayıtdığım zaman, "Şeremetyevo" hava limanında xəbər tutmuşdum. Hava limanından birbaşa daimi nümayəndəliyə getdim və Zərifə xanımla vida mərasiminin hazırlıq işlərinə qatıldım. Vida mərasimi Alimlər evində keçirilirdi. Səhər matəmin keçirildiyi salona getdim. İnsanlar səhər tezdən gəlməyə başlamışdılar. SSRİ-nin bir sıra rəhbər işçiləri gəlmişdilər. İlk gələnlərdən biri də Sov.İKP MK baş





katibinin həyat yoldaşı Raisa Maksimovna Qorbaçova idi. O, mərasimdə əvvəldən axıradək iştirak etdi, qəbiristanlıqda da oldu...

***Həsən Əzizoviç, siz Zərifə Əliyevanı – bu gözəl qadını, görkəmli alimi, Heydər Əliyevin vəfalı ömür-gün yoldaşını şəxsən tanıyırdınız. Zəhmət olmasa, öz xatirələrinizi danışardınız.***

Mən Raisa Maksimovna Qorbaçovanın Heydər Əliyevin həyat yoldaşının dəfn mərasimində iştirakını hakimiyyəti möhkəmləndikcə ətrafındakı insanlara münasibətini dəyişdirən Qorbaçovun qeyri-səmimiliyini, vəzifəpərəstliyini göstərmək üçün xatırlatdım.

Zərifə xanımla şəxsi tanışlığımdan əvvəl onun atası, sovet Azərbaycanının görkəmli ictimai-siyasi xadimi Əziz Əliyev haqqında məlumatım vardı. Təəssüf ki, bu görkəmli şəxs barəsində ilk dəfə 1962-ci ilin iyulunda, onun vəfatı xəbəri ilə bağlı olaraq eşitmişdim, mən onda Bakı Şəhər Komsomol Komitəsində tələbələrlə iş üzrə təlimatçı vəzifəsində işləyirdim. Qəribədir ki, mənə onun barəsində mərhumu şəxsən tanımayan yaşıdlarım, tibb institutunun tələbələri danışmışdılar. O mənim yaddaşımda onunla hansısa əlaqəsi olmuş hər kəsə heyrətamiz diqqət və qayğı ilə yanaşan qeyri-adi taleli insan kimi qalmışdı. Sonralar Zərifə xanımla tanış olanda anladım ki, o öz xarakterinin məhz həmin cəhətlərini atasından miras alıb.

Təbii ki, mən Moskvadan Bakıya qayıdaraq Azərbaycan KP MK-nın aparatında Heydər Əliyevin rəhbərliyi altında işləməyə başlayanda Zərifə xanım haqqında bilirdim. Lakin onunla şəxsi tanışlıq və ünsiyyət imkanım Səbail rayonunun rəhbəri seçiləndən sonra yarandı. Yerli orqanlara seçkilərlə bağlı səsvermə günündə mən rayonun partiya rəhbəri kimi Heydər Əliyevi qarşıladım, o səs verəndən sonra getməyə tələsmədi və səsvermədə iştirak edən insanlarla söhbət etməyə başladı. Bu zaman işçilərdən biri mənə yaxınlaşaraq pıçıltı ilə Zərifə xanımın da gəldiyini dedi. Mən Zərifə xanımı qarşılamaq və səsvermədə müşayiət etmək üçün cəld ona yaxınlaşdım. O, diqqətimə görə mənə təşəkkür etdi və astadan dedi: "Yaxşısı budur, Heydər Əliyevin yanında olasınız". Onun səsində həm təvazökarlığın, həm də Heydər Əliyev şəxsiyyətinə böyük diqqətin ifadəsi vardı. Mən qayıdıb Heydər Əliyevin yanında dayandım, amma yenə də narahatlıqla Zərifə xanımın hərəkətlərini izləməkdə davam edirdim. Orada iştirak edənlərdən biri bu mənzərənin şəklini çəkmişdi, mən isə həmin fotonu, demək olar ki, iyirmi ildən sonra, Elbəy Qasımzadənin təşkil etdiyi, Zərifə xanımın xatirəsinə həsr olunmuş sərgidə gördüm.

***Sonralar bu qeyri-adi qadınla çox ünsiyyət qurmalı olmusunuz?***

Əlbəttə, bu cür imkanlar çox idi və mən hər dəfə onun yüksək insani keyfiyyətlərinin, dərin diqqətinin şahidi





olurdum. Onlardan yalnız bir neçəsi haqqında danışmağa çalışacağam. Bir dəfə yay vaxtı Zuğulbadan şəhərə işə gəlirdim. Sabunçu tərəfdə Dövlət Avtomobil Müfəttişliyi işçilərinin bir yerə toplaşdığını gördüm. Hər ehtimala qarşı, maşını saxlayıb nə baş verdiyini soruşduq. Bizə dedilər ki, yol nəqliyyat hadisəsi baş verib, nəticədə Zərifə xanımın bacısı Gülarə Əliyeva xəsarət alıb. Mən Heydər Əliyevin məzuniyyətdə olduğunu və Zərifə xanımla birlikdə Azərbaycandan kənarda istirahət etdiyini bilirdim. Biz Sabunçu xəstəxanasına getdik, həkimlərlə danışdıq, həyat yoldaşım palatada Gülarə xanıma baş çəkdi. Məlumatların təhrif olunmasının qarşısını almaq məqsədilə xüsusi kommutatorla xəstəxanadan birbaşa əlaqə yaradaraq Heydər Əliyevlə danışdım və hadisə haqqında xəbər verdim. Zərifə xanım bacısı ilə, həkimlərlə danışdı. Yəqin ki, hər kəs bu cür davranardı, amma Zərifə xanım məzuniyyətdən qayıdan kimi öz həyat qaydalarına riayət edərək həyat yoldaşım Aybənizlə görüşərkən bacısına göstərdiyi diqqətə görə minnətdarlığını bildirmişdi.

1979-1981-ci illərdə Gəncədə işlədiyim zaman şəhərin dağılmış vəziyyətdə olan 8 məscidini bərpa etməyə çalışdım. Təbii ki, bu, bir qədər təhlükəli cəhd idi. Təhlükə kommunist cəmiyyətində hökm sürən ateist ideologiya ilə əlaqədar idi. Heydər Əliyevin Gəncəyə gəlişinin hazırlıqları ilə məşğul olan köməkçisi Arif Mustafayev mənə zəng vuraraq bərpa olunmuş məscidlərə baş çəkməyi də proqrama daxil etməyi tapşırdı. Mən həyəcanla soruşdum ki, Heydər Əliyevə məscidlərin təmir

edilməsi haqqında kim deyib və o bu xəbəri necə qarşılayıb. Arif məni sakitləşdirərək cavab verdi ki, deyəsən, bu barədə ona Zərifə xanım deyib, ona isə bu yaxınlarda Gəncədə olmuş həkimlər məlumat veriblər. Heydər Əliyevin münasibətinə gəlincə, Arif məni sakitləşdirərək bildirdi ki, bu onun xoşuna gəlib.

1980-ci ildə Heydər Əliyev Qazaxıstan SSR-in 60 illik yubileyi münasibətilə Almatıya səfər edən nümayəndə heyətinin tərkibinə məni də daxil etmişdi. Heydər Əliyevi müşayiət edən Zərifə xanım orada qaldığımız müddətdə daim "hər şey qaydasındadırmı, hansısa problem varmı, nəsə lazımdırmı" deyə mənimlə maraqlanırdı. 1981-ci ildə Heydər Əliyevin qərarı ilə Azərbaycan KP MK-nın katibi və MK-nın Büro üzvü seçildim. Müəyyən tədbirlərə MK Bürosu üzvlərinin xanımlarını da dəvət etmək kimi bir ənənə vardı. Zərifə xanım həm yaşca, həm də mövqeyinə görə onların hamısından böyük idi. Amma həyat yoldaşım Aybəniz hər görüşdən sonra Zərifə xanımın sadəliyindən, qayğıkeşliyindən, onların hər birinə qarşı diqqətindən heyranlıqla danışırdı.

***Biz Zərifə xanım haqqında söhbətə onun vəfatı və Moskvadakı dəfn mərasimi ilə bağlı xatirələrdən başladıq...***

Zərifə xanımın vəfatından bir neçə il əvvəl onun həyatı üçün təhlükə yaradan bir hadisə baş vermişdi. Bir dəfə bizim Musiqili Teatrın direktoru Bala Qasımov mənə zəng edib dedi ki, Zərifə xanım Moskvadan təyyarə ilə gəlir və burada





tamaşaya baxmaq istəyir. Direktor məni də xanımımla birlikdə tamaşaya dəvət edirdi. Zərifə xanım tamaşaya gecikmişdi, üzrxahlıq etdi və dedi ki, Moskvadan xüsusi reyslə çıxıb. Lakin təyyarə havaya qalxan kimi problem yaranıb və həmişəki qədər rahat olmayan təcili qəza enişi edilib. Təyyarə eniş etdikdən sonra xüsusi reysin sərnişinləri hökumət salonuna keçiblər və başqa təyyarə ilə uçuşdan imtina ediblər. Onlardan fərqli olaraq, Zərifə xanım soyuqqanlı halda növbəti reyslə uçan təyyarəyə minib, Bakıya çatdıqdan sonra isə hava limanından birbaşa teatra gəlib. Zərifə xanımın danışdıqları orada olanları həyəcanlandırmışdı. Bu hərəkət onu inanılmaz dərəcədə soyuqqanlı və dəmir iradəyə malik bir qadın kimi səciyyələndirir. 1995-ci ildə Rəşid Behbudov teatrında Zərifə xanımın xatirə gecəsi təşkil olunmuşdu. Mən o gecədə çıxış etdim və həmin hadisə haqqında da danışdım. Mən Heydər Əliyevə yaxın yerdə idim və danışdığım əhvalatdan sonra onun üzündəki ifadənin necə dəyişdiyini gördüm. Gecənin sonunda Heydər Əliyev çıxış etdi və mənim çıxışıma istinad edərək bu hadisənin başqa təfərrüatlarını da danışdı.

***Zərifə xanım yaddaşınızda necə qalıb?***

Zərifə xanım mənim yaddaşımda sadə və mülayim təbiətli, olduqca insanpərvər, ətrafındakılara qarşı diqqətli və eyni zamanda dəmir iradəli bir qadın kimi qalıb. Uzun illərdən sonra heykəltaraş dostlarım Səlhab Məmmədov və Akif Əsgərovdan Zərifə xanımın obrazını əbədiləşdirmələrini xahiş etmişdim.

Onlar əsərin kompozisiyasını hazırladılar, lakin o mənim xoşuma gəlmədi. Mən bu əsəri necə gördüyümü onlara ən xırda detallarınadək izah etdim. Onlar da bunu nəzərə aldılar. Sonra Zərifə xanımın tunc barelyefini şəxsən özüm Heydər Əliyevə təqdim etdim. Əsər onun çox xoşuna gəldi.

***1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan tarixinin faciəli dövrü oldu, amma eyni zamanda da Heydər Əliyevin "böyük" siyasətə qayıdışına təkan verdi. Siz o dövrdə Mərkəzi Komitənin katibi idiniz və sizin o vaxt partiya-təsərrüfat fəallarının yığıncağındakı çıxışınız bomba kimi partlamışdı. O günləri necə xatırlayırsınız?***

1990-cı ildə, faciəli yanvar hadisələrindən sonra Azərbaycan KP MK-nın dörd nəfər büro üzvünü: Ayaz Mütəllibovu, Viktor Polyaniçkonu, Müslüm Məmmədovu (həmin vaxt şəhər partiya komitəsinin birinci katibi idi) və məni Moskvaya, Siyasi Büronun iclasına dəvət etdilər. Həqiqətən, mən ondan bir neçə gün əvvəl Azərbaycan partiya-təsərrüfat fəallarının yığıncağında respublikada yaranmış vəziyyətə görə SSRİ və Azərbaycan rəhbərliyini kəskin şəkildə tənqid etmişdim. Həmin çıxışımla bağlı Qorbaçova da məlumat verilmişdi. O vaxt həmin çıxışım əksəriyyət tərəfindən dəstəklənsə də, respublikanın və SSRİ-nin ali rəhbərliyinə münasibətdə həddən artıq kəskin davrandığıma görə məni qınayanlar da var idi. Həmin çıxışın hökumət mətbuatında dərcinə qadağa qoyulsa da, rəsmi hakimiyyətin iradəsinin ziddinə





olaraq, yenicə nəşr olunan "Azadlıq" adlı müxalifət qəzetində, redaktor Nəcəf Nəcəfovun təşəbbüsü ilə dərc olunmuşdu...

Biz Siyasi Büronun iclas salonunun qəbul otağında gözləyirdik. Sov.İKP MK-nın işçiləri də orada idilər. Mütəllibov, Məmmədov və Polyaniçko birlikdə dayanmışdı, mən isə bir kənara çəkilib pəncərədən baxmağa başladım və hamının Siyasi Büronun iclas salonuna nə vaxt dəvət edildiyinin fərqinə də varmadım. Mən içəri keçəndə artıq hamı uzun masanın arxasında əyləşmişdi. Masanın bir tərəfində Qorbaçov öz komandası ilə, digər tərəfində isə "bizimkilər" oturmuşdular. Qorbaçov məni görəndə soruşdu:

– Siz kimsiniz?

– MK-nın katibi, Həsənov.

– Biz tanışıq?

– Bəli, – cavab verdim.

– Nə vaxt tanış olmuşuq?

Bu suala müxtəlif şəkildə cavab vermək olardı. Mənim 10-a yaxın mümkün cavab variantım vardı, amma belə cavab verdim:

– Bizi 1981-ci ildə Heydər Əliyeviç Əliyev tanış edib.

Ola bilsin ki, Qorbaçov da on mümkün cavabdan hər birini eşitməyə hazır idi. Amma məhz onun üçün ən xoş olmayan cavabı eşitdi.

– Onda hər şey aydındır, əyləşin, – Qorbaçov qəfildən söhbəti kəsərək dedi.

Çıxışlar başladı. Polyaniçko çox danışmadı. Ayaz Mütəllibov dedi ki, indi günahkar axtarmaq yox, iqtisadiyyatı dirçəltmək lazımdır. Bu sözlər Qorbaçovun xoşuna gəldi və dərhal dedi: "Düzdür, afərin!" Mütəllibov sözünə davam etdi: "Mənim Kanadada tanışlarım var, onların vasitəsilə yeni neft avadanlıqları məsələsini həll etmək olar". Qorbaçov yenə razı halda təsdiqlədi: "Düzdür!"

Sonra Müslüm Məmmədov çıxış etdi və dedi ki, məktəblər tikmək lazımdır. Qorbaçov onu da təriflədi, yəni düzdür, belə işlərlə məşğul olmaq lazımdır. Növbə mənə çatanda dedim ki, bura nə üçün toplaşdığımızı başa düşmürəm: "Heç kim neft sənayesinin inkişafının, məktəblər tikilməsinin əleyhinə çıxmır, amma indi bununla məşğul olmağın vaxtı deyil. Bu gün Bakı küçələrində yanvarın 19-20-də olanlardan daha çox insan var. O insanlar bizdən onları narahat edən suallara cavab gözləyirlər. Komissiya yaratmaq, Bakıda baş verənlərin səbəblərini araşdırmaq, faciəni törədənləri müəyyənləşdirmək və onları məsuliyyətə cəlb etmək lazımdır. Ermənistanın torpaqlarımıza iddiaları aradan qaldırılmayınca vəziyyətin sabitləşməsinə nail ola bilməyəcəyik".

Bundan başqa, Qorbaçovdan Ermənistanın ərazi iddialarının qarşısının alınması və Azərbaycanın Ermənistanla sərhədinin hərbi cəhətdən möhkəmləndirilməsi üçün qətiyyətli tədbirlər görməsini tələb etdim. Qorbaçov mənim bütün təkliflərimə və ümumiyyətlə, çıxışıma əsəbi yanaşırdı, bir neçə dəfə sözümü kəsdi. Beləliklə, orada Qorbaçovla mənim





aramda çox kəskin və xoşagəlməz söhbət oldu. Sonralar Mütəllibov müsahibələrinin birində həmin əhvalat haqqında bu şəkildə danışmışdı: "Mən çıxış etdim, Məmmədov çıxış etdi, Qorbaçovun xoşuna gəldi, birdən Həsənov Qorbaçovla dalaşmağa başladı". Jurnalist təbii olaraq soruşmuşdu: "Davanın mahiyyəti nədən ibarət idi?" Mütəllibov xatırlamadığını deyərək cavabdan yayınmışdı. Onda həmin qəzetin əməkdaşları "onların fikrincə, Qorbaçovla Həsənov arasındakı münaqişənin mahiyyətinin nədən ibarət ola biləcəyi" sualı ilə bizim on nəfərə yaxın siyasətçi və siyasi şərhçimizə müraciət etmişdilər. Çoxları belə cavab vermişdilər: "Nədən ibarət olduğu aydındır: Həsənov yanvar hadisələri ilə bağlı öz fikrini bildirib və baş verənlərə görə birbaşa Qorbaçovu günahlandırıb".

Siyasi Bürodakı iclasdan dərhal sonra məlum oldu ki, Qorbaçovun mənə qarşı sərt və qərəzli münasibəti həm də onunla söhbətimə Heydər Əliyevin adını çəkməklə başlamağımdan irəli gəlib. Biz iclasdan çıxanda Polyaniçko mənə dedi: "Sən nahaq yerə Qorbaçova Əliyevi xatırlatdın". Sonra mənə Heydər Əliyevin elə həmin gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində baş tutmuş çıxışından və Bakıdakı yanvar hadisələrinə görə Qorbaçovun ünvanına səsləndirdiyi kəskin ifadələrdən danışdı. O zaman anladım ki, xüsusi məqsəd güdməsəm də, Heydər Əliyevin adını xatırlatmağım yerinə düşüb. Bakıya gecədən xeyli keçmiş qayıtdıq, səhər isə Asəf Hacıyev Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi

nümayəndəliyinin binasında verdiyi müsahibənin yazıldığı videokaseti gətirdi. Mən ona diqqətlə qulaq asdım, amma həmin günlərdə onu televiziya ilə göstərmək, qəzetlərdə dərc etdirmək mümkün olmadı. Yaxşı ki, ətrafımda Heydər Əliyevə inanan kifayət qədər insan var idi, həmin videokaset adi surətçıxarma yolu ilə bütün Azərbaycanda kütləvi şəkildə yayılmağa başladı. Xalqımız tək olmadığını anlamağa başladı. Beləliklə, tarixi zərurət və Azərbaycan xalqının düşdüyü böhranlı vəziyyət Heydər Əliyevi yenidən fəal siyasət meydanına çəkdi və o, yenə də tarixdə öz qətiyyətli sözünü dedi.

***1990-1992-ci illər ərzində, Heydər Əliyev Naxçıvanda yaşadığı və işlədiyi, siz isə Azərbaycan Respublikasının Baş naziri olduğunuz zaman onunla əlaqələriniz, telefon danışıqlarınız, yaxud birbaşa ünsiyyətiniz olurdumu? O, Naxçıvan Muxtar Respublikasına dair hər hansı məsələnin həlli ilə bağlı sizə müraciət etmişdimi?***

Mən Heydər Əliyevlə əlaqəmi heç vaxt kəsməmişdim. O, Azərbaycana qayıdandan sonra isə sabit və davamlı əlaqələrimiz yaranmışdı. Baxmayaraq ki, mən Azərbaycanın Baş naziri idim, daha dəqiq desək, məhz baş nazir olduğuma görə faydalı ola və ortaya çıxan məsələlərin böyük əksəriyyətini həll edə bilirdim. Həmin illərdə Naxçıvanda Heydər Əliyevin ətrafında olan onlarla, bəlkə də, yüzlərlə insan həm o vaxt, həm də sonralar mənə deyirdi ki, Heydər Əliyev onlara Naxçıvan





üçün aktual olan problemlərin həllində çətinliklər ortaya çıxacağı təqdirdə birbaşa Həsən Həsənova müraciət etməyi məsləhət görürdü. Naxçıvan Muxtar Respublikasından mənə ünvanlanan müraciətlərdə qaldırılan məsələlərin, demək olar ki, hamısını həll edirdim.

***Belə bir fikir var ki, Bakı blokada vəziyyətində olan Naxçıvana əsla yardım göstərməyib, problemlərin çoxunu yalnız Heydər Əliyevin nüfuzu sayəsində həll etmək mümkün olub.***

Şübhəsiz ki, Heydər Əliyevin nüfuzu həmişə, bütün vəziyyətlərdə həlledici amil olub. Lakin Bakının Naxçıvana yardım göstərmədiyini deyənlər ilk növbədə var qüvvəsi ilə Heydər Əliyevin fəaliyyətinə mane olmaq istəyən şəxsləri nəzərdə tuturlar. Ancaq mən həm baş nazir, həm də bir vətəndaş kimi Naxçıvana daim kömək edirdim. Mənim kimilər isə kifayət qədər çox idi. Mən Heydər Əliyevlə gün ərzində 5-6 dəfə telefonla danışırdım. Muxtar respublikanın problemləri, xüsusilə ərzaq və enerji təminatı problemləri həll edilirdi. Mən Naxçıvan üçün olduqca vacib olan müxtəlif yüklərin daşınmasından ötrü xüsusi təyyarələr ayırırdım. Düzdür, bu bizim ümumi əleyhdarlarımızı qıcıqlandırırdı. Əlaqəmizə mane olmaq üçün müxtəlif, bəzən çox primitiv üsullara əl atırdılar. Bir nümunə gətirim. Biz Heydər Əliyevlə, bir qayda olaraq, o vaxt "VÇ" adı ilə tanınan ümumittifaq hökumət rabitəsi telefonu ilə danışırdıq. Həmin telefon həm Azərbaycan DTK-sı,

həm də SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən dinlənilsə də, sırf texniki imkanlarına görə rahat idi. Dinlənilməyimiz bizi narahat etmirdi, çünki hansısa "dövlət çevrilişi" haqqında yox, Naxçıvanın öz həllini tələb edən mühüm problemlərindən danışırdıq. Bir dəfə Heydər Əliyev mənə şəhər telefonu ilə zəng etdi. Mən soruşdum:

– Heydər Əliyeviç, nə üçün "VÇ" ilə deyil, adi şəhər rabitəsi ilə zəng edirsiniz?

– Çünki mənim "VÇ" rabitəmi kəsiblər.

– Necə yəni kəsiblər? Kim kəsib?

– Yəqin ki, onlar bizim bütün danışıqlarımızı yazırlar, gənclik illərinin xatirələri ilə deyil, Naxçıvan üçün çox vacib olan məsələlərin həlli ilə məşğul olduğumuzu bilirlər, ona görə onsuz da mürəkkəb olan vəziyyəti daha da çətinləşdirmək üçün kəsiblər. Görünür, Naxçıvanın arzu etdikləri qədər təcrid olunmaması onları qane etmir. Mənə dedilər ki, prezidentin göstərişi ilə DTK sədri kəsib.

– Heydər Əliyeviç, siz telefonda gözləyin, mən bu dəqiqə tədbir görərəm.

Şəhər telefonunun dəstəyini əlimdə saxlayaraq "VÇ" ilə İlhüseyn Hüseynova zəng etdim. Onu möhkəm danladım. Hüseynov cavab verdi ki, mənə yox, prezidentə tabedir və onun əmrlərini yerinə yetirir. Lakin "lap yuxarıdakılar"a eyham vurması da məni dayandırmadı, ən ağır sözlərlə onun "payını verdim":

– Bilmirəm sən kimə tabesən, amma dərhal, telefonu yerə qoymadan rabitənin bərpa edilməsi üçün göstəriş verməlisən.





O, könülsüz halda rabitəni bərpa edəcəyinə söz verdi. Mən onu tələsdirərək dedim ki, bunu yubanmadan etmək və icraçılara elə bu dəqiqə göstəriş vermək lazımdır. O, əmrimə tabe oldu. Bir müddətdən sonra Heydər Əliyev artıq bərpa edilmiş "VÇ" xətti ilə mənə zəng etdi.

Heydər Əliyevi dəstəkləməyimə qarşı maneələr özünü müxtəlif şəkillərdə büruzə verirdi. Mən baş nazir olduqdan sonra hökumət orqanı olan "Respublika" qəzetini təsis etdim və tanınmış jurnalist Əhməd İsayevi baş redaktor təyin etdim. Prezident Aparatı ona təsir göstərməyə çalışsa da, qəzeti baş redaktorun özü formalaşdırırdı. Mən redaksiyanın işlərinə qarışmırdım, amma Əhməd İsayevin Heydər Əliyevlə yaxşı münasibətlərimdən xəbəri var idi. "Respublika" qəzetinin növbəti saylarının birində Heydər Əliyevlə "Mən adamlara inanmışam" adlı müsahibə dərc olunmuş və əhali arasında böyük əks-səda doğurmuşdu. Onda mənim müqavimət göstərməyimə baxmayaraq, əleyhdarlarımız cəza tədbirlərinə əl atdılar və Ayaz Mütəllibovun qərarı ilə bizim qəzetimizi bağladılar, baxmayaraq ki, bu onların səlahiyyətinə aid deyildi. Mənim qəzeti müdafiə etmək cəhdlərim nəticə vermədi, çünki o zaman yalnız bir qəzet mətbəəsi var idi, o mətbəəyə də bizim qəzeti çap etmək qadağası qoyulmuşdu...

Zaman keçdikcə həll edilməli olan məsələlərin yığılıb qaldığını nəzərə alaraq, Heydər Əliyevdən bir əlaqələndirici təyin etməsini xahiş etdim və Bakıda Azərbaycan hökuməti yanında Naxçıvan Muxtar Respublikasının daimi

nümayəndəliyinin yaradılması təklifini irəli sürdüm. Heydər Əliyev bu ideyanı çox bəyəndi və həmin vəzifəyə hazırda Azərbaycanın İstanbuldakı baş konsulu olan Həsən Zeynalovu[1] təyin etdi. Mən təcili olaraq şəhərdə onun üçün yer tapacağımı deyəndə Heydər Əliyev təklif etdi ki, ona və işçilərinə Nazirlər Sovetinin binasında yer ayırım, mən də onun dediyi kimi etdim. Naxçıvanın daimi nümayəndəliyi sonralar ayrıca binaya köçdü.

1990-cı ilin sentyabr ayında Türkiyəyə səfərə getməli idim. Mən Azərbaycan üçün vacib olan bir sıra digər məsələlərlə yanaşı, Naxçıvanın Ermənistanın yaratdığı blokadadan çıxarılması kimi taleyüklü məsələni də həll etməyə çalışırdım. Yeganə və ən etibarlı yol Türkiyə ilə əlaqə ola bilərdi. Naxçıvanın Türkiyə ilə sərhədi vardı, amma onun üzərindən heç bir əlaqə yox idi. Sovet İttifaqının rəhbərliyi ilə uzunsürən və sözün əsl mənasında, sərt danışıqlardan sonra SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkovun imzası ilə 12 sentyabr 1990-cı il tarixli 1511 saylı "Naxçıvandan Türkiyəyə körpü tikilməsi haqqında" sərəncamın verilməsinə nail ola bildim. Sərəncamda deyilirdi: 1. Azərbaycan SSR Nazirlər Sovetinin SSRİ DTK, SSRİ Müdafiə Nazirliyi, SSRİ Xarici İşlər Nazirliyi, SSRİ Daxili İşlər Nazirliyi, SSRİ Dəmir Yolları Nazirliyi və SSRİ Dövlət Gömrük Nəzarəti Baş İdarəsi ilə razılaşdırılmış SSRİ ilə Türkiyə

[1] Həsən Zeynalov bu vəzifəni 2010-2015-ci illərdə icra edib. O, hazırda Azərbaycan Respublikasının Türkmənistandakı və Əfqanıstandakı fövqəladə və səlahiyyətli səfiridir.





arasında ikitərəfli sərnişin və yük, avtomobil və dəmir yolları daşımaları, həmçinin SSRİ dövlət sərhədi-Sədərək-Naxçıvan hissəsində beynəlxalq avtomobil və dəmir yolları daşımaları üçün sovet-Türkiyə sərhədində Sədərək keçid məntəqəsinin açılması təklifi qəbul edilsin. 2. Azərbaycan SSR Nazirlər Sovetinə: Araz çayı üzərində birləşmiş sərhəd körpü keçidinin, Sədərək buraxılış məntəqəsinin bina və tikililərinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi Sərhəd Qoşunlarının buraxılış məntəqəsinin şəxsi heyətinin yerləşdirilməsi üçün hərbi şəhərciyin tikintisi; sərhəd, gömrük, baytarlıq, fitosanitariya və digər orqanlar və xidmət təşkilatları üçün inzibati binalar və mənzillər; SSRİ DTK, Gömrük Nəzarəti Baş İdarəsi və digər maraqlı nazirlik və idarələrlə razılaşdırılmış siyahı və həcmə uyğun məişət və mədəniyyət obyektlərinin tikintisi, həmçinin SSRİ-Sədərək-Naxçıvan dövlət sərhədində avtomobil və dəmir yollarının tikintisi üzrə tədbirlər həyata keçirsin, həmin yollarda əcnəbi vətəndaşların və nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyini təmin etsin. SSRİ Nəqliyyat Tikintisi Nazirliyi Azərbaycan SSR-in büdcəsi hesabına göstərilən körpü keçidinin və SSRİ tərəfindən giriş yollarının layihələndirilməsini və tikintisini təmin etsin. 3. Sovet Sosialist Respublikaları İttifaqı hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında sovet-Türkiyə dövlət sərhədində nəzarət-buraxılış məntəqəsinin açılması və Naxçıvan MSSR-in Sədərək qəsəbəsi rayonunda Araz çayı üzərindən körpü keçidinin tikintisi haqqında əlavə edilmiş sazişin layihəsi təsdiq edilsin.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri yoldaş H.Ə.Həsənova SSRİ hökuməti adından Türkiyə Respublikası hökuməti ilə göstərilən sazişi imzalamaq tapşırılsın.

Artıq adımın qeyd olunduğu həmin sərəncamla yanaşı, mənə əlavə bir sənəd də verilməsini təkidlə tələb etdim, o belə adlanırdı: "H.Həsənovun Naxçıvandan Türkiyəyə körpü çəkilməsinə dair müqavilə imzalamaq hüququ haqqında". Sənəddə deyilirdi: "Sovet Sosialist Respublikaları İttifaqının Xarici İşlər Nazirliyi təsdiq edir ki, Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Sovetinin sədri Həsənov Həsən Əziz oğluna Sovet Sosialist Respublikaları İttifaqı hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Araz çayı üzərindən körpü salınması və sovet-Türkiyə dövlət sərhədində nəzarət-keçid məntəqəsinin açılması haqqında danışıqlar aparmaq və müqavilə imzalamaq səlahiyyəti vermişdir. Moskva, 13 sentyabr, 1990-cı il".

Türkiyədə olduğum zaman qeyd edilənlərdən əlavə, dəmiryol körpüsünün tikilməsi haqqında da məsələ qaldırdım. Türkiyənin nəqliyyat naziri mənə nəzakətlə bildirdi ki, Türkiyənin həmin yerdə, ümumiyyətlə, dəmiryol xətti yoxdur. Cavab verdim ki, birincisi, indi olmasa belə, nə vaxtsa olacaq; ikincisi, bu, obyektlərdən heç olmasa birinin, yəni avtomobil yolu körpüsünün yubadılmadan tikilməsinin nə qədər vacib olduğunu aydınlaşdıracaq. Körpünü tikməyə başladılar, amma iş kifayət qədər yüksək sürətlə getmirdi. Yalnız Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçiləndən sonra





tikinti sürətləndi. 1991-ci il oktyabrın 29-da Sədərək rayonu ərazisində Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasını birləşdirən müvəqqəti körpü istifadəyə verildi. Türkiyə Respublikası Nəqliyyat Nazirliyinin dəmir yolları, dəniz və hava limanları tikintisi üzrə departamentinin rəhbəri Aytekin Akgünün başçılığı ilə nümayəndə heyəti 1991-ci il noyabrın 18-də Naxçıvana səfər etdi. Səfər zamanı nümayəndə heyəti ilə Naxçıvan MR hökuməti arasında Araz çayı üzərindən əsas körpünün tikintisi və müvafiq keçid məntəqəsinin yaradılması haqqında razılıq əldə olundu. 1992-ci il martın 22-25-də Türkiyə Prezidenti Turqut Özal və baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Heydər Əliyevin Türkiyə Respublikasına səfəri oldu, səfər zamanı "Azərbaycanın Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq haqqında protokol" imzalandı. 1992-ci il mayın 28-də Naxçıvan və Türkiyə arasında Araz çayı üzərindən "Ümid" körpüsünün açılış mərasimi keçirildi. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl mərasimdə Heydər Əliyevin dəvəti ilə iştirak edirdi. Şadam ki, bütün bu proseslərdə birbaşa iştirakım var.

...Bakıdan çıxarkən zəng edib Heydər Əliyevlə sağollaşdım. O, yeni iş yerimdə mənə xeyir-dua verdi və dedi: "Bax gör Amerikada Naxçıvan üçün necə faydalı ola bilərsən". İş elə gətirdi ki, Naxçıvan MR-ə yardım göstərmək imkanı ...Ermənistan tərəfinin təşəbbüsünün nəticəsində yarandı.

Levon Ter-Petrosyan Ermənistanın guya Azərbaycan tərəfindən enerji blokadasına alınması ilə bağlı BMT-yə müraciət

etmişdi. Ermənistanın BMT-dəki tərəfdarları Ermənistanın Azərbaycan tərəfindən blokadaya alınması ilə bağlı xüsusi qətnamənin qəbulu üçün imkan yarandığına sevinirdilər. 1993-cü il yanvarın 22-də Ermənistanın daimi nümayəndəliyi Ermənistanın və qondarma DQR-in blokadada olduğunu iddia edən və bu məsələ ilə bağlı qətnamənin qəbul olunmasını tələb edən məktub yaymışdı. Bu barədə məlumat alan kimi Təhlükəsizlik Şurasının üzvləri ilə bir sıra görüşlər keçirdim və bildirdim ki, bütün bunlar cəfəngiyyat və uydurmadır. Xüsusilə Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən zəbt edildiyi bir şəraitdə Ermənistanın və DQR-in Azərbaycan tərəfindən blokadaya alınması ilə bağlı xüsusi qətnamənin qəbul edilməsi siyasi qalmaqaldır. Mənim arqumentlərim bundan ibarət idi ki, Naxçıvan təkcə enerji blokadasında deyil, həm də humanitar blokadadadır, əgər belə bir qətnamə qəbul edilməlidirsə, o halda adının çəkilməsinə və yardım istəməyə Naxçıvanın daha çox haqqı var. Nəticədə BMT Təhlükəsizlik Şurası sədrinin 29 yanvar 1993-cü il tarixli bəyanatı qəbul edildi. Orada deyilirdi: "Təhlükəsizlik Şurasının üzvləri Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə malların və materialların göndərilməsindəki, xüsusilə elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar olaraq, dərin narahatlıq keçirdiklərini bildirirlər. Onlar dərin narahatlıq hissi ilə bildirirlər ki, qeyri-adi dərəcədə sərt qışın daha da artırdığı bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və infrastrukturunu iflas həddinə gətirib çıxarıb və real aclıq





təhlükəsi yaradıb. Şuranın üzvləri təkidlə dəstək verəcək bütün ölkələri yanacaq və humanitar yardımın göndərilməsinə kömək göstərməyə çağırırlar. Onlar region ölkələrinin hökumətlərini humanitar vəziyyətin gələcəkdə daha da pisləşməsinin qarşısını almaq məqsədilə humanitar yüklərin, xüsusilə də yanacağın Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə maneəsiz çatdırılmasını təmin etməyə çağırır".

Tezliklə Naxçıvana yardım göndərildi. Biz həmin bəyanatın qəbul edilməsində çox fəal iştirak etmişdik. Bir faktı diqqətinizə çatdırmaq istəyirəm. Bəyanatda Naxçıvan muxtar respublika kimi deyil, "Azərbaycanın Naxçıvan bölgəsi" kimi qeyd olunub. Birincisi, məlumdur ki, ermənilər Dağlıq Qarabağla yanaşı, tez-tez Naxçıvan mövzusunu da qabardırlar, ona görə də biz "Azərbaycanın Naxçıvan bölgəsi" ifadəsinə üstünlük verdik. İkincisi, həmin ifadə sonralar 853 saylı qətnamədə "Azərbaycanın Dağlıq Qarabağ bölgəsi" ifadəsini keçirərkən faydalı oldu. Təəssüf ki, həmin illərdə Nyu-Yorkdan Naxçıvana zəng etmək indiki kimi asan deyildi, ona görə də mən BMT Təhlükəsizlik Şurasının həmin sənədi haqqında Naxçıvana, Heydər Əliyevə Bəxtiyar Vahabzadə vasitəsilə məlumat verdim. 1993-cü ilin mayında isə Heydər Əliyevi 70 illik yubileyi münasibətilə yenə Bəxtiyar Vahabzadə vasitəsilə təbrik etmişdim.

***Naxçıvandan gələn xəbərləri – Heydər Əliyevin əvvəl Azərbaycan Ali Sovetinin deputatı, sonra Naxçıvan Ali Məclisinin sədri seçilməsini necə qarşıladınız? Onun***

***ikinci dəfə hakimiyyətə gəlmə ehtimalına inanırdınız, ya səmimi olaraq belə hesab edirdiniz ki, bir çaya ikinci dəfə girmək olmaz?***

Mən buna inanırdım, çünki onunla hər gün əlaqə saxlayırdım, tamamilə siyasi formada olduğunu hiss edirdim. Onun məsələləri necə qoyduğunu və necə həll etdiyini görürdüm. Məni buna inandıran ikinci amil ölkədə getdikcə daha da mürəkkəbləşən vəziyyət idi. Sizin misal çəkdiyiniz "çay" haqqındakı məşhur ifadəyə gəlincə, o, çoxları tərəfindən "girmək olmaz" kimi yanlış mənada qəbul olunur. Əslində isə həmin ifadənin müəllifi Heraklit ona tamamilə başqa məna verib, yəni bir çay tarixin müxtəlif dövrlərində eyni cür ola bilməz. Ona görə də yenidən eyni çaya girdiyiniz zaman, əslində, eyni yox, fərqli bir vəziyyətə düşəcəksiniz, çünki əvvəl içində olduğunuz su artıq axıb gedib. Ona görə də aydındır ki, XX əsrin 90-cı illəri 60-cı, yaxud 80-ci illəri ilə eyni "çay" deyildi. Bu, tamamilə fərqli "çay", fərqli tarixi dövr idi və Azərbaycanın qarşısında tamamilə başqa tarixi və strateji vəzifələr dayanırdı.

***Respublika prezidentinin vəzifəsini icra edən Yaqub Məmmədov sizi nəyə görə baş nazir vəzifəsindən uzaqlaşdırmış və Azərbaycanın nümayəndəsi kimi BMT-yə göndərmişdi?***

Əgər özüm getmək istəməsəydim, o bunu edə bilməzdi. Onun buna gücü çatmazdı. Getmək qərarını mən özüm vermişdim. Bu, başqa məsələdir ki, qərarım onu tamamilə qane





edirdi. Bu səbəbdən də hadisələri sürətləndirirdi. Ölkədə prezident seçkiləri yaxınlaşırdı, Yaqub Məmmədov öz namizədliyini irəli sürmüşdü. O məni əsas rəqibi kimi görürdü, ona görə də çox istəyirdi ki, seçki zamanı mən baş nazir vəzifəsində olmayım. Mən getməyimin mümkünlüyü haqqında söz açanda o, məmnuniyyətlə istənilən vəzifəni seçməyimi təklif etdi. İstefa vermək haqqında qəti qərar qəbul etməzdən əvvəl Heydər Əliyevə zəng etdim və soruşdum:

– Siz prezident seçkilərində öz namizədliyinizi irəli sürəcəksiniz?

– Yox, mən namizədliyimi verməyəcəyəm.

– Mən baş nazir vəzifəsindən getməyə qərar vermişəm.

– Bunu etmə.

Mən öz qərarımın lehinə dəlillər gətirməyə çalışdım, amma düşünürəm ki, onu inandıra bilmədim.

***Yəni siz hakimiyyətə Xalq Cəbhəsi gəldiyi üçün vəzifədən getmək istəyirdiniz?***

Yox, mənim bu addımımın əsas səbəbi o idi ki, köhnə kommunist hakimiyyətindən doymuş xalq yeni nəsə istəyirdi və düzünü desəm, çoxları köhnə səhvlərlə yüklənməmiş yeni nəslin Qarabağ problemini həll edə biləcəyinə inanırdılar. Yalnız siyasətçilər deyil, bütün cəmiyyət iki hissəyə: "partokrat" və "demokratlar"a və onların tərəfdarlarına bölünmüşdü. Belə bir vəziyyətdə çoxları "partokrat" damğasından qurtulmaq üçün köhnə partiya qvardiyasından uzaqlaşmağa və

"demokratlar"a dəstəyini nümayiş etdirməyə çalışırdılar. Bundan əlavə, cəmiyyətin, demək olar ki, bütün problemləri ilə bağlı gənc müxalifətçilərin fəal, açıq və tənqidi mövqeyi geniş ictimaiyyətdə etimad yaradırdı. Buna baxmayaraq, peşəkar nöqteyi-nəzərdən yanaşanda hiss olunurdu ki, onlar həddən artıq cavandır, mövqeləri isə heç də həmişə tam düşünülmüş və obyektiv deyil, yüksək dövlət vəzifələrinə iddia edənlərin çoxunun nəinki rəhbərlik, hətta adi inzibati iş təcrübəsi də yoxdur. Mən ölkənin qarşısında bir-birindən asılı olmayan iki tarixi vəzifənin dayandığını aydın şəkildə dərk edirdim. Birinci vəzifə elan olunmuş müstəqilliyin təsdiq edilməsi, ölkənin dünya birliyində yalnız diplomatik deyil, həm də real surətdə tanınmasına nail olunması, mövcud hökumət strukturlarının müasirləşdirilməsi və müstəqil dövlət şəraitinin tələblərindən irəli gələn yeni strukturların yaradılması idi. İkinci vəzifə – Qarabağ probleminin həlli isə daha çətin idi. Həm də Sovet İttifaqının mövcudluğu şəraitində bu problemin həllində ortaya çıxan çətinliklərə müstəqillik dövründə yeni, bir qədər fərqli, amma daha mürəkkəb xarakterli çətinliklər əlavə olunmuşdu. Əlbəttə, hər bir vətəndaş kimi, mən də ölkədəki çaxnaşmaların dayanmasını, vəziyyətin sabitləşməsini, problemlərin həll olunmasını istəyirdim. Yəqin ki, bu mənada öz xidmətimi yeni nəslə fürsət verməkdə görürdüm.

***Nə üçün Azərbaycanın BMT yanında səfiri vəzifəsini seçdiniz?***





Mən çoxdan diplomat olmaq arzusunda idim. Tarixin elə bir dövrü gəldi ki, məhz diplomatiya sahəsində daha çox iş görə biləcəyimi, Azərbaycanın dünya birliyinə inteqrasiyası ilə bağlı ən çətin məsələlərin həllinə nail ola biləcəyimi düşündüm. Hətta Ayaz Mütəllibov müsahibələrinin birində məni yalnız təsərrüfat işləri ilə deyil, həm də siyasi məsələlərlə məşğul olmaqda ittiham etmişdi. O bu ittihamında haqlı idi, həqiqətən, həmin dövrdə vəziyyət elə idi ki, siyasi məsələlərlə məşğul olmamağa haqqım yox idi. Hərçənd deməliyəm ki, baş nazirin məhdud səlahiyyətləri mənim siyasi fəallığıma öz təsirini göstərirdi. Yaqub Məmmədov mənim istefamın mümkünlüyü haqqında eşidəndə müxtəlif vəzifələr, o cümlədən nazir vəzifəsi də təklif etmişdi. Bütün mümkün vəzifələrdən qəsdən Azərbaycanın Birləşmiş Millətlər Təşkilatında nümayəndəliyini seçdim, çünki Azərbaycana aid olan məsələləri məhz orada həll edə biləcəyimi başa düşürdüm. O vaxt Milli Məclisin Beynəlxalq əlaqələr şöbəsinin müdiri olan köhnə dostum Namiq Axundov mənim ABŞ-a getmək qərarına gəldiyimi biləndə yanıma gəldi və suallarını yağdırdı:

– Sən ingilis dilini mükəmməl bilirsənmi?

– Yox.

– Nə vaxtsa Amerikada olmusanmı?

– Yox.

– BMT-nin strukturu, iş üsulu haqqında geniş təsəvvürə maliksənmi?

– Yox.

– Tanımadığın, haqqında heç nə bilmədiyin yerdə işləməyə gedirsən? Sənin ağlın başındadır?

– Əzizim Namiq, bütün bunları orada işlədiyim zaman öyrənə biləcəyimə əminəm.

Təbii ki, mənim üçün ən yüngül variant Türkiyəyə səfir getmək olardı, orada artıq məni tanıyırdılar, geniş əlaqələrim yaranmışdı. Lakin mən özüm üçün yeni olan bir istiqaməti seçdim. Seçimimin düzgün olduğunu o vaxt mənimlə telefonla danışan Türkiyənin Baş naziri Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, eləcə də təsadüfən mənimlə eyni vaxtda Nyu-Yorka gəlmiş prezident Turqut Özal da təsdiq edirdilər. Hadisələrin inkişafı da seçimimin düzgün olduğunu göstərdi.

***Azərbaycanda Surət Hüseynovun qiyamı baş verəndə və Elçibəy Heydər Əliyevi Bakıya dəvət edəndə siz ABŞ-da idiniz?***

Bəli. Elə həmin gün zəng vurub öz adımdan və bizim Nyu-Yorkdakı kiçik kollektivimiz adından Heydər Əliyevi təbrik etmiş və vəziyyət barədə məlumat vermişdim. Heydər Əliyev öz fəaliyyətinə həmişəki kimi geniş miqyasda başlamışdı. Bir dəfə təxminən gecə saat 2-3 radələrində Nyu-Yorkdakı mənzilimdə telefon zəng çaldı. Nyu-York vaxtı Bakı vaxtının tərsidir, başqa sözlə, Bakıda gündüz olanda Nyu-Yorkda gecədir. Bir qayda olaraq, Bakıdan bizə zənglər Nyu-York vaxtı ilə gecə yarıdan sonra gəlirdi, artıq buna alışmışdıq. Əksər hallarda





dostlar və qohumlar zəng edirdilər. Gözləmədiyim halda telefonda Heydər Əliyevin səsini eşitdim.

– Həsən, salam.

Onun özünü təqdim etməsinə ehtiyac yox idi, səsini dərhal tanıdım. Səs çox yaxşı eşidilirdi. Hətta mənə elə gəldi ki, o, çox yaxından danışır.

– Salam, Heydər Əliyeviç. Siz haradan danışırsınız?

– Bakıdan, hələ səksəninci illərin əvvəllərində tikməyə başladığımız həmin televiziya qülləsindən.

Biz çox səmimi söhbət etdik. Sonda dedim:

– Qoy sizin Nyu-Yorka bu zənginiz Azərbaycanla bağlı dünyaya yeni xoş xəbərlərin müjdəçisi olsun.

Mən Bakıya qayıdandan sonra o vaxt rabitə naziri olan Siruz Abbasbəyli həmin telefon zənginin tarixçəsini danışdı: "Heydər Əliyev Bakıda işə başlayandan sonra məni yanına çağırdı və yeni televiziya qülləsinin tamamlanması ilə bağlı işlərin necə getdiyi ilə maraqlandı. Söhbətin sonunda tikintiyə baş çəkmək istədiyini bildirdi. O, gündüz saat 11-12 radələrində (o vaxt Nyu-Yorkda gecə saat 2-3 arası idi) tikinti sahəsinə gəldi. Televiziya qülləsinə baxış keçirəndən sonra biz ABŞ-ın IDB telefon şirkəti ilə birgə yenicə yaradılmış beynəlxalq peyk telefon rabitəsi mərkəzinin yerləşdiyi məkana daxil olduq. Heydər Əliyevə həmin telefon rabitəsinin imkanları haqqında geniş məlumat verdik və onun vasitəsilə bütün dünya ilə əlaqə saxlamağın mümkün olduğunu bildirdik. Heydər Əliyev soruşdu:

– Biz indi Nyu-Yorka zəng edə bilərikmi?

– Əlbəttə.

– Onda məni Nyu-Yorkda Həsənovla calaşdırın...”

Heydər Əliyev hər dəqiqəsinin qiymətli olduğu gərgin bir zamanda başa düşürdü ki, hazırda dünya ilə yaxşı əlaqə qurmaq ən vacib məsələlərdən biridir.

Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçiləndən bir neçə gün sonra məşhur neft sənayeçisinin qızı Züleyxa Əsədullayeva Vaşinqtondan mənə zəng edərək dedi:

– Nə baş verir?! Azərbaycanın başına nələr gələcək!

– Nə baş verir ki? – soruşdum.

– Heydər Əliyevi seçiblər, indi bütün Amerika Azərbaycanın əleyhinə olacaq.

Mən aydın təsəvvür edirdim ki, “keçmiş DTK generalı”, “keçmiş Sov.İKP MK Siyasi Bürosu üzvü” kimi ifadələr Damoklun qılıncı kimi Heydər Əliyevin adı üzərindən asılıb. Amma özümü elə göstərdim ki, heç nə başa düşmürəm:

– Axı nə olub?

– Necə yəni nə olub, bəs siz bilmirsiniz?

– Nəyi bilmirəm?

– Onun DTK generalı, Siyasi Büronun üzvü olduğunu.

– Bütün bunları bilirəm, amma onu da yaxşı tanıyıram. Züleyxa xanım, yəqin ki, mənə inandığınıza görə zəng etmisiniz.

– Bəli.

– Onda inanın ki, hazırda Azərbaycana rəhbərlik etməli olan şəxs məhz Heydər Əliyevdir.





Züleyxa xanımın bəzi konqresmenlərlə, siyasət və iş dünyasından olan adamlarla sıx əlaqələri vardı. Buna görə də Amerika cəmiyyətinin yüksək dairələrini tanıyırdı. Ədalət naminə qeyd etməliyəm ki, o öz fikrini tez dəyişdi və Heydər Əliyevin fəal təbliğatçısına çevrildi. Sonralar, artıq Heydər Əliyevin özü ilə görüşəndə onun haqqında öz şəxsi rəyi vardı və həmin telefon danışığımızı minnətdarlıqla xatırlayırdı. Mən də öz növbəmdə BMT aparatının əməkdaşları ilə hər görüşümdə onları usandırmadan Azərbaycandakı hadisələrdən və Heydər Əliyevin şəxsiyyətindən danışmağa çalışırdım.

Heydər Əliyev parlamentin sədri seçiləndən bir neçə gün sonra Azərbaycanın dövlət katibi Lalə Şövkət Hacıyeva mənə zəng vurdu. Azərbaycandakı vəziyyətin izah edilməsi istiqamətində nə kimi işlər gördüyümüzü soruşdu. Mən ona BMT aparatındakı görüşlərim haqqında danışdım. O məni dinlədikdən sonra dedi ki, bu, kifayət deyil, ilk növbədə ABŞ-da Azərbaycandakı vəziyyəti təhrif olunmuş şəkildə təqdim edən Azərbaycan diasporu ilə işləmək lazımdır. O zaman artıq Vaşinqtonda Azərbaycan səfirliyi fəaliyyət göstərirdi, mən isə öz səlahiyyətlərimi aşmamağa çalışırdım. Ona görə də dedim:

– Lalə xanım, mənim səlahiyyətlərim və fəaliyyətim BMT-nin binası ilə məhdudlaşır. Mən burada əlimdən gələni edirəm, siz Azərbaycanın Vaşinqtondakı səfirliyinə də zəng etsəydiniz, daha yaxşı olmazdımı?

O cavab verdi:

– Heydər Əliyeviç mənə tapşırıb ki, sizinlə əlaqə saxlayım. Siz hələ Kanadaya da getməli, oradakı diasporla görüşüb Azərbaycandakı vəziyyət haqqında danışmalısınız. Yeri gəlmişkən, Azərbaycanın orada səfirliyi yoxdur.

– Yaxşı, Lalə xanım, Heydər Əliyeviçə deyin ki, əlimdən gələn hər şeyi edəcək və sizə məlumat verəcəyəm.

Həmin dövrdə daha çox Nyu-York şəhərində və onun ətrafında cəmləşmiş diasporumuzun nümayəndələrini dərhal topladım. Görüş zamanı aydın oldu ki, Züleyxa Əsədullayevanı maraqlandıran suallar onları da narahat edir. Mən onlara Azərbaycandakı vəziyyət və Heydər Əliyevin şəxsiyyəti haqqında ətraflı məlumat verdim. Azərbaycan icmasının rəhbəri, gənc və çevik Tomris Azəri Azərbaycan diasporunun və amerikalıların özlərinin arasında Heydər Əliyev haqqında müsbət fikrin formalaşmasında çox iş görürdü.

Başa düşürdüm ki, bu işi davam etdirmək lazımdır, ona görə də təcili olaraq o vaxt ABŞ-ın BMT-də daimi nümayəndəsi olan Madlen Olbraytla görüş haqqında danışıb razılaşdım. O, sonralar – Bill Klintonun prezidentliyi vaxtında ABŞ-ın dövlət katibi olacaqdı. Təhlükəsizlik Şurasının bir neçə üzvü mənə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin olunmuş Madlen Olbraytın Azərbaycan və Qarabağ münaqişəsi məsələsində prinsipial mövqe nümayiş etdirə biləcəyini söyləmişdi. Venesuelanın daimi nümayəndəsi Dieqo Arria mənə Madlen Olbraytla görüşməyi təklif edəndə demişdi: “O, sözün müsbət mənasında, sərt xanımdır”. Sonralar mən onun





bu fikrini mətbuatda da oxudum. Madlen Olbrayt mənimlə kifayət qədər yaxşı münasibət saxlayırdı, ona görə də onun bu çox mühüm prosesə qoşula biləcəyini düşünürdüm.

– Mən sizə Azərbaycandakı vəziyyət haqqında məlumat verməyə gəlmişəm.

– Mən də hər şey barəsində geniş məlumat almaqda maraqlıyam. Çünki Vaşinqtona hesabat vermək niyyətindəyəm.

Təxminən bir saat, saatyarım ərzində ona Heydər Əliyev və Azərbaycandakı vəziyyət haqqında danışdım. O məni diqqətlə dinləyirdi.

– Bəs sizə nə lazımdır? – o soruşdu.

– Mənə lazımdır ki, onu dəstəkləsinlər, ona inansınlar. Onun hərbi çevrilişlə heç bir əlaqəsi yoxdur, o, xalqı fəlakətdən, ölkəni isə parçalanmaqdan xilas edir. O kiminsə “əlaltısı” deyil, əksinə, mümkün hərbi rejimə alternativ kimi çıxış edir.

O, danışdığım hər şeyi anlayışla qarşıladı və dedi:

– Bütün bunlar haqqında mütləq Vaşinqtona məlumat verəcəyəm. Siz isə mənimlə əlaqə saxlayın.

Mən Heydər Əliyevə zəng vurdum və vəziyyəti izah etdim. Bir müddətdən sonra o vaxt daimi nümayəndəliyimizdə çalışan Elmar Məmmədyarovla birlikdə Kanadaya uçdum. Orada azərbaycanlıların bir neçə qrupu ilə söhbət etdim, onları Heydər Əliyevin yeganə alternativ olduğuna inandırdım və sakitləşdirdim. Qayıdandan sonra Heydər Əliyevə səfərin nəticələri haqqında məlumat verdim. Lakin vəziyyət mürəkkəb olaraq qalırdı. Azərbaycandakı müxalifət qəzetləri dünyanın

Heydər Əliyevi hökumət rəhbəri kimi tanımadığını yazırdı. O vaxt Elçibəy artıq Naxçıvanda idi. Heydər Əliyevin tanınması üçün müəyyən hüquqi akt lazım idi. O zaman mən belə bir təklif etdim:

– Heydər Əliyeviç, siz Təhlükəsizlik Şurasının iclasının çağırılması xahişi ilə BMT Təhlükəsizlik Şurasına məktub ünvanlamalısınız.

– Sən onların mənim məktubuma görə toplaşacaqlarına əminsən?

– O iş mənlikdir.

Mən vaxt itirmədən BMT Təhlükəsizlik Şurasının üzvləri ilə bir neçə görüş keçirdim, onlara Azərbaycandakı vəziyyət haqqında çox geniş məlumat verdim. Həmsöhbətlərimin reaksiyası məni tamamilə qane edirdi. Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyevin Təhlükəsizlik Şurasının sədrinə ünvanladığı məktub 1993-cü il iyulun 24-də gəlib çatdı. Mən isə həmin məktub əsasında Azərbaycanda yaranmış vəziyyətə baxılması xahişi ilə başqa bir məktub hazırladım. İyulun 29-da Təhlükəsizlik Şurasının iclası keçirildi, Heydər Əliyevin müraciəti onun hüquqi əsası oldu. Mən dərhal Azərbaycan KİV-ə müsahibə verdim. Dedim ki, bəzi insanlar Heydər Əliyevin beynəlxalq ictimaiyyət tərəfindən ölkə rəhbəri kimi tanınıb-tanınmamasından narahatdırlar. Nəzərinizə çatdırıram ki, Heydər Əliyevin şəxsi müraciəti əsasında BMT Təhlükəsizlik Şurasının iclası keçirilib. Onun beynəlxalq ictimaiyyət tərəfindən tanınması ilə bağlı əlavə sübut tələb olunmurdu.





***Axı o vaxt çoxları Heydər Əliyevin ciddi şəkildə və uzun müddətə qayıtdığına inanmırdılar. Bəziləri onu müvəqqəti fiqur hesab edirdilər.***

Amma Heydər Əliyev davam gətirdi. Ona görə davam gətirdi ki, strateji baxımdan vacib məsələlərə diqqət yetirmək, eyni zamanda orta və kiçikmiqyaslı məsələləri də diqqətdən kənarda qoymamaq onun xarakterinin əsas cəhəti idi. İnsan cəmiyyətinin siyasi genezisi tarixinin fəlsəfəsinə həsr olunmuş "Tarixin hədəfi" monoqrafiyası üzərində işləyərkən belə qənaətə gəldim ki, tarix prosesində müxtəlif strategiyalar işlənib-hazırlanır və tarixin hər mərhələsinin özünəməxsus strategiya dəsti var. Ən mühüm strateji hədəfi müəyyən etməyi bacaran şəxs dövrün, yaxud hər hansı tarixi hərəkatın liderinə çevrilir. Heydər Əliyev bu cür liderlərdən idi. O, problemlər iyerarxiyasında hansı məsələnin birinci, hansının əllinci yerdə dayandığını zərgər dəqiqliyi ilə müəyyən edirdi. Ona görə də problemlər iyerarxiyasını hər an dəyişdirə bilərdi. Problemlər olduğu kimi qalırdı, amma bir mərhələdə birinci olan problem növbəti mərhələdə digəri ilə əvəzlənirdi. Siyasətçilərin, hətta dövlət xadimlərinin bir çoxu heç də həmişə problemlərin tam dəsti haqqında ümumi təsəvvürə malik olmur. Bundan əlavə, onlar problemlərin iyerarxiyasını tərtib etməyi bacarmırlar. Belə genişhəcmli görmə bacarığı üçün xüsusi düşüncə tərzi tələb olunur.

***Zəhmət olmasa, BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı ilk qətnamələrinin necə qəbul edildiyi barədə danışardınız.***

BMT Təhlükəsizlik Şurası yalnız qətnamələr deyil, həm də başqa səviyyəli sənədlər, məsələn, bəyanat və qeydlər qəbul edib. Təhlükəsizlik Şurası tərəfindən bizim bölgəmizə aid ilk rəsmi sənəd 1992-ci il mayın 12-də, daimi nümayəndəliyimizin fəaliyyətinin 7-ci günündə ermənilərin Şuşanı zəbt etməsi ilə bağlı qəbul edilmişdi. Onda Nyu-Yorkda yalnız iki nəfər idik: mən və Elmar Məmmədyarov. Daha sonra, 1992-ci il avqustun 26-da və oktyabrın 27-də, 1993-cü il yanvarın 29-da və aprelin 6-da BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanat və qeydləri qəbul edildi. Həmin sənədlər bizim üçün bir növ başlanğıc nöqtəsi idi. Biz təcrübə toplayır, Təhlükəsizlik Şurasının üzvləri ilə dostlaşır, bizə, verdiyimiz məlumatlara və bütövlükdə Azərbaycana qarşı inamın getdikcə möhkəmləndiyini hiss edirdik. Ona görə də Kəlbəcərin Ermənistan tərəfindən işğal edilməsini artıq kifayət qədər təcrübəli BMT diplomatları kimi qarşılamışdıq. Lakin BMT-nin əməkdaşları və Təhlükəsizlik Şurasının üzvləri ilə yaratdığımız xoş münasibətləri ayıq surətdə qiymətləndirməyə çalışırdıq. Kəlbəcərin işğalı ilə bağlı artıq 1993-cü il aprelin 6-da Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul edilmişdi – bu, qətnamə qəbulu prosesinin ilkin mərhələsi oldu. Mən bir ay ərzində Təhlükəsizlik Şurası sədrinin ünvanına 22, bəzən hətta bir gündə 4 məktub göndərmişdim. Həmin vaxt





Təhlükəsizlik Şurasının bütün üzvləri və BMT-nin əməkdaşları ilə gündə bir neçə dəfə görüşməli olurdum. Təəssüf ki, 822 saylı qətnamə hazırlanarkən biz yalnız öz gücümüzə və orada qazandığımız diplomat dostlarımıza arxalanırdıq, nə rəsmi Bakıdan, nə də BMT Təhlükəsizlik Şurasının üzvü olan ölkələrdə, konkret olaraq Moskva və Vaşinqtonda akkreditə olunmuş səfirliklərimizdən heç bir kömək almırdıq. Biz, yəni mən və daimi nümayəndəliyin dörd diplomatı: Yaşar Əliyev, Elmar Məmmədyarov, Elşad Nəsirov və Rüfət Novruzov vahid, mehriban və intizamlı komanda kimi işləyirdik. Biz münaqişə ilə bağlı olan hər fakt üzrə BMT Təhlükəsizlik Şurasına rəsmi şəkildə müraciət edir və bununla gələcək qərara təsir göstərməyə çalışırdıq. Təhlükəsizlik Şurasına o qədər çox müraciət edirdim ki, Ermənistanın xarici işlər naziri guya xidməti vəzifəmdən sui-istifadə etdiyimə görə BMT Təhlükəsizlik Şurasına şikayət məktubu ünvanlamış və tələb etmişdi ki, şura mənim müraciətlərimə cavab verməsin. Amma bizim səylərimiz "işə yaradı" və Təhlükəsizlik Şurasının artıq Kəlbəcər hadisələri ilə bağlı bəyanatı olsa da, eyni ayın sonunda 822 saylı qətnamə də qəbul edildi. Qətnamənin qəbulu ərəfəsində, aprelin 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Qasımov Nyu-Yorka gəlmişdi. Mən ona görülmüş işlər barədə danışdım və qətnamənin layihəsini göstərdim. Nazir ona göz gəzdirdi və həmin sənədin əleyhinə olduğunu, qəbul edilməsini lazım bilmədiyini dedi.

– Niyə? – soruşdum.

– Çünki burada əsas məsələ, yəni Ermənistanın təcavüzkar olması qeyd edilməyib, – deyə Tofiq Qasımov cavab verdi.

Mən ona izah etməyə çalışdım ki, bu, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın mövqeyini dəstəkləyən ilk qətnaməsi olacaq, azacıq irəliləyiş də bizi qane etməlidir. Bilirdim ki, Qasımovun təklif etdiyi ifadədə israr etmək qətnamənin üstündən xətt çəkmək deməkdir. Əlbəttə, bu, çoxlarını, o cümlədən Təhlükəsizlik Şurasının bəzi üzvlərini qane edərdi. Amma biz sənədi hazırlamaq üçün bütün aprel ayı boyunca, sözün əsl mənasında, gecə-gündüz işləmişdik. Biz Təhlükəsizlik Şurasından olan dostlarımızla birlikdə layihənin mətni üzərində ümumi şəkildə yox, hər ifadəni, hər sözü diqqətlə, dönə-dönə yoxlayaraq işləmişdik. Qasımova başa salmağa çalışırdım ki, mən də qətnaməyə Ermənistanın təcavüzü ilə bağlı sözlərin daxil edilməsini istərdim, lakin ifadələri formalaşdırmaq imkanlarımızı aydın təsəvvür etdiyim ümumi, kifayət qədər mürəkkəb vəziyyətdən çıxış edərək qiymətləndirirəm. Bütün bunların heç bir təsiri olmadı, Qasımov mənimlə razılaşmırdı.

– Onda gəl Təhlükəsizlik Şurasına gedək, Şuranın sədri ilə görüşünüzü təşkil edim, onu həmin ifadəni mətnə daxil etməyə özünüz razı salın, – deyə Qasımova bildirdim.

Əməkdaşlarımıza BMT Təhlükəsizlik Şurasının sədri ilə görüş təşkil etməyi tapşırmalı oldum. Ertəsi gün, aprelin 30-da, qətnamənin qəbuluna bir neçə saat qalmış Təhlükəsizlik Şurasına getdik. Sədrin kabinetinin bir neçə addımlığında Tofiq Qasımov birdən ayaq saxladı və heç bir izah vermədən dedi:





– Mən getmirəm.

Orada çox gərgin söhbətimiz oldu. Bütün bunlar daimi nümayəndəliyin əməkdaşlarının yanında baş verirdi. Yadımdadır, yanımda dayanmış Yaşar Əliyev həyəcanla və yüksək səslə mənə deyirdi:

– Həsən Əzizoviç, Elçibəyə zəng edin! Elçibəyə zəng edin!

O, yəqin ki, nazirin inadkarlığı nəticəsində mənim qətnamədən imtina edəcəyimi fikirləşir və Elçibəyin ona təsir göstərməsini istəyirdi. Tofiq Qasımov, ümumiyyətlə, daimi nümayəndəliyin işindən razı idi, hətta məni baş katibin müavini Vladimir Petrovskinin hücumlarından müdafiə etmişdi. Görünür, bu dəfə onun həddən artıq ehtiyatlı olması öz təsirini göstərmişdi. Ədalət naminə deməliyəm ki, o, qətnamənin qəbul olunmasını qadağan etmədi, sadəcə olaraq, məsuliyyəti mənim üzərimə qoydu. Mən də o məsuliyyəti öz üzərimə götürdüm. Heç kimə zəng etmədim, çünki haqlı olduğuma əmin idim və vəziyyəti real qiymətləndirirdim. Nazir getdi, qətnamə isə qəbul edildi.

Sonralar, artıq xarici işlər naziri olanda mənə maraqlı bir əhvalat danışdılar. Tofiq Qasımov Bakıya gələndə hava limanında onu qarşılayan XİN-in əməkdaşından soruşur:

– Hə, burada işlər necədir?

– Çox yaxşı.

– Nə mənada "yaxşı"?

– Həsən müəllim televiziya ilə çıxış etdi, BMT Təhlükəsizlik Şurasının qətnaməsi haqqında danışdı, camaat bir qədər sakitləşdi.

– Həsənov niyə? – Tofiq Qasımov özünü itirmədən deyir. – Mən özüm Nyu-Yorka gedib hər şeyi həll etmişəm.

BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi Ermənistan-Azərbaycan münaqişəsi tarixində bölgə dövlətlərinin ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazilər əldə etmək üçün gücdən istifadənin yolverilməzliyini təsdiq edən ilk rəsmi beynəlxalq hüquqi sənəd idi. Orada həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonu ərazisindən və son vaxtlarda işğal olunmuş digər rayonlardan dərhal çıxarılması tələbi əks olunmuşdu. Lakin qətnamə qəbul olunandan sonra da problemlər azalmadı. Cəbhədə vəziyyət gərginləşdi, nəticədə ermənilər Ağdamı ələ keçirdilər.

Biz işimizə eyni sürət və əzmlə davam etdik. BMT əməkdaşlarını və Təhlükəsizlik Şurasının üzvlərini başqa, yeni qətnamənin qəbul edilməsinin zəruriliyinə inandırmaq üçün çox səy göstərməli olduq. Bu dəfə Təhlükəsizlik Şurası sədrinə 25 məktub ünvanlamış, daha çox görüşlər keçirmişdim. Qarşıya qoyduğum əsas məqsəd ondan ibarət idi ki, ikinci qətnamə birincini təkrarlamasın, əksinə, irəliyə doğru bir addım olsun. Ona görə də ikinci qətnamənin hazırlanması prosesində Təhlükəsizlik Şurasının üzvləri qarşısında məsələ qaldırdım ki, "Dağlıq Qarabağ" Azərbaycanla bağlı şəkildə qeyd olunmalıdır. Çünki "Dağlıq Qarabağ" termini ayrılıqda mücərrəd xarakter daşıyır, ərazinin bizə aid olduğunu əks etdirmir. Yaxşı ki, bizim təkidimizlə BMT Təhlükəsizlik Şurasının sənədlərinin birində artıq "Azərbaycanın Naxçıvan bölgəsi" ifadəsi





öz əksini tapmışdı. Mən bu məsələ ilə bağlı görüşlərimə Təhlükəsizlik Şurasının iki üzvündən başladım – onlar 822 saylı qətnamənin qəbulu zamanı öz çıxışlarında bu mövzuya müsbət cəhətdən toxunmuşdular. Böyük Britaniyanın nümayəndəsi Tomas Riçardsonla görüşümdə qətnamə qəbul edilərkən öz çıxışında səsləndirdiyi aşağıdakı sözlərə görə təşəkkürümü bildirdim: "Mənim ölkəm belə hesab edir ki, BMT-nin və ATƏM-in prinsipləri nəzərə alınmaqla məsələnin yeganə real həlli yerli erməni əhali üçün muxtariyyətlə birlikdə Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyinin qorunub saxlanılmasıdır". Soruşdum ki, onun sözlərini "Azərbaycanın Dağlıq Qarabağ bölgəsi" ifadəsini dəstəkləməsi kimi qəbul edə bilərəmmi. O, birmənalı olaraq "bəli" cavabını verdi. Riçardsonla görüşüm həm də ona görə əhəmiyyətli idi ki, 1993-cü ilin iyulunda Təhlükəsizlik Şurasında sədrlik Böyük Britaniyaya keçirdi və qətnamənin də həmin ayda qəbul edilməsi nəzərdə tutulurdu. Daha sonra Venesuelanın daimi nümayəndəsi Dieqo Arria ilə görüşdüm və həmin sualı ona da verdim. Soruşdum ki, 822 saylı qətnamənin qəbulu zamanı dediyi "Dağlıq Qarabağ ətrafında genişlənən və bununla da Azərbaycan Respublikasının ərazisinin daha çox hissəsini təhlükə altında qoyan..." sözlərini onun "Azərbaycanın Dağlıq Qarabağ bölgəsi" ifadəsini dəstəkləməsi kimi qəbul edə bilərəmmi. O da birmənalı olaraq "bəli" dedi. Beləliklə, bu iki etibarlı tərəfdaşımızın dəstəyini aldıqdan sonra həmin sualla BMT Təhlükəsizlik Şurasının bütün üzvlərinə müraciət

etdik. Görüşdüyümüz nümayəndələrin hamısı bu barədə fikirləşəcəyinə söz verdi.

BMT-də COCUS adlı təşkilat fəaliyyət göstərir, bura qoşulmayan ölkələrdən Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri daxildir. Biz onlarla sıx dostluq əlaqəsi saxlayırdıq və onlar bizə kömək edirdilər. Təhlükəsizlik Şurasının iclasına bir-iki gün qalmış dostlarımızdan biri bizə dedi ki, qətnamədə Qarabağın Azərbaycana münasibətini müəyyən edən ifadə var. Sənədin layihəsindəki həmin ifadəni mənə göstərdilər. Orada belə yazılmışdı: "Azərbaycanın protektoratı altında olan Dağlıq Qarabağ".

– Bunu kim yazıb? – soruşdum.

Mənə bunun Rusiya missiyası tərəfindən irəli sürüldüyünü dedilər. Rusiyanın BMT-dəki missiyasının rəhbəri Yuli Vorontsov həmin vaxt Nyu-Yorkda deyildi, ifadəni onun müavini Valentin Lozinski yazmışdı. Mən dostlarımızı bu variantın bizim üçün tamamilə qəbuledilməz olduğuna inandırdım və onlar söz verdilər ki, bu barədə Təhlükəsizlik Şurasının digər üzvləri ilə danışacaqlar. Belə bir ifadənin mənim üçün qəti şəkildə qəbuledilməz olması bununla əlaqədar idi ki, hələ sovet dövründən "protektorat" anlayışının "bir dövlətin hansısa imperialist dövlət tərəfindən müstəmləkə əsarətinə salınması forması" kimi şərh edildiyini yaxşı xatırlayırdım. Belə bir ifadənin BMT Təhlükəsizlik Şurasının qətnamə layihəsində yer alması arzu ediləni gerçəklik kimi qələmə vermək cəhdi idi. Erməni siyasətçilər Dağlıq Qarabağın statusunu məhz bu





şəkildə təqdim etməyə çalışırdılar. Mən təcili şəkildə həmin ifadənin müəllifi ilə danışmağı qərara aldım. Valentin Lozinskini tapdım və soruşdum:

– Bunu siz yazmısınız?

– Bəli. Özünüz xahiş etmişdiniz ki, Dağlıq Qarabağın Azərbaycanla əlaqəsinin olduğu yazılsın.

Mən bu barədə düşündüyüm hər şeyi ona açıq şəkildə dedim. Onu məcbur etdim ki, mənim yanımda karandaşla əvvəlki ifadənin üstündən xətt çəksin, Dağlıq Qarabağın Azərbaycanın bir bölgəsi olduğunu yazsın və düzəliş barəsində Təhlükəsizlik Şurasının dəftərxanasına məlumat versin. O, dediklərimin hamısını yerinə yetirdi, amma dərhal məndən Moskvaya şikayət etdi. Rusiya Xarici İşlər Nazirliyi bu barədə bizim Moskvadakı diplomatik nümayəndəliyimizə, Azərbaycan səfirliyi isə vəziyyəti aydınlaşdırmaq əvəzinə, öz növbəsində Azərbaycan Xarici İşlər Nazirliyinə məlumat vermişdi ki, guya Həsənov Nyu-Yorkda Rusiya səfirini döyüb. Bu barədə xarici işlər nazirinin müavini Albert Salamova məlumat vermişdilər, o isə dinlədikdən sonra: "Həsənov kimi və nəyə görə döydüyünü bilir", – deyə cavab vermiş və həmin məlumata əhəmiyyət verməmişdi.

İyulun 29-da Ağdam ətrafındakı hadisələrlə bağlı 853 saylı ikinci qətnamə qəbul olundu. Həmin sənəddə daha çox şeyə nail olmuşduq. Əgər birinci sənəddə "bölgə ölkələri"nin ərazi bütövlüyündən bəhs edilirdisə, burada artıq Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiqlənirdi. Birinci sənəddə,

sadəcə, "Dağlıq Qarabağ" yazılmışdısa, burada "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi" ifadəsi yer almışdı. Əvvəlki sənəddə olduğu kimi, bu qətnamədə də işğalçı qüvvələrin Ağdamdan və Azərbaycan Respublikasının digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələbi öz əksini tapmışdı.

BMT-də işlədiyim zaman öyrəndim ki, istənilən qətnamənin qəbulunda əsas məsələ ifadəni "yeritmək", model yaratmaqdır. Sonra onlar daha həmin ifadədən imtina etmirlər. Həmin iki qətnamədə, xüsusilə ikinci sənəddə bizim üçün məqbul olan ifadələri keçirməyə nail olduq. Daha sonra qəbul edilən 14 oktyabr 1993-cü il tarixli 874 saylı və 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələr də eyni, bizim üçün əhəmiyyətli olan həmin prinsipləri əks etdirirdi.

***Necə oldu ki, Heydər Əliyev xarici işlər naziri vəzifəsinə namizədlər axtarışında seçimini məhz sizin üzərinizdə saxladı? O vaxt diplomatik iş təcrübəniz kifayət qədər idimi?***

Mənim tərcümeyi-halımı yaxşı bildiyiniz halda belə bir sual verirsinizsə, deməli, bu mövzunun daha ətraflı və mümkün qədər konkret izaha ehtiyacının olduğuna işarə edirsiniz. Düşünürəm ki, Heydər Əliyev mənim potensialımı kifayət qədər yaxşı bilirdi. Nazir təyin olunanda o məni artıq 25 il idi ki, yaxından tanıyırdı. Onun həmin dövr ərzində məni siyasi, ideoloji və iqtisadi fəaliyyətin tamamilə fərqli sahələrində





şəxsən sınamaq imkanı olmuşdu. Mənim həyat təcrübəm düzxətli, necə deyərlər, "təksahəli" deyildi. O, tamamilə fərqli sahələrdə, çoxcəhətli şəkildə formalaşırdı və bu məhz Heydər Əliyevin mənim taleyimi həll edərkən çox zaman qeyri-adi qərarlar verdiyinə görə baş verirdi. Əgər Heydər Əliyev mənə Fransa kommunistlərinin "Humanite" qəzetinin yubileyində Azərbaycanın nümayəndə heyətinə başçılıq etməyi və bununla yanaşı, indi hamının yaxşı tanıdığı Əlimərdan bəy Topçubaşovun mühacirətdə olan ailə üzvləri ilə Parisdə görüşməyi tapşırırdısa, görünür, məndə hansısa diplomatik qabiliyyətin olduğunu hiss edirdi. Bu, 1974-cü ildə olmuşdu, mən o vaxt Mərkəzi Komitənin Tikinti və şəhər təsərrüfatı şöbəsinin müdir müavini vəzifəsində çalışırdım. Məhz onun şəxsi tövsiyəsi ilə ardıcıl olaraq Səbailin, Sumqayıtın və Gəncənin partiya rəhbəri kimi irəli çəkilmişdim. Bu vəzifələr birinci şəxsdən tamamilə fərqli, bəzən hətta əks keyfiyyətlərə malik olmağı tələb edirdi. O dövrdə yerli partiya rəhbərlərinin səlahiyyətləri indiki ilə müqayisədə çox geniş idi. Məsələn, mən Mərkəzi Komitənin Tikinti və şəhər təsərrüfatı şöbəsinin müdir müavini vəzifəsindən həmin illərdə "paytaxt içində paytaxt", yaxud "ziyalılar rayonu" adlandırılan Səbail rayonunun partiya rəhbəri vəzifəsinə irəli çəkilmişdim və bu, çoxlarını təəccübləndirmişdi. Yaradıcılıq birlikləri (yazıçılar, bəstəkarlar, rəssamlar, teatr xadimləri, kinematoqrafçılar ittifaqları), özünün elmi şöbələri ilə birlikdə Elmlər Akademiyası, çox sayda ali məktəb, respublikanın nazirlik və idarələrinin əksəriyyətinin partiya

təşkilatları həmin rayonda cəmləşmişdi. Həmin rayonun rəhbəri bütün bu sahələrdən xəbərdar olmalı, partiyanın, yaradıcı və elmi ictimaiyyətin müxtəlif yığıncaqlarında çıxış etməli, onların qarşısına vəzifələr qoymalı, insanlarla ünsiyyət qurmalı idi. Bu işdə nə qədər uğurlu olduğumu Sumqayıt şəhərinin rəhbəri vəzifəsinə irəli çəkilməyimə görə qiymətləndirmək olar. Orada artıq başqa keyfiyyət – məlum olduğu kimi, sosialist cəmiyyəti şərtlərində aparıcı qüvvə olan fəhlə sinfi ilə ümumi dil tapmaq bacarığı tələb olunurdu. Çox keçmədən, Azərbaycanın ikinci ən böyük və mühüm şəhəri Gəncədə kritik vəziyyət yarananda Heydər Əliyev təkidlə mənim həmin bölgəyə köçürülməyimlə bağlı məsələ qaldırdı. Orada vəziyyət mürəkkəb idi, çoxları, hətta o vaxt məktəbli, yaxud tələbə olan insanlar da həmin böhranlı dövrü ya özləri xatırlayır, ya da bunu böyüklərin söhbətlərindən bilirlər. Gəncə şəhəri, onun quruluşu və əhalisinin xarakteri həm Səbail rayonundan, həm də Sumqayıtdan kəskin şəkildə fərqlənirdi. "Ziyalılar" rayonu Səbaildən, "fəhlə sinfi" şəhəri Sumqayıtdan sonra hər ikisindən xeyli şəkildə fərqlənən və rəhbər şəxsdən başqa keyfiyyətlər tələb edən Gəncədə işləməli oldum. O illərdə camaat deyirdi ki, Bakı Azərbaycanın, Gəncə isə azərbaycanlıların paytaxtıdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi vəzifəsinə irəli çəkilməyim həmin vəzifədə nə dərəcədə bacarıqlı olduğumu dəyərləndirməyə əsas verir.





MK-nın katibi işlədiyim dövrdə Azərbaycanda çoxlu beynəlxalq tədbirlər keçirilir, müxtəlif səviyyəli xarici nümayəndə heyətləri, o cümlədən xarici dövlət və hökumət başçıları, yüksəkvəzifəli siyasətçilər, elm adamları və başqaları müntəzəm olaraq ölkəyə səfər edirdilər. Mən onların hamısı ilə təmasda olmalı, nümayəndə heyətlərini müşayiət etməli, onların Heydər Əliyevlə görüşlərində iştirak etməli idim. Həmin illərdə nümayəndə heyətinin başçısı kimi Avstriya, Belçika və Lüksemburqa səfər etmişdim. Finlandiyanın Baş naziri Kalevi Sorsanı və Vyetnamın başçısı Le Zuanı bir neçə gün ərzində müşayiət etmişdim. 1983-cü ildə SSRİ Ali Sovetinin deputatı kimi Antverpen Azad Universitetində (Belçika) SSRİ-nin xarici və daxili siyasəti, o cümlədən Azərbaycan haqqında mühazirə oxumaq üçün dəvət edilmişdim. 1985-ci ildə Vyetnamda və Laosda Sov.İKP MK-nın nümayəndə heyətinə başçılıq etmiş, Sovet İttifaqı adından həmin ölkələrin baş nazirlərinin müavinləri və xarici işlər nazirləri ilə danışıqlar aparmışdım. Sov.İKP MK nümayəndə heyətinin işini o vaxt müsbət qiymətləndirmişdi. Baş nazir işlədiyim zaman diplomatik fəaliyyət sahəsində xüsusilə geniş təcrübəyə yiyələnmişdim. Yaxşı ki, bu, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə və onun əldə edilməsi dövrü idi. Türkiyə Prezidenti Turqut Özalla, baş nazirlər Məsud Yılmaz və Süleyman Dəmirəllə, xarici işlər naziri Hikmət Çətinlə danışıqlar aparırdım. Onlarla şəxsən danışıqlar aparmış və hələ Sovet İttifaqının mövcud olduğu dövrdə, 1991-ci il noyabr ayının ilk günlərində

Azərbaycanın müstəqilliyinin Türkiyə tərəfindən tanınmasına nail olmuşdum. 1992-ci ilin mart ayında Azərbaycan ATƏM-ə (ATƏT-ə) daxil olduqdan sonra Hikmət Çətinlə birlikdə qərara gəlmişdik ki, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq səviyyədə həlli üçün ən optimal təşkilat ATƏM (ATƏT) ola bilər və Minsk qrupu da məhz onun nəzdində yaradıldı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin vəziyyəti ilə bağlı danışıqlar üçün Bakıda BMT baş katibinin Butros Butros Qalinin xüsusi nümayəndəsi, ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensi və digərlərini qəbul etmişdim.

1990-cı ilin sentyabr ayında Türkiyəyə səfər etmişdim, aparılan danışıqlar nəticəsində ölkələrimiz arasında olduqca prinsipial əməkdaşlıq müqavilələri imzalanmışdı. O zaman Türkiyə rəsmiləri mənim qaldırdığım məsələlərə bir qədər ehtiyatla yanaşırdılar. Onlar bizimlə daha sıx əlaqələr qurmaqdan məmnun olardılar, amma bunun Türkiyə-sovet münasibətlərinə xələl gətirə biləcəyini düşünərək ehtiyatlı davranırdılar. Mən bunu bilirdim. Ona görə də səlahiyyətlərimi təsdiq edən sənədləri Moskvada əvvəlcədən hazırlatdırmışdım. Türkiyəyə yola düşməzdən əvvəl bir neçə gün ərzində Sovet İttifaqının ali rəhbərliyi ilə görüşlər keçirmiş və sovet hökumətindən – Qorbaçovdan, baş nazir Rıjkovdan, xarici işlər naziri Şevardnadzedən rəsmi səlahiyyətlər almışdım. Mənə rəsmi sənədlər verilmişdi ki, Azərbaycanın Baş naziri kimi sovet hökuməti adından Türkiyə ilə müqavilələr imzalamaq hüququm





var. Türkiyə Respublikasında olduğum müddətdə prezident Turqut Özal, baş nazir Yıldırım Akbulut, dövlət naziri Güneş Taner, maliyyə və gömrük naziri Adnan Kahveci, nəqliyyat naziri Cengiz Tuncerlə danışıqlar aparmışdım. Türkiyənin bir sıra biznes strukturları ilə işgüzar görüşlər keçirmişdim. Səfər zamanı sərhəd ticarətinin inkişafı, Azərbaycan və Türkiyə arasında birbaşa rabitə kanallarının yaradılması, Azərbaycan rabitə sisteminin Türkiyə vasitəsilə beynəlxalq rabitə sisteminə qoşulması, televiziya proqramları mübadiləsinin həyata keçirilməsi, ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yaradılması, 1991-ci ilin əvvəlindən Azərbaycan və Türkiyə arasında hava və gəmiçilik əlaqələrinin yaradılması, Azərbaycan və Türkiyənin enerji sistemlərinin birləşdirilməsi və elektrik enerjisinin qarşılıqlı mübadiləsi, Azərbaycandan Şərqi Anadoluya təbii qazın nəqli və onun həmin bölgədə istifadəsi haqqında müqavilələr imzalanmışdı. Biz iş adamlarının qarşılıqlı səfərlərini, təcrübəçi və tələbələrin mübadiləsini və s. təşkil etmək haqqında razılaşmışdıq. İmzalanan sənədlər arasında Bakıda Türkiyənin Baş Konsulluğunun açılması məsələsi də var idi. Müstəqillik elan edildikdən sonra həmin konsulluq səfirliyə çevrildi.

İrana səfərim və orada İİR-in Prezidenti Haşimi Rəfsəncani, xarici işlər naziri Əli Əkbər Vilayəti və ölkənin digər rəhbərləri ilə danışıqlarım zamanı da buna bənzər işlər aparılmışdı. 1990-cı ilin noyabrında Kanberrada Avstraliyanın Baş naziri, bizim müstəqillik cəhdlərimizi dəstəkləyən Robert Houqla

danışıqlar aparmışdım. Çox keçmədən o mənə məktub yazaraq istefaya getdiyini və bunda Avstraliyadakı erməni diasporunun da təsiri olduğunu bildirdi – ermənilər mənimlə görüşünü ona bağışlamamışdılar.

1991-ci ilin oktyabrında İtaliyanın Baş naziri Culio Andreotti ilə danışıqlar aparmışdım, o bildirmişdi ki, rəsmi müraciət olarsa, Azərbaycanın müstəqilliyini tanıyacaq. 1991-ci ilin oktyabrında sovet səfirliyinin iradəsinin ziddinə olaraq, Vatikanda Roma Papası II İohann Pavel ilə görüşmüşdüm, o məni əmin etmişdi ki, Ermənistan tərəfinin bəyanatlarına baxmayaraq, Vatikan Dağlıq Qarabağı hər hansı bir şəkildə tanımaq niyyətində deyil. Müstəqillik elan edildikdən dərhal sonra, 1992-ci ilin yanvarında Səudiyyə Ərəbistanına səfər etmişdim, orada ölkənin ən görkəmli və fəal siyasi xadimlərindən biri olan vəliəhd şahzadə, baş nazirin müavini, müdafiə və aviasiya naziri Sultan bin Əbdül Əzizlə danışıqlar aparmışdım. Elə o vaxt Maskatda da olmuşdum, Oman sultanı Kabus ben Səid Əlsəidlə danışıqlar aparmışdım. Bu görüşlərdən qısa müddət keçdikdən sonra həmin ölkələrin xarici işlər nazirləri Azərbaycana gəldilər və bizim aramızda mehriban münasibətlər yarandı.

1992-ci ilin fevralında Brüsseldə Avropa Şurası Siyasi Komitəsinin iclasında "Biz necə respublika qururuq?" mövzusunda çıxış etmiş və parlament üzvlərinin çoxsaylı suallarına cavab vermişdim. NATO-nun mənzil-qərargahında baş katib Manfred Vernerlə danışıqlar aparmışdım, daha sonra





NATO-ya üzv ölkələrin səfirlərinin yığıncağında çıxış etmiş və onların suallarını cavablandırmışdım.

Mən BMT-dən əvvəlki fəaliyyətimdə diplomatik təcrübəmin mahiyyətini təşkil edən işlərin yalnız bir hissəsindən danışdım. BMT-də işlədiyim zaman, Heydər Əliyevdən əvvəl də fəaliyyətim haqqında Bakıya məlumat verir, lakin lazımi cavabı almırdım. Heydər Əliyev parlamentin sədri olduqdan sonra gördüyüm işlər barəsində çox geniş məlumat verdiyim məktublarımı şəxsən oxuyur, sonra ya özü mənə zəng edir, ya da bunu uzun illərdən bəri dostluq münasibətində olduğum Vəfa Quluzadəyə həvalə edirdi. Heydər Əliyevlə tez-tez telefonda danışırdıq. Beləliklə, o mənim BMT-dəki diplomatik fəaliyyətim barəsində ətraflı məlumata malik idi və Təhlükəsizlik Şurasının o vaxt qəbul edilən qətnamələrini yüksək qiymətləndirirdi. Heydər Əliyev nadir hallarda kimisə üzünə tərifləyirdi, lakin onun "müxtəlif sahələrə marağımı", "istənilən problemin mahiyyətini araşdırmaq bacarığımı", "müstəsna çalışqanlığımı" yüksək qiymətləndirdiyini eşitmək mənə nəsib olub.

Bütün ömrüm boyunca əldə etdiyim iş sürətini Nyu-Yorkda da qoruyub saxlamağa çalışırdım. Əvvəlcə bu mənim gənc əməkdaşlarıma dözülməz görünürdü, amma onlar qarşımızda duran vəzifələri yerinə yetirərkən başa düşdülər ki, bu cür iş qrafiki mənim şəxsi şıltaqlığımdan deyil, zamanın tələbindən irəli gəlir. Biz bəzən, sözün həqiqi mənasında, gecə-gündüz işləyirdik. Azərbaycanda çox gərgin bir dövr idi, Heydər

Əliyevin özü yorulmadan işləyir və ətrafdakılardan da bunu tələb edirdi. Xarici işlər naziri kimi fəaliyyətimin də ilk günlərindən eynilə bu cür "gecə-gündüz" iş süratini götürmüşdük. Əlbəttə, bu, çoxlarının, o cümlədən də bizim bəzi yüksək-rütbəli diplomatların, xüsusilə də həmin ritmdə işləyə bilməyənlərin, yaxud işləmək istəməyənlərin xoşuna gəlmirdi. Heydər Əliyev dedi ki, Bakıya qayıdım və onun komandasında işləyim. Mən onu inandırmağa çalışırdım ki, Nyu-Yorkda, BMT-də işləyərkən həm də onun komandasındayam. Kanadaya səfərimdən sonra daha çox israr etdi və mən avqustun ortalarında Bakıya qayıtdım. Bir neçə gündən sonra isə xarici işlər naziri təyin olundum.

***Belə çıxır ki, siz təhsilinizə görə diplomat olmasanız da, uzun illər boyunca peşəkar şəkildə diplomatiya ilə məşğul olmusunuz. Amma bu, ixtisasınıza uyğun olmayan ilk təyinat deyildi. Ondan xeyli əvvəl ixtisasca mühəndis olduğunuz halda, sovet Azərbaycanının kifayət qədər mürəkkəb ideoloji sahəsinə rəhbər təyin olunmuşdunuz. Həmin qərarın verilməsi nədən irəli gəlirdi?***

Diplomatik fəaliyyət sahəsini seçməyim və Azərbaycanın BMT yanında daimi nümayəndəsi vəzifəsinə təyin olunmağım mənim təşəbbüsüm idi. Heydər Əliyevin məni niyə xarici işlər naziri təyin etməsi ilə bağlı suala da ətraflı cavab verdim. Mənim Azərbaycanın ideoloji sahəsinə rəhbər təyin





olunmağım isə Heydər Əliyevin özünün təşəbbüsü olub. Düşünürəm ki, Heydər Əliyev məndən ideoloji sahədə istifadə edilə biləcəyi haqqında ilk dəfə 1976-cı ildə, Bakının Səbail rayonunun rəhbəri işlədiyim zaman fikirləşib. Məsələnin tarixçəsi belədir. Birinci təhsilim üzrə mühəndis olsam da, hələ həyatımın Tbilisi dövründən tarix və ədəbiyyata xüsusi marağım var idi. Orta məktəb illərində həm xarici, həm də sovet ədəbiyyatına aid çoxlu tarixi romanlar oxuyurdum. Daha çox Gürcüstanın, Ermənistanın tarixi haqqında əsərləri, eləcə də Məmməd Səid Ordubadinin Tbilisidə tapdığım məşhur "Qılınc və qələm" romanını oxumuşdum. 1958-ci ildə orta məktəbi bitirib Azərbaycana gələndən sonra marağımı çəkən bu sahədəki fəaliyyətimi daha məqsədyönlü şəkildə davam etdirirdim. Hələ Moskvaya getməzdən əvvəl Mirzə Fətəli Axundovun Brüssel Politexnik Universitetində təhsil alan oğlu Rəşidlə yazışmaları əsasında (həmin məktublar Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılır) Rəşid Axundov haqqında böyük bir oçerk yazmışdım. Bakıya qayıdandan sonra məlum oldu ki, Heydər Əliyev partiya işçilərinin elmi-tədqiqat işləri ilə məşğul olmasına müsbət yanaşmır. Ona görə də oçerkin çap olunmaması ilə barışdım. Səbail rayonuna rəhbər təyin ediləndən sonra bir dəfə Azərbaycan Yazıçılar İttifaqının sədri İmran Qasımov mənə zəng vurub həmin oçerk haqqında soruşdu. Qasımov təkidlə oçerki oxumaq üçün ona verməyimi istədi. Mən bundan narahat olsam da, razılaşdım, amma Heydər Əliyevin qoyduğu

qadağalara görə onu dərc etdirmək niyyətində olmadığımı da bildirdim. Aradan cəmi üç-dörd gün keçəndən sonra Heydər Əliyev mənə zəng vurdu və oçerk haqqında suallar verməyə başladı. Ona bu barədə İmran Qasımov danışıbmış. Heydər Əliyevi iki sual maraqlandırırdı. Birincisi bu idi ki, oçerki, doğrudanmı, mən özüm yazmışam. Buna əmin olduqdan sonra ikinci sualını verdi: ixtisasca tikinti mühəndisi olduğum halda, tarixə marağım nədən irəli gəlir? Mən ona dedim ki, bu maraq təhsil aldığım Tiflis orta məktəbində yaranıb. Məktəbimizdə yeganə azərbaycanlı mən idim, gürcü və erməni sinif yoldaşlarımla söhbətlərimiz çox vaxt tarixi mövzulara keçirdi. Onların ixtiyarında çoxlu faktiki materiallar olduğu üçün bu müzakirələrdə özlərini çox inamlı hiss edirdilər. Mən isə Tbilisi şəraitində Azərbaycanın tarixi haqqında çox cüzi məlumat toplaya bilirdim, ona görə geniş müzakirə aparmaq imkanım da məhdud idi. Üstəlik orada Azərbaycan tarixi məhdud, təhrif olunmuş, hətta ziddiyyətli şəkildə təqdim olunurdu. Heydər Əliyev dediklərimdən razı qaldı və söhbətimizin sonunda dedi: "Mən əmin oldum ki, oçerki sən özün yazmısan. Onu dərc etdirməyə icazə verirəm". Çox gözləmək lazım gəlmədi. İmran Qasımov dərhal göstəriş verdi və həmin oçerk Yazıçılar İttifaqının iki jurnalında: "Azərbaycan" jurnalında Azərbaycan dilində, "Literaturnıy Azerbaydjan" jurnalında isə rus dilində dərc olundu.

Bir müddətdən sonra Heydər Əliyev məni Gəncə şəhərinə rəhbərlik etməyə göndərdi. Şəhərdə vəziyyət gərgin idi.





Əhali şəhər rəhbərliyindən narazı idi. Gəncə haqqında məlumatım az idi, ona görə də istiqamətindən asılı olmayaraq, bütün məsələləri: siyasi, kadr, abadlıq, mədəni, hətta tarixi problemləri araşdırmağa qərar verdim. Müxtəlif sahələrdə şəhər təşkilatlarının nizam-intizam səviyyəsini qaldırmağa nail oldum, kadrlarla bağlı verilən qərarlar ictimailəşdi. Heydər Əliyev məni ora göndərəndə diqqətimi şəhərlərin rəhbərliklərindən ən çox şikayətlərin məhz Gəncədən daxil olduğuna yönəltmişdi. Əhali ilə ünsiyyətin miqyasını kəskin surətdə genişləndirərək ilk üç ay ərzində iyirmi mindən çox insanı işdə, kabinetimdə qəbul etmişdim. Rəqəmləri şişirtmirəm, məhz belə olmuşdu. Çünki həm şikayətçiləri, həm də onların adlarını çəkdikləri şəxsləri dəvət edirdim, beləsləri isə çox vaxt on nəfərə yaxın, bəzən ondan da çox olurdu. Mahiyyət etibarilə mədəni-tarixi xarakter daşıyan abadlıq işləri aparılırdı. Səkkiz məscid və mədəni-maarif idarələrinə verilmiş çoxlu qədim bina yenidən qurulmuşdu. Bir sıra yeni yaradıcılıq kollektivləri yaradılmışdı. Şəhər parklarında müxtəlif büstlər, heykəllər qoyulur və onlar açıq səma altındakı muzeylərə çevrilirdi. Açıq səma altındakı orta əsrlər Azərbaycan heykəltaraşlıq təsvirlərinə həsr olunmuş muzey unikallığı ilə seçilirdi. Nizami poeziya günlərinin şairin məqbərəsi önündə keçirilməsi bir ənənəyə çevrilmişdi. Açıq səma altında "Poeziya teatrı" yaradılmışdı, orada yalnız Nizami əsərlərinin mövzuları ətrafında tamaşalar nümayiş etdirilirdi. Orta əsrlər Azərbaycan miniatür rəssamlığı muzeyi, şahmat məktəbi

yaradılmışdı. 200 hektardan artıq ərazidə park salınmış, orada Mirzə Şəfi Vazehin, Məhsəti Gəncəvinin və Azərbaycanın bir çox digər görkəmli şəxslərinin heykəlləri ucaldılmışdı. Nəhayət, şəhərin yeni mikrorayonlarından birinin nümunəsində "Gəncə" adı bərpa edilmiş, sonralar şəhər iki rayona bölünəndə bu ad onlardan birinə verilmişdi. Sadaladıqlarımın hamısı Heydər Əliyevin razılığı ilə həyata keçirilir, obyektlərin çoxu onun iştirakı ilə açılırdı. Düşünürəm ki, bütün bunlar məni Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi vəzifəsinə təyin etməsi üçün Heydər Əliyeviçə əsas verib. Mən Heydər Əliyevin hərtərəfli dəstəyi ilə Azərbaycan tarixinin və mədəniyyətinin inkişafı və təbliğatı istiqamətində çox iş görməyə nail olmuşam. Heydər Əliyev Moskvaya gedəndən sonra mənim gördüyüm işlərdən narazı olanlar özlərini büruzə verməyə başladılar, nəhayət, Moskvanın təkidi ilə millətçilikdə ittiham olunaraq ideoloji işdən kənarlaşdırıldım. O zaman artıq 30-cu illər deyil, 80-ci illər idi. Ona görə də məni Azərbaycan KP MK-nın Tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə keçirməklə kifayətləndilər.

***Nyu-Yorkdan Azərbaycana qayıdandan sonra yadınızda qalan ilk diplomatik hadisələr hansılardır?***

Mən Azərbaycana yola düşəndə BMT-də səfirlərlə ənənəvi kollektivlə vidalaşma mərasimi keçirməmişdim, çünki





Bakıdakı təyinatımla bağlı rəsmi qərar yox idi. Xüsusi şəkildə Türkiyənin BMT-dəki daimi nümayəndəsi Mustafa Akşinlə görüşdüm, işimizə daim köməklik göstərdiklərinə görə ona və əməkdaşlarına təşəkkürümü bildirdim. BMT-nin yüksək-vəzifəli şəxsləri ilə, xüsusilə də BMT-nin baş katibi Butros Butros Qali ilə görüşdüm. O, yaxın zamanlarda mütləq Azərbaycana gələcəyini bildirdi və bu səfəri 1994-cü ildə həyata keçirdi. Azərbaycanla bağlı bəyanat və qətnamələrin qəbulu zamanı sədrlik etmiş Təhlükəsizlik Şurasının üzvləri Peter Hohenfeller (Avstriya), Daoyu Li (Çin), Jan Bernar Merime (Fransa), Yoşixo Hatano (Yaponiya), Camşid Marker[1] (Pakistan), Devid Hanney[2] (Böyük Britaniya) ilə, həmçinin Andre Erdoş[3] (Macarıstan), Dieqo Arria[4] (Venesuela) və digər şura üzvləri ilə görüşdüm.

[1] Camşid Ardeşir Keykobed Marker; Markerin sayca hər kəsdən daha çox ölkədə səfir olması ilə "Ginnesin rekordlar kitabı"na düşdüyünü iddia edirlər. Marker 30 il ərzində 10 müxtəlif ölkədə, o cümlədən ABŞ və SSRİ-də Pakistanın səfiri kimi fəaliyyət göstərib və eyni vaxtda 9 ölkədə akkreditə olunub. 1998-ci ildə BMT-nin Şərqi Timorda (İndoneziya) xüsusi tapşırıqlar üzrə səfiri kimi çalışıb. Son zamanlarda pedaqoji fəaliyyətlə məşğul olurdu.

[2] Devid Hanney sonralar dünyanın müxtəlif ölkələrindən olan 16 üzvdən ibarət Veteran Siyasətçilər və Diplomatlar Şurasının və BMT baş katibi Kofi Annan tərəfindən təsis edilmiş təhdidlər, çağırışlar və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun üzvü kimi təsdiqlənmişdi.

[3] Sonralar Macarıstanın Fransadakı səfiri kimi fəaliyyət göstərib. Macarıstan XİN-in dövlət katibi kimi Azərbaycanda səfərdə olub.

[4] Dieqo Arria hazırda dissident və hüquq müdafiəçisi kimi tanınır. Venesuelada keçirilən prezident seçkilərinin iştirakçısı olan Dieqo Arria Haaqa Beynəlxalq Cinayət Tribunalında prezident Uqo Çavesə qarşı 600 səhifəlik hesabat şəklində iddia qaldırıb.

Madlen Olbraytla görüşdüm. Ona dedim ki, Azərbaycana gedirəm, Heydər Əliyev məni çağırır, qayıtmaya da bilərəm, sizdən Azərbaycanı dəstəkləməyə davam etməyinizi xahiş edirəm. O dedi:

– Mən keçən dəfə sizə kömək etdim və Amerika hökumətinin Əliyevin ilk addımlarına tənqidi yanaşmamasına nail oldum. Başqa nə etmək olar?

– Həm sizin, həm də bizim qəzetlər Heydər Əliyev haqqında arzuolunmaz yazılar yazmaqda davam edir. Sizdən bir nəfərin Bakıya gəlməsi lazımdır. Bu həm də onun tanınmasının təsdiqi olar.

– Mən sizə söz verirəm ki, gələcəklər.

– O, Heydər Əliyevə rəğbət göstərən bir adam olmalıdır.

– Biz elə bir adam taparıq, – o dedi, sonra əlavə etdi: – Əgər dəvət etmək istəsəniz, mən özüm də gələrəm.

Mən Bakıya qayıdandan sonra xəbər gəldi ki, M.Olbrayt Bill Klintonla danışıb və onlar bura B.Klintonun yaxın dostu olan, "Rusiyada və keçmiş Sovet İttifaqının yeni müstəqil dövlətlərində xüsusi tapşırıqlar üzrə səfir" vəzifəsini tutan Stroub Telbotu göndərmək qərarına gəliblər. Mən hələ nazir təyin olunmamışdım, amma faktiki olaraq bu səfərlə bağlı bütün prosesə rəhbərlik edirdim. Heydər Əliyev Stroub Telbotu Milli Məclisdəki kabinetində qəbul etdi. Telbot görüş zamanı sözə belə başladı ki, 80-ci illərdə Moskvada "Time" jurnalının müxbiri işləyib, Heydər Əliyevi yaxşı tanıyır və onun şəxsiyyətinə hörmətlə yanaşır. Görüş yaxşı keçdi, aydın görünürdü





ki, qonaq razıdır və buradan yaxşı təəssüratlarla ayrılacaq. Adətən, belə hallarda olduğu kimi biz hələ Telbotun gəlişindən əvvəl birgə şam yeməyinin olmasını təklif etmişdik, lakin ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls buna qəti şəkildə etiraz etmişdi. Səfir demişdi ki, qonaq şam etməyəcək, çünki onun xanımı qonaq üçün sendviç hazırlayıb və səfirlikdə onları gözləyirlər. Hiss olunurdu ki, o, Telbotun Heydər Əliyevlə yaxın ünsiyyətdə olmasını istəmir. Görünür, Heydər Əliyevin qeyri-rəsmi ünsiyyət zamanı hansı cazibədarlığa malik olduğunu və Telbotun həmin cazibənin təsirinə düşə biləcəyini anlayırdı.

– Nə edək? – Heydər Əliyev məndən soruşdu.

– Kabinetiniz böyükdür, gəlin elə burada "sendviç" şəklində kiçik bir şam yeməyi verək.

Münasib məqam yetişəndə Heydər Əliyev danışıqların bitmək üzrə olduğuna işarə etdi və əvvəlcədən hazırlanmış yeməkləri kabinetə gətirdilər. Heydər Əliyev özünəməxsus zarafatla Stroub Telbota müraciətlə dedi:

– Səfiriniz sizi isti Azərbaycan yeməklərinə qonaq etməyə imkan vermədi, dedi ki, yalnız sendviç xoşlayırsınız. Amerikan sendviçlərini Amerikada yeyərsiniz, bunun üçün bura gəlməyə ehtiyac yoxdur, biz sizə Azərbaycan sendviçləri təqdim edəcəyik.

ABŞ səfirinin narazılığına baxmayaraq, Telbot dərhal razılaşdı və söhbət daha səmimi şəraitdə davam etdi. Stroub Telbot Vaşinqtona qayıtdıqdan sonra Heydər Əliyevi çox müsbət

qiymətləndirmişdi. Çox keçmədən Bill Klinton da Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik teleqramı göndərdi. Sonralar Stroub Telbot ATƏT-in Lissabon sammitində iştirak etmiş və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məşhur sənədin qəbul edilməsində onun xüsusi rolu olmuşdu. 1999-cu ilin oktyabr ayında Stroub Telbot artıq ABŞ dövlət katibinin müavini kimi Bakıya səfər etmiş və Heydər Əliyevlə görüşündə belə demişdi: "Biz Bakıda özümüzü yad ölkədəki kimi hiss etmirik. Şəxsən mən yenə Bakıya gələ bildiyimə görə çox şadam". O eyni zamanda "Prezident Klintonun hərarətli və səmimi salamları"nı və dövlət katibi xanım Olbraytın hələ də qulaqlarımda səslənən xoş arzularını çatdırmış, "Hər ikisi sizinlə şəxsi münasibətləri yüksək dəyərləndirir", – demişdi.

1995-ci ildə Madlen Olbrayt ABŞ-ın BMT-də daimi nümayəndəsi və eyni zamanda Prezident yanında Milli Təhlükəsizlik Şurasının üzvü kimi Bakıya səfər etmiş, bu zaman Heydər Əliyevlə danışıqlar aparmış və həmin görüşdən böyük təəssüratlarla ayrılmışdı. Heydər Əliyevin ABŞ-a tarixi səfəri məhz Madlen Olbrayt ABŞ-ın dövlət katibi seçildikdən sonra baş tutmuş, 1997-ci il avqustun 1-də isə ABŞ və Azərbaycan prezidentləri Ağ evdə çox mühüm bir sənəd – Amerika-Azərbaycan əlaqələri haqqında birgə bəyanat imzalamışdılar. Üstəlik qeyd etmək lazımdır ki, nə dövlət katibi Voren Kristofer, nə də Madlen Olbrayt Bill Klinton administrasiyasında vəzifədə olarkən İrəvana və Tbilisiyə səfər etməmişdilər.





***Zəhmət olmazsa, bu görkəmli siyasətçini və şəxsiyyəti səciyyələndirən hansısa yaddaqalan epizodları xatırlayardınız. O özünü ekstremal vəziyyətlərdə, məsələn, Lissabon sammiti zamanı necə aparırdı?***

Həqiqətən, ATƏT-in Lissabon sammiti (1996) unikal hadisə idi. Lakin xarici işlər naziri işlədiyim dövrdə bu sammitlə yanaşı, Budapeşt sammiti də (1994) keçirilmişdi. Bu iki hadisə Heydər Əliyevin parlaq və qeyri-adi şəxsiyyətini, onun ən mürəkkəb beynəlxalq məsələləri ölkəmizin milli maraqlarını nəzərə almaqla həll etmək sahəsindəki müstəsna bacarığını nümayiş etdirdi. Əvvəlcə Budapeşt sammiti haqqında danışacağam, onun nəticələri bəzən çox kiçildilir, amma, mənim fikrimcə, onun nəticələri əhəmiyyətli idi. 1994-cü ilin danışıqlar prosesi mürəkkəb hadisələrlə zəngin idi. Milli Məclisin rəhbərliyi məni Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesi ətrafındakı vəziyyət barədə Azərbaycan parlamentinə məlumat verməyə dəvət edirdi. Mən bunu etmək istəmirdim, çünki söhbət açıq iclasdan gedirdi, danışıqların bəzi incəliklərinin orada açıqlanması arzuolunan deyildi. Lakin Milli Məclisin rəhbərliyi israr edirdi. Onda Heydər Əliyev tapşırdı ki, çıxış edim və hər şeyi başa düşdüyüm kimi danışım. Aprelin 18-də mən Milli Məclisin iclasında çıxış etdim və münaqişənin nizamlanması məsələsində ortaya çıxa biləcək bir sıra arzuolunmaz təmayüllər haqqında açıq danışdım. Bununla da Milli Məclisin rəhbərliyində mənə qarşı nədənsə narazılıq yarandı.

Çox keçmədən çıxışımda qeyd etdiyim narahatlıqlar özünü büruzə verməyə başladı.

1994-cü il mayın 5-də Bişkek şəhərində keçirilən iclasın iştirakçıları MDB Parlamentlərarası Assambleyasının, Qırğızıstan Respublikası Parlamentinin, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin və Federal Məclisin təşəbbüsü ilə "Bişkek protokolu" adlanan sənəd qəbul etdilər. Sənəddə MDB üzvü olan dövlətlərin parlamentlərinə "MDB-nin sülhməramlı qüvvələrinin yaradılması haqqında" təşəbbüsü müzakirə etmək təklif olunurdu. Bu qərardan asılı olmayaraq, mayın 12-də bütün cəbhə xətti boyunca atəşkəs haqqında razılıq əldə olundu. Azərbaycan Parlamenti hələ "Bişkek protokolu"nun tövsiyələrinə hər hansı münasibət bildirməyə macal tapmamışdı, amma Rusiyanın müdafiə naziri Pavel Qraçovun dəvəti ilə artıq 1994-cü il mayın 16-17-də Moskvada görüş keçirilmişdi. Onun nəticələrinə əsasən, Ermənistan-Azərbaycan münaqişəsi zonasında MDB sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında sənəd imzalanması nəzərdə tutulurdu. Bu cür qüvvələrin mövcudluğu Azərbaycan Parlamenti tərəfindən qanuniləşdirilmədiyinə görə onların Azərbaycan ərazisində yerləşdirilməsi də mümkün deyildi. Bununla belə, Azərbaycanın nümayəndəsi belə bir səlahiyyəti olmadığı halda, Azərbaycan Parlamenti rəhbərliyinin dəstəyi ilə, mayın 18-də səhər saatlarında Moskvada həmin sənədi imzalamaq niyyətində idi.

Heydər Əliyev bundan mayın 17-də gecədən xeyli keçmiş xəbər tutdu. Elə həmin vaxt məhz gecə yerinə yetirməli





olduğum göstərişi verdi, səhər artıq gec olacaqdı. Heydər Əliyev və XİN-in kollektivi tam tərkibdə bütün gecə səhərədək işlədi. Azərbaycan XİN-in bütün aparatı səfərbər olmuş, tapşırıq yerinə yetirilmiş və Heydər Əliyevin dəmir iradəsi sayəsində Azərbaycana qeyri-qanuni olaraq "sülhməramlı qüvvələr" adı altında xarici qoşunların yeridilməsinə gətirib çıxaracaq sənədin imzalanmasının qarşısı alınmışdı. Biz Budapeşt sammitinə belə mürəkkəb bir hazırlıqla gedirdik. Sonralar Heydər Əliyev Milli Məclisin iclasında bu hadisələr haqqında danışmışdı.

Həmin sammitə hazırlıq dövründə çox böyük iş görülmüşdü. Budapeşt sammiti BMT Təhlükəsizlik Şurasının mahiyyəti Dağlıq Qarabağın Azərbaycan Respublikasının bir bölgəsi olmasından, qoşunların bütün işğal olunmuş ərazilərdən təcili olaraq çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi zərurətindən ibarət olan müvafiq qətnamələrinə öz sadiqliyini təsdiqlədi. Budapeşt sammiti müəyyən etdi ki, silahlı münaqişəyə son qoyulması ilə bağlı siyasi razılaşmanın mahiyyəti "münaqişənin bütün tərəflər üçün əsas nəticələrinin aradan qaldırılmasıdır, bu, Minsk konfransının çağırılmasına imkan verəcək". Yəni Dağlıq Qarabağın statusu ilə bağlı məsələni həll edəcək Minsk konfransı yalnız silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasından sonra çağırıla bilər. Bundan əlavə, həmin sammit münaqişə zonasına yalnız ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yeridilə biləcəyini aydın şəkildə təsbit etdi, sülhməramlı

qüvvələrin formalaşdırılmasının hüquqi bazasını, onların yeridilməsi şərtlərini və qaydalarını müəyyənləşdirdi.

Budapeştdə irəli sürülən əsas şərt bundan ibarət idi ki, sülhməramlı qüvvələr "Atəşkəs rejimi haqqında saziş" bağlanandan sonra yox, "Silahlı münaqişənin dayandırılması haqqında" siyasi saziş imzalanandan sonra yeridilə bilər. Bunlar isə iki tamamilə fərqli vəziyyət idi. Əvvəllər nizamlanma prosesində yaranan məsələləri müstəqil şəkildə həll etməyə çalışan və özünü Minsk qrupuna qarşı qoyan Vladimir Kazimirov, nəhayət, İsveçin nümayəndəsi ilə birlikdə Minsk qrupunun həmsədri və kollektiv təşkilatın bir hissəsi oldu.

Həmin prosesin bəzi iştirakçıları 1994-cü ildə atəşkəsin təşəbbüskarının və vasitəçisinin kimliyi, həmin sənədin hansı status daşıdığı, "rəsmi", yaxud "qeyri-rəsmi" olduğu, sazişin məhz hansı tarixdə bağlandığı ilə bağlı, bizim fikrimizcə, mənasız "memuar mübarizəsi" aparırdılar, bu, bəzən elə indi də davam edir. Bunlar bizim üçün mühüm deyildi. Mühüm olan Budapeşt sammitinin arxasında nələrin dayandığı idi. Sülhməramlı qüvvələrin yerləşdirilməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasına gətirib çıxaracaqdı, yoxsa, əksinə, onların işğal olunmuş ərazilər üzərində nəzarət hüququnu qanuniləşdirəcəkdi? Əgər Budapeşt sammitindən əvvəlki hadisələrdə Heydər Əliyevin qəti iradəsi olmasaydı, orada taleyüklü qərarlar qəbul olunmazdı.

1996-cı il Lissabon sammitinə gəlincə, onun tarixçəsi Finlandiya xarici işlər nazirinin müavini Heikki Talvitienin





şəxsində Minsk qrupuna sədrlik edən Helsinkidən başlanmışdı. Minsk qrupunun üzvləri, Ermənistanın və Azərbaycanın nümayəndə heyətləri sammitə təqdim olunacaq sənəd layihəsini hazırlamaq üçün orada toplaşmışdılar. Təəssüf ki, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə nümayəndə heyətimiz bizim üçün məqbul olan sənədin hazırlanmasına nail ola bilməmişdi. Heydər Əliyev bu barədə məlumat alan kimi mənə təcili olaraq Helsinkiyə yola düşməyi tapşırdı. Mən gedib çatanda artıq Ermənistan nümayəndələri orada deyildilər. Səfərim Finlandiyanın xarici işlər naziri, dostluq münasibətləri qurduğum Tarya Halonen ilə görüşlə başladı. Mən ona münaqişə və onun nizamlanması ilə bağlı vəziyyət haqqında geniş məlumat verdim. Söhbətin sonunda sənədin hazırlanması prosesinin pozulmasına görə məsuliyyəti Heikki Talvitienin (söhbətdə onun özü də iştirak edirdi) üzərinə qoydum və fikrimi müşahidələrimlə möhkəmləndirdim. O, çaşqınlıq içində idi, lakin Tarya Halonen mənim dediklərimin hamısını anlayışla qarşıladı və Talvitieyə bizimlə birlikdə Azərbaycan tərəfi üçün məqbul olan sənəd hazırlamağı tapşırdı.

Ədalət naminə qeyd etməliyəm ki, Heikki Talvitie fikrini dəyişmiş və bizimlə birlikdə vicdanla çalışaraq sənədi hazırlamışdı. Eyni zamanda Tarya Halonen qeyd etmişdi ki, Minsk qrupunun rəhbərliyi imtina etsə, Finlandiya həmin sənədi öz adından təqdim edə bilər. Vəfa Quluzadə bu əhvalatla bağlı özünün məşhur "Düşmənlər və dostlar arasında" kitabında belə yazır: "Lissabon sammiti ərəfəsində Minsk

qrupunun işinə böyük əhəmiyyət verən Prezident Heydər Əliyev ovaxtkı xarici işlər naziri Həsən Həsənovu müvafiq təlimatlarla Helsinkiyə göndərdi, o da özünəməxsus çalışqanlıqla bizim maraqlarımıza uyğun gələn sənədin işlənib-hazırlanması üçün əlindən gələni etdi".

Bundan bir neçə il sonra Tarya Halonen Finlandiyanın Prezidenti, Heikki Talvitie isə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi oldu. Talvitie Harvard Universitetindəki çıxışı zamanı, yəqin ki, onunla və Finlandiyanın xarici işlər naziri ilə Helsinkidəki görüşümü xatırlayaraq demişdi: "Həsən Həsənovun açıq və səmimi danışıqlar aparmaq tərzi, sözün istər pis, istərsə də yaxşı mənasında, heç kəsi biganə qoymur. O, 1996-cı ilin payızında Finlandiyada səfərdə olub..."

Mən Bakıya həmin sənədlə qayıtdım və Heydər Əliyev onu təsdiqlədi. Finlandiya sənədi Lissabon sammitinin mənzilqərargahına təqdim etdi. Biz çox keçmədən ATƏT-in sammitinə yola düşdük. Sammitin yekun sənədləri hazırlanarkən (orada bütün sənədlər konsensusla qəbul edilir) Levon Ter-Petrosyan bizim Helsinki sənədinə veto qoydu. Bu bizim üçün gözlənilməz olmadı. Nümayəndə heyətimiz belə bir vəziyyətdə necə hərəkət etmək barədə müzakirə aparmağa başladı. Heydər Əliyev soruşdu:

– Yəni hər sənəd üçün konsensus lazımdır?

– Bəli, hamısı üçün.

– Amma vetonu bütün sənədlərə qoymaq da olar axı...





– Yox, bizi başa düşməzlər. Bu hamını bizim əleyhimizə yönəldər! – deyə orada olanlardan biri özünü "demokrat" kimi qələmə verməyə tələsdi, sanki kiminsə onu qabaqlayacağından ehtiyat edirdi.

Lakin bu təkcə onun rəyi idi. Nümayəndə heyətinin digər üzvləri məsələnin aydınlaşmasını gözləyirdilər. Əvvəlcə mən, ardınca da Vəfa Quluzadə Heydər Əliyevin qərarını dəstəklədik.

– O halda gedin və bildirin ki, Heydər Əliyev sammitin bütün sənədlərinə veto qoyur.

ATƏT rəsmiləri heyrət içində idi, onlar qəzəblənir, etiraz etməyə çalışırdılar, lakin onlara bildirdilər ki, bu məsələ müzakirə olunmur. Həmin gün axşam saatlarında sammit iştirakçıları üçün ziyafət verildi, səhər isə yekun iclası keçiriləcəkdi. Ziyafət zamanı o vaxt Rusiyanın xarici işlər naziri olan Yevgeni Primakov Azərbaycan Prezidentinə yaxınlaşaraq soruşdu:

– Heydər Əliyeviç, doğru addım atdığınıza əminsinizmi?

– Mən qərarımı vermişəm və haqlı olduğuma əminəm. Nə sözün varsa, Həsənova de.

Yevgeni Maksimoviçlə kənara çəkildik, Finlandiyanın xarici işlər nazirinə yaxınlaşdıq və yaranmış, sözün həqiqi mənasında, "ümumavropa siyasi böhranı"ndan çıxış yollarının müxtəlif variantlarını birlikdə nəzərdən keçirməyə başladıq. Axırda bir qrup ölkənin konsensus tələb etməyən birgə bəyanatı variantı üzərində dayandıq. Biz öz aramızda razılaşmışdıq, amma bunun keçib-keçməyəcəyinə əmin deyildik.

Mən ziyafətin sonunda təklif olunan variant haqqında Heydər Əliyevə məlumat verdim.

– Bizimkiləri topla, məsləhətləşək, – dedi.

Biz Heydər Əliyevin otağına toplaşdıq. Orada olanlara Yevgeni Primakov və Tarya Halonenlə müzakirələrimiz haqqında danışdım. Prezidentlə görüşdə iştirak edənlərin əksəriyyəti ATƏM-dəki prosedur məsələlərini yaxşı bilirdi və bizi inandırmağa çalışırdı ki, onlar heç vaxt belə bir şeyi istisna etməyiblər və indi də etməyəcəklər. Bununla belə, Heydər Əliyev qəti qərarını verdi və gecə sənədi tərtib edərək səhər təsdiq üçün ona təqdim etməyimizi tapşırdı. Bundan əlavə, mənə tapşırdı ki, Yevgeni Primakova zəng vurum, təfərrüata varmadan, səhər iclas başlamazdan əvvəl Heydər Əliyevə baş çəkməsini xahiş edim. Sonra isə əlavə etdi: "Sənəd Primakov gəlməmişdən əvvəl məndə olmalıdır".

Həmin sənəd tərkibinə Araz Əzimov, Tofiq Zülfüqarov və Vaqif Sadıqovun da daxil olduğu komandamız tərəfindən gecə ikən işlənib-hazırlandı. O, Ermənistan tərəfinin rədd etdiyi Helsinki sənədinə nisbətən daha məqsədəmüvafiq idi. Heydər Əliyev səhər tezdən bəyanatın layihəsi ilə tanış oldu və onu təsdiqlədi. Sonra Yevgeni Primakovla görüşdü və bildirdi ki, yalnız bu bəyanat ATƏT-in bütün üzv ölkələri tərəfindən qəbul ediləcəyi təqdirdə vetonu tətbiq etməyəcək. Yevgeni Maksimoviç ondan asılı olan hər şeyi edəcəyinə söz verdi və hərəkətə keçdi.

Səhər sammitin mənzil-qərargahında bizdən israrla soruşurdular ki, vetonu ləğv edəcəyikmi. Biz deyirdik: "Xeyr, Prezident





Əliyev fikrini dəyişməyib". Vəziyyətin ciddiliyini anlayan nümayəndə heyətləri rəhbərləri Heydər Əliyevlə danışmaq üçün, sözün əsl mənasında, növbəyə düzülmüşdülər. Bu görüşdən kimin nə gözlədiyini demək çətindir, amma, hər halda, onlar Prezident Əliyevi "sındıracaqlarına" ümid edirdilər. Lakin buna nə kiçik, nə də böyük ölkələrin nümayəndələri nail ola bildilər. Heydər Əliyev sonadək "hə" demədi. Nəticədə nümayəndə heyətlərinin rəhbərləri sonuncu fasilə zamanı məsləhətləşdilər və Heydər Əliyevi fikrindən döndərməyin mümkün olmadığını anlayaraq ATƏT-in üzvü olan 53 ölkə adından həmin bəyanatı qəbul etməyi qərara aldılar. Bəyanatda üç prinsip öz əksini tapmışdı: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Dağlıq Qarabağa Azərbaycan daxilində, sazişdə müəyyən edildiyi kimi, öz müqəddəratını təyinetmə prinsipinə əsaslanmış ən yüksək səviyyədə özünüidarəetmə hüququ verən Dağlıq Qarabağın hüquqi statusu; bütün tərəflərin nizamlanma müddəalarına əməl etməsini təmin edən qarşılıqlı öhdəliklər də daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Sammit başa çatdıqdan sonra Heydər Əliyev bütün komanda ilə şəkil çəkdirdi və gözlənilmədən hamını kollektiv şam yeməyinə dəvət etdi. Bu çox böyük təəssürat yaradan təsiredici bir vəziyyət idi. Belə deyim var ki, diplomatiyanın konstitusiyasını presedentlər təşkil edir. Zənnimcə, Lissabondakı "Əliyev presedenti" diplomatiyaya dair dərsliklərə salınmağa layiqdir.

***Bəs Levon Ter-Petrosyan daha sonra Lissabon sənədinin prinsipləri ilə razılaşmalı oldumu?***

Xeyr, o, Lissabon sənədinin prinsipləri ilə bu sözün hərfi mənasında razılaşmadı. Amma Lissabon sənədinin gücünü, daha doğrusu, Lissabon sənədinin təsiri altında formalaşan dünya ictimai rəyinin gücünü etiraf etdi. Bu ictimai rəy Ermənistanı təcrid vəziyyətinə saldı və böhran təhlükəsi ilə üz-üzə qoydu. Levon Ter-Petrosyanın danışıqlar masasına qayıtması asan deyildi. Qeyd etdiyim kimi, Lissabon sammitinin nəticəsi olaraq Ermənistan danışıqlar prosesindən çıxmışdı, ümid edirdi ki, bu halda onunla daha çox hesablaşacaqlar. Biz isə bundan istifadə edərək bütün istiqamətlərdə (mətbuatda, çoxsaylı ikitərəfli görüşlərdə və beynəlxalq forumlarda) fəallığımızı xeyli artırdıq və beynəlxalq ictimai rəydə əhəmiyyətli üstünlük əldə etdik. Lissabon sənədinin müddəaları ilə tanış olan dünya ictimaiyyəti münaqişənin nizamlanması üçün Azərbaycanın təklif etdiyi şərtlərin müasir dünya tələblərinə tamamilə uyğun olduğunu gördü. Ermənistan təcrid olunmuş vəziyyətdə qaldı. Fransanın xarici işlər naziri Erve Deşare o vaxt çox səy göstərdi və bunun nəticəsində Ermənistan danışıqlar masasına qayıtdı. Levon Ter-Petrosyan məhz bu şərtlərdə vəziyyəti real qiymətləndirdi və Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı yeni konsepsiya irəli sürdü. O bu barədə ilk dəfə 1997-ci il oktyabrın 11-də Strasburqda, biz Avropa Şurasına üzv ölkələrin sammitində olduğumuz zaman məlumat verdi. Orada Heydər Əliyevin Levon Ter-Petrosyanla





çox məhdud çərçivədə, mənim də iştirakımla söhbəti oldu. Ter-Petrosyan dedi ki, münaqişənin həllinin birinci mərhələsi kimi işğal olunmuş rayonları qaytarmaq qərarına gəlib, eyni zamanda sonralar "Nezavisimaya qazeta"da dərc olunmuş məşhur məqaləsində yazdığı bütün fikirləri bizə söylədi. Elə orada, kabinetdə, məhdud çərçivədəki görüşdə mənə birgə bəyanat hazırlamaq tapşırıldı, əldə olunmuş razılıqlar həmin bəyanatda örtülü şəkildə öz əksini tapmışdı. Mən onu mətbuat üçün oxudum. Sonralar çoxları soruşurdular ki, bu, mətbuat katibinin işi olduğu halda, həmin bəyanatı niyə məhz mən oxuyurdum. Təbii ki, hər şeyin öz vaxtı olduğunu fikirləşərək hansısa izahat vermədim. Lakin bir neçə gündən sonra Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sammitdə iştirakının yekunları ilə bağlı çıxışımda bu barədə ətraflı danışdım. Özümü təkrarlamamaq üçün həmin çıxışımdan bütöv bir sitat gətirirəm: "Qeyd etmək lazımdır ki, Azərbaycan Minsk konfransının həmsədrlərinə sammitin başlanması ərəfəsində onların münaqişənin iki mərhələdə həlli ilə bağlı son təkliflərini dəstəklədiyini rəsmən bəyan edib. Birinci mərhələdə Azərbaycanın işğal olunmuş altı rayonundan Ermənistan silahlı birləşmələrinin çıxarılması, qaçqınların öz yaşayış yerlərinə qayıtmasının təmin edilməsi, müharibə nəticəsində dağılmış bütün rabitə vasitələrinin bərpası; ikinci mərhələdə isə Azərbaycanın Laçın və Şuşa rayonlarının azad edilməsi ilə birlikdə Dağlıq Qarabağın statusu məsələsinin həll edilməsi nəzərdə tutulur. Hər iki prezidentin fikrinə görə, həmsədrlərin

münaqişənin ikimərhələli həlli ilə bağlı son təklifləri danışıqların Minsk qrupu çərçivəsində bərpası üçün ümidverici bünövrədir və onlar bu münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şərtilə münaqişənin nizamlanması işində real irəliləyişə nail olmağa imkan verəcək. Xüsusilə qeyd etmək lazımdır ki, münaqişənin nizamlanmasının ikimərhələli formulu ilə bağlı hər iki prezidentin mövqeyinin üst-üstə düşməsi ümidverici amildir".

Deyilənə görə, Levon Ter-Petrosyan özünün mövqeyini açıqlayandan sonra müdafiə naziri Serj Sarkisyan və baş nazir Robert Köçəryan onun yanına girib deyiblər ki, qarşısında iki yol var: ya könüllü olaraq hakimiyyətdən gedir və onun həm həyatı, həm də təhlükəsizliyi təmin edilir, ya da hakimiyyətdə qalır və bu zaman nə onun, nə də ölkənin təhlükəsizliyinə təminat verilmir. Beləliklə, Ter-Petrosyanın ona baha başa gələn həmin qərarı Lissabon sammitinin və bir daha təkrar edirəm ki, Levon Ter-Petrosyanın vəziyyəti real qiymətləndirməsinin nəticəsi idi. Zaman göstərdi ki, tarixin məhz həmin dövründə Ter-Petrosyan haqlı idi.

***Siz Heydər Əliyevin dünya liderləri ilə danışıqlarının hamısında iştirak etmisiniz. Onun ünsiyyət tərzini necə səciyyələndirərdiniz: müdafiə, hücum, yoxsa diplomatik xarakterli idi?***

Siz sualı "müdafiə, yoxsa hücum" kimi bölgü əsasında qoyursunuz. Bu cür kateqorik bölgü yox idi, ünsiyyət özündə





eyni zamanda həm müdafiə, həm hücum əlamətləri daşıyırdı. Hər şey vəziyyətdən asılı olurdu. Fərqi yalnız onu yaxından tanıyan şəxslər hiss edə bilərdilər. Mən onun ünsiyyətində müxtəlif tərzlərin şahidi olmuşam. Üz-üzə görüşlər başqadır, komandanın komanda ilə görüşləri bir başqa, yoldaşlıq, yaxud işgüzar şam yeməyi, səhər yeməyi və s. daha fərqli. Bu zaman yalnız danışıq tərzi dəyişmir, etibar, səmimiyyət dərəcəsi də dəyişir. O, həmişə harada nə deyəcəyini bilirdi. Azadlıq və sərbəstliyə gəlincə, o özünü həmişə rahat hiss edirdi. Bu, zahirən özünü göstərməyə də bilərdi. Məsələn, özünü Bill Klintona, Fransua Mitterana, yaxud Helmut Kola göstərməyə, "baxın, mən beləyəm" deməyə ehtiyac yox idi.

***Bəs siz öz tərzinizdə Heydər Əliyevdən nə götürmüsünüz və bu illər ərzində ondan nə öyrənmisiniz?***

Sovet dövründə Heydər Əliyev respublikanın rəhbəri seçiləndə Azərbaycan ölkənin ən geridə qalmış iqtisadiyyata malik respublikalarından biri idi, çoxlarında bir çarəsizlik hissi vardı, xalqımızın qismətinin belə olduğunu düşünürdülər. O zaman Heydər Əliyev bir sıra prinsiplər irəli sürdü, onların arasında nöqsanlarla barışmazlıq, hər cür haqsızlığa qarşı mübarizə mənalarını ifadə edən "fəal həyat mövqeyi", "prinsipiallıq" anlayışları da var idi. Görünür, mən təbiətimə görə belə bir üsluba meyilli idim, ona görə də Heydər Əliyevin qaydalarını özümə doğma bilirdim. Mən vicdanlı bir şagird kimi müəllimimdən öyrənməyə çalışırdım. Yəqin ki, xarakterimdə

iş üslubu, davranış tərzi, ünsiyyət metodu, məsələlərin həlli ilə bağlı fərdi xüsusiyyətlər əvvəldən var idi, amma onlar Heydər Əliyevlə fəal ünsiyyət prosesində real şəkildə təcəssüm edirdi. Mən Sovet İttifaqının rəhbər orqanlarında da özümün və respublikamızın hüquqlarını müdafiə etməkdən heç vaxt çəkinməmişəm, baxmayaraq ki, bu, bəzən karyeramın pozulmasına səbəb olurdu. Məsələn, Moskvanın təzyiqi ilə "millətçi siyasət"ə (milli tarixə və mədəniyyətə marağıma) və "dini dəyərlərin təbliği"nə (memarlıq abidələri adı altında məscidlərin bərpasına marağıma) görə Azərbaycan KP MK-nın ideoloji məsələlər üzrə katibi vəzifəsindən azad olunmuşdum. Məni həmin yüksək siyasi vəzifədən "tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri" vəzifəsinə keçirmişdilər. Mən həmin vəzifədə vicdanla çalışırdım. Yaxşı ki, ötən əsrin 30-cu illəri deyildi, mənə "ölüm cəzası" verilmədi, beynəlmiləlçiliyin müdafiəçiləri isə yalnız iş yerimi dəyişdirməyə nail ola bildilər.

Sovet rəhbərliyinin Qarabağ münaqişəsi ilə bağlı siyasətinə tənqidi münasibətim haqqında, yəqin ki, mənim 1990-cı il yanvarın 8-də Bakıda, iyulun 5-də Sov.İKP-nin XXVIII qurultayında, avqustun 20-də SSRİ hökumətinin iclasında etdiyim çıxışlardan, SSRİ ədliyyə naziri Sergey Luşşikova ünvanladığım 18 fevral 1991-ci il tarixli məktubdan, nəhayət, Mixail Qorbaçovla münaqişələrimdən bilirsiniz. Nyu-Yorkdakı gənc diplomat həmkarlarım mənim iş üsulumu "ənənəvi diplomatik rels"ə salmağa çalışırdılar. Lakin onlar nəinki buna nail ola bilmədilər, sonra özləri də tənqid etdikləri metodu





fəal şəkildə tətbiq etməyə başladılar. Mən onlara izah etməyə çalışırdım ki, xarici siyasət daxili siyasətin birbaşa inikasıdır, biz isə təcavüzə uğramış bir ölkəni təmsil edirik, ona görə də hüquqlarımızı diləməli deyilik, onlara hörmətlə yanaşılmasını tələb etməliyik. Bəli, mən bəzən sərt oluram. Amma bu mənim əhvalımdan, yaxud insanlara münasibətimdən deyil, vəziyyətdən və ölkəmin maraqlarına hörmətsiz, yaxud qərəzli yanaşan məmurların davranışından irəli gəlir.

BMT-də, necə deyərlər, qeyri-ənənəvi diplomatik üsluba malik bir çox daimi nümayəndələr var idi. BMT Təhlükəsizlik Şurasında çalışan, çoxlarının nəinki bizim problemlərimiz, hətta Azərbaycanın özü haqqında aydın təsəvvürə malik olmadığı bir şəraitdə bizi açıq şəkildə müdafiə edən tərəfdaşlarım Madlen Olbraytı (ABŞ), Dieqo Arrianı (Venesuela), Andre Erdoşu (Macarıstan), Camşid Markeri (Pakistan) və başqalarını da onların sırasına aid etmək olar.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heikki Talvitie 2005-ci il oktyabrın 21-də Harvard Universitetində çıxışı zamanı mənim 1996-cı ildə, Lissabon sammiti ərəfəsində Finlandiyaya səfərimi xatırlayaraq üslubumu *"straightforward negotiation style"* kimi qiymətləndirmişdi, bu isə tərcümədə "düz, açıq, səmimi danışıqlar tərzi" mənasını verir. O, haqlıdır. Diplomatik üslubum bu tərzdə olmasaydı, Heikki Talvitie hələ Helsinkidə mənim ora səfərim zamanı ermənilərin bizim üçün faydalı nəticələri ilə veto qoyduğu Lissabon sammitinin qətnaməsinin layihəsini hazırlamazdı. Eləcə

də Valentin Lozinski "Azərbaycanın protektoratı altında olan Dağlıq Qarabağ" ifadəsini "Azərbaycanın Dağlıq Qarabağ bölgəsi" ifadəsinə dəyişdirməzdi. Əgər Ermənistanın təcavüzkar siyasətini geniş işıqlandırmaq sahəsində ifrat fəallığım olmasaydı, BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunmaz, Ermənistanın xarici işlər naziri Vaqan Papazyan mənim "sui-istifadələrim"lə bağlı BMT Təhlükəsizlik Şurasına məktub ünvanlamazdı.

Həyatımda fəal, açıq mövqeyimin karyeramı təhlükə altında qoyduğu hallar çox olub, amma bunlar mənim qarşımı kəsə bilməyib. Məsələn, Sovet İttifaqının Türkiyədəki səfiri mənim Azərbaycanın müstəqilliyinin tanınması ilə bağlı Türkiyə hökuməti ilə əldə etdiyim razılıq haqqında Mixail Qorbaçova məlumat vermişdi. Sovet İttifaqı onda hələ dağılmamışdı. Qorbaçov qəzəblənib məni cəzalandırmaq istəyirdi, amma buna macal tapmadı. BMT baş katibinin müavini Vladimir Petrovski fəallığımdan xoşu gəlmədiyinə görə mənim BMT-dən geri çağırılmağım haqqında məsələ qaldırmış, Rusiya hökuməti sədrinin müavini Valeri Serov bilavasitə yüksək səviyyəli görüş zamanı mənim Qəbələ RLS məsələsi ilə bağlı danışıqlardan kənarlaşdırılmağım haqqında məsələ qoymuş, MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri Andrey Nikolayev isə şikayət etmişdi ki, Həsənov Azərbaycan sərhədlərinin mühafizəsinin MDB Sərhəd Qoşunları İdarəsinə verilməsini ləngidir.

Mən eyni zamanda bu fəallığın hüdudlarını da aydın təsəvvür edirəm. Belə olmasaydı, 822 saylı qətnamənin bəzi





ifadələri ilə razılaşmaz, nəticədə ondan sonra qəbul edilən 853 saylı qətnamədə daha əlverişli ifadələrin yer almasına nail ola bilməzdim. Bəli, bütün bunlar olub və mənim fəal mövqeyimə görə olub, lakin hərəkətlərim bircə dəfə də hansısa şəxsi marağa hesablanmayıb, milli maraqlara xəyanət məqsədi daşımayıb, əksinə, onların müdafiəsinə xidmət edib. Həmişə, elə indi də söhbət milli maraqlardan gedəndə opponentlərimdən öz ünvanıma tərifli yox, tənqidi qiymət eşitməyə üstünlük verirəm. Təkrar edirəm ki, özüm də bu cür üsluba meyilli idim, amma öyrənməli olduğum şəxs də vardı. Həm də mənim taleyimi çox vaxt Heydər Əliyev həll edirdi.

***O, komandasının üzvlərində daha çox nəyi qiymətləndirirdi, onlardan ilk növbədə nə tələb edirdi? Heydər Əliyev özünü harada daha rahat hiss edirdi? O, 90-cı illərdə, yaşlı vaxtlarında da sağlamlığına fikir vermirdi, halbuki saatlarla davam edən təyyarə uçuşları, məruzələri, çıxışları, müsahibələri olurdu. O hətta xarici ölkələrə özü ilə həkim də aparmırdı – bu bizi həmişə təəccübləndirirdi. Siz onunla bu barədə danışırdınızmı?***

Heydər Əliyev üçün həm fiziki, həm də intellektual baxımdan ən başlıca cəhətlər, şübhəsiz ki, münasibətlərdə səmimilik, komanda üzvlərinin çalışqanlığı və səriştəsi idi. O, heç yerdə rahatlıq axtarmırdı. Bilirsiniz ki, o hər şeydə, o cümlədən də qidalanma məsələsində çox mütəvazi və iddiasız idi. Qəbul edən tərəf nə yemək, hansı yeməyin dadına baxmaq istədiyini

soruşanda cavab verərdi ki, onun üçün fərqi yoxdur. Birinci dəfə Fransaya rəsmi səfərə yola düşəndə Heydər Əliyevə izah etdim ki, bu, beynəlxalq protokol qaydasıdır, xarici ölkəyə özü ilə şəxsi həkim aparmasa, bizi yanlış anlaya bilərlər. Növbəti dəfə xarici ölkəyə rəsmi səfərə yollananda dedi:

– Sən keçən dəfə məni özümlə həkim aparmağa məcbur etdin, bir də belə eləmə. Bu mənə lazım deyil. Əgər başqa biri xəstədirsə, onda bizimlə getməsin.

Onun üçün rahatlıq iş şəraitində idi. Bir dəfə İspaniyada idik. Proqrama görə orada bir saniyə belə fasilə yox idi. Bir dəfə hansısa görüş alınmadığından, ya da başqa bir səbəbdən, haradasa 45 dəqiqəlik, ya da birsaatlıq fasilə yarandı. O məndən soruşdu:

– Sən proqramı niyə bu cür tərtib etmisən?

– Eybi yoxdur, cənab Prezident, bir az oturub dincələrik.

– Mən dincəlmək istəmirəm. Yaxşısı budur, bir şey fikirləş.

Mən artıq nə edəcəyimi bilirdim, dəhlizə çıxıb jurnalistləri topladım. Prezident onların yanına çıxanda zarafatla dedi ki, Həsən Həsənov proqramı yaxşı tərtib etməyib, düz birsaatlıq boşluq yaranıb, mən də onu sizə həsr etmək istədim. Beləliklə, o, boş vaxt şəklində rahatlığı sevmirdi, özü ilə həkim aparmırdı, amma çoxlu jurnalist aparır və onlarla söhbət etməyi xoşlayırdı. Xasiyyətini yaxşı bildiyim üçün bəzən onun mümkün cavablarını, reaksiyasını əvvəlcədən təxmin edirdim. Ona görə də artıq suallar vermir, məsələn, istirahət üçün də vaxt ayırmaq lazım olduğunu demirdim. Əksinə, prezidentin





təkidi ilə bütün proqram onun qeyri-adi dözümlülüyü nəzərə alınaraq tərtib edilirdi.

***Heydər Əliyev qərarları necə qəbul edirdi: təkbaşına, yoxsa kollektiv şəkildə?***

Məsələ burasındadır ki, Heydər Əliyevin həyatının böyük hissəsi təkbaşına vəzifədən çıxarmaq, yaxud vəzifəyə təyin etmək səlahiyyətlərinin mövcud olmadığı, hər şeyin kollegial şəkildə edilməli olduğu sosializm cəmiyyəti şəraitində keçmişdi. Əslində, sosializm sözünün özü məhz latınca "sosium" sözündən olub "cəmiyyət" mənasını verir. Sovet sosialist cəmiyyəti şəraitində hər kəs hamıya cavabdeh idi. Yadımdadır ki, hətta məktəbdə sinif nümayəndəsi olduğum zaman hər kəsdən: "Sən nə üçün dərsini öyrənməmisən, dünən niyə dərsə gəlməmişdin (müxtəlif variantlar ola bilərdi)", – deyə soruşurdum. İndi bunların heç biri yoxdur.

Kadr məsələlərini təkbaşına həll etmək hüququ prezident respublikası şəraitində yaranmışdı. Bununla belə, Heydər Əliyev istər kadrlar məsələsində, istərsə də ictimai əhəmiyyətli məsələlərdə təkbaşına qərar verə bildiyi hallarda da qərarları kollegial şəkildə vermək hissini qoruyub saxlayırdı. Bəzən bizi bir yerə toplayır, bəzən də hər birimizlə təkbətək danışırdı. Üstəlik bəzən məsləhətə həqiqətən ehtiyacı olurdu, digər hallarda isə ya məsələni "götür-qoy edir", ya da, sadəcə, bu və ya digər məsələnin həllindəki reaksiyaları müşahidə edirdi. Yəni prezidentlik Heydər Əliyevə məsələni

təkbaşına həll etmək səlahiyyəti versə də, onda kollegiallıq hissi də qalırdı.

İndi belə hesab edirlər ki, kollektiv rəyin ən yüksək forması referendumdur. Amma, mənim fikrimcə, referendumda hər kəs fərdi qaydada qərar qəbul edir. Referendum fərdi rəylərin toplusudur. Kollegiallıq isə səlahiyyətli şəxslərin birlikdə oturub öz fikirlərini səsləndirmək, əks fikirləri dinləmək və müzakirə aparmaq imkanıdır. Yəqin ki, bu səbəbdən Heydər Əliyev referenduma gedəndə də Azərbaycanın dövlət dili məsələsində olduğu kimi əvvəlcədən kollektiv müzakirələr aparılmasını lazım bilirdi. Bizim ziyalıların bəzi nümayəndələri Konstitusiyada dilimizin "türk dili", yaxud "azəri türkcəsi" kimi təsbit olunması təklifi ilə çıxış edirdilər. Mən o zaman Gəncədə idim. Heydər Əliyev zəng vurub dedi ki, dövlət dili məsələsinin müzakirəsi olacaq, mən də təcili olaraq Bakıya gəlim. Mən elm adamlarının, yazıçıların, ictimai xadimlərin iştirak etdiyi həmin görüşdə öz fikrimi bildirdim və dedim ki, hər dilin öz adı və soyadı var. Biz "türk dili" soyadından imtina etmirik, amma adımız "türk dili" deyil, "Azərbaycan dili"dir. Necə ki rus xalqının dilinin adı "rus dili", soyadı "slavyan dili", fransızların dilinin adı "fransız", soyadı "roman dili"dir. Hətta ingilis dilinin soyadı da "german dili"dir. Heydər Əliyev danışmaq istəyən hər kəsə, o cümlədən çox aqressiv olanlara da söz verdi. Yalnız hər kəs "lehinə" və "əleyhinə" fikir söylədikdən və bütün bunlar televiziya ilə göstərildikdən sonra məsələ referenduma çıxarıldı.





***Siz Azərbaycanın kommunist rəhbəri Heydər Əliyevlə işləmisiniz. Ötən əsrin 90-cı illərində o, kommunist ideologiyasından imtina edən və tamamilə fərqli yol tutan müstəqil Azərbaycanın Prezidenti oldu. Necə bilirsiniz, bu ideoloji sədləri aşıb keçmək Heydər Əliyev üçün asan idimi?***

1994-cü ildə Londonda, Heydər Əliyevin şərəfinə verilən ziyafətlərin birində Britaniya hökumətinin ikinci şəxsi Maykl Hezeltayn sağlıq demək üçün ayağa qalxdı. O, sözünə qeyri-adi şəkildə başladı: "Cənab Prezident, mən ömrümün çox hissəsini sizinlə mübarizəyə həsr etmişəm. Biz sizin hamınızı, o cümlədən şəxsən sizi məhv etmək istəyirdik". O, dediklərinin təsirini yoxlamaq üçün sözünə ara verdi – orada iştirak edənlər susurdular. Sonra sözünə davam etdi: "Axı siz Siyasi Büronun üzvü idiniz. Sizin hamınızı düşmənimiz hesab edirdik". O, yenə fasilə verdi, nəhayət, sağlığını bitirdi: "İndi isə, gördüyünüz kimi, mən qədəhi sizin sağlığınıza qaldırıram". Və zarafatla əlavə etdi: "Allaha şükür edirəm ki, nə yaxşı, biz o vaxt məhz sizi məhv etməmişik".

Yəni Heydər Əliyevin Siyasi Büronun üzvü olduğunu, əvvəllər fərqli baxışlara, fərqli iş üslubuna malik olduğunu, barrikadanın əks tərəfində dayandığını bildiklərinə baxmayaraq, yeni şəraitdə onu, sadəcə, normal deyil, bəzi hallarda hətta özlərinin keçmiş məsləkdaşı kimi qəbul edirdilər. Əgər yüksək vəzifəyə qayıdışının ilk günlərində Heydər Əliyevə DTK generalı, hərbi hadisələrin dalğası ilə hakimiyyətə gəlmiş keçmiş

Siyasi Büro üzvü kimi yanaşırdılarsa, tezliklə bütün bunlar öz aktuallığını itirdi və arxa plana keçdi. Ona görə yox ki kimsə onu təbliğ etməklə, tanıtmaqla məşğul idi. Bütün bu müsbət dəyişikliklər onun özü ilə ünsiyyət prosesində, onun aurası, ağlı, xarizması sayəsində baş verirdi. Onunla ünsiyyət, onun mülahizələri, mövqeyi, davranışı bütün gərginliyi aradan qaldırırdı.

Dünyanın aparıcı siyasətçiləri Heydər Əliyevlə görüşərkən sovet dövrünə aid mövzulara, demək olar ki, toxunmurdular. Onun hakimiyyətə qayıdışının lap əvvəllərində müşahidə olunan narahatlıqlar ən qısa müddətdə aradan qalxmışdı. 1993-cü il oktyabrın 10-da xalq tərəfindən prezident seçiləndə istisnasız olaraq bütün dünya liderləri Heydər Əliyevi bir tərəfdaş kimi təbrik etdilər. Ona ünvanlanmış bütün təbrik teleqramlarını oxumaq şərəfi prezidentin təklifi ilə mənə verilmişdi. Buna görə də onu təbrik edənlərin bütün siyahısını çox yaxşı xatırlayıram. Beləliklə, Heydər Əliyevin köhnə ideoloji sədləri nə dərəcədə aşa bildiyi dünyanın aparıcı siyasətçilərinin ona olan münasibətindən görünür.

### *Bəs onun özü Sovet İttifaqı üçün darıxırdımı?*

Yuri Vladimiroviç Andropov ölüm ayağında olanda SSRİ-nin rəhbəri vəzifəsinə mümkün namizədlər həm ölkədə, həm də onun xaricində fəal şəkildə müzakirə olunurdu. Ən çox ehtimal olunan namizədlər sırasında Heydər Əliyevin də adı çəkilirdi. Mən özüm 1983-cü ildə Antverpendə olanda





televiziyada belə bir verilişi görmüşdüm. Vəfa Quluzadə həmin hadisələri xatırlayanda belə deyirdi: “Cənab Prezident, yaxşı ki, siz o vaxt baş katib seçilmədiniz. Siz sovet hakimiyyətini möhkəmləndirərdiniz və o, heç vaxt dağılmazdı”.

Həm də onunla o cür amansız və ədalətsiz davranan bir dövr üçün necə təəssüflənə və darıxa bilərdi? O, yeni şəraitdə, müstəqil Azərbaycan dövlətçiliyini qurmaq iqtidarında olduğunu hiss etdiyi bir zamanda keçmiş üçün təəssüflənə bilməzdi. Amma, təbii ki, həmin keçmiş cəmiyyətin sosial istiqamətli olması müəyyən nostalji hissi yaradır. Sosializm və onun idealları özlüyündə müsbət hal idi. Dövlətin öz vətəndaşlarının qayğısına qaldığı, pulsuz səhiyyə, təhsil, sosial müdafiə və s. təminatlar verdiyi bir cəmiyyət, şübhəsiz ki, müsbət haldır. Ona görə də qiymətləndirmələri fərqləndirmək lazımdır. Sosialist cəmiyyətinin dəyərlərini qiymətləndirmək bir şeydir, dövləti bir sistem, bir rejim kimi qiymətləndirmək başqa şey. Leninçi-stalinçi rejim şərtlərində (həyatımızın böyük hissəsi məhz o şəraitdə keçib) sosializmin əldə etdiyi kontekst, şübhəsiz ki, “sosialist pozitivliyi” ilə yanaşı, bir sıra elm adamlarının “kazarma sosializmi” adlandırdığı sistem haqqında mənfi təəssürat da yaradır.

### *Heydər Əliyevin sovet dövründəki və 90-cı illərdəki iş üslubu, idarəçilik metodları hər hansı şəkildə fərqlənirdimi?*

Heydər Əliyev öz iş qabiliyyətinə və iş üslubuna görə əvvəlki kimi idi. Heydər Əliyev Moskvaya gedəndə Siyasi Büro üzvlərinin ona qarşı, yumşaq desək, ehtiyatlı, dəqiq desək,

mənfi münasibət göstərməsinin əsas səbəbi onun yorulmazlığı və çalışqanlığı idi. Onun axşam saat 9-10-dək işləməsi, şənbə günlərində işə çıxması 80-ci illərin sovet rəhbərləri üçün ənənəvi hal deyildi. Heydər Əliyev o vaxt SSRİ Nazirlər Sovetinin xüsusilə mühüm məsələlər üzrə komissiyasına rəhbərlik edirdi və çox tələbkar idi. Bu keyfiyyət onda sonralar da qalmışdı. Məqsədlər deyil, yalnız dəyərlər dəyişmişdi. Sovet quruluşunun özünəməxsus dəyərləri vardı, məsələn, dinə, xüsusi mülkiyyətə mənfi münasibət, milli maraqların zərərinə olan beynəlmiləlçilik və s. Təbii ki, həmin dəyərlər onun üçün öz aktuallığını itirmişdi, amma onun iş üslubu dəyişməmişdi. O, yenə də tələbkar idi və əvvəlki kimi qeyri-adi iş qabiliyyətinə malik idi.

***Onun asudə vaxtı yolda necə keçirdi, sizinlə işdən başqa nədən danışırdı?***

O, boş vaxtlarında zarafat etməyi, gülməyi çox sevirdi. Uğurlu zarafata çox cəld reaksiya verirdi. Yanında bu cür əhvali-ruhiyyəni saxlayan uğurlu bir tərəfdaş olanda özünü xüsusilə rahat hiss edirdi. Nadir hallarda yaranan boş vaxtlarında mənim marağımı bildiyi üçün Azərbaycanın tarixi, qədim mədəniyyəti haqqında söhbət salırdı. Qarabağın tarixi haqqında daim özü üçün yeni olacaq nəsə bir şey öyrənməyə çalışırdı. Eyni zamanda məni düz başa düşün, o daha çox iş barədə fikirləşirdi. Prezident kimi gecə saat üçdə də mənə zəng edə bilərdi. Həm də əvvəl soruşurdu: "Yatmırsan?" Yatsaydım





belə, deyirdim: "Xeyr". Onda soruşurdu: "Niyə?" Mən nəsə bir şey fikirləşirdim, amma daha çox: "Məktublara baxıram", – deyirdim. "Onda qulaq as", – deyirdi və gündüz vaxt ayıra bilmədiyi hansısa aktual mövzudan söhbət açırdı. O, gecələr də hansısa mühüm məsələlər haqqında fikirləşir, onların həll yollarını götür-qoy edirdi.

***Bir rəhbər kimi onun xarakterinin hansı cəhətini ayrıca qeyd edərdiniz və sizin fikrinizcə, bu qeyri-adi insanın uğurunun sirri nədə idi?***

Strateji əhəmiyyətli istiqaməti müəyyən etmək, problemlərin iyerarxiyasını qurmaq, açıq danışıq tərzini diplomatik incəlik elementləri ilə birləşdirmək bacarığını... Heydər Əliyev kimisə qəbul etdiyi zaman ilk dəqiqələrdə onu diqqətlə və səssizcə dinləyirdi, hətta müsahibi nəyi deyib-demədiyindən şübhələnməyə başlayırdı. Bir maraqlı əhvalat danışım. Avropa Şurasından nümayəndələr gəlmişdilər. Adətən, qonaqları əvvəl mən qəbul edər, sonra ona zəng vurar və kimin nə dediyi haqda danışardım və o, söhbətə hazır olardı. Avropa Şurasının funksionerləri Azərbaycandakı vəziyyətdən, onların tövsiyələrini necə həyata keçirməyimizdən narazı idilər. Söhbət bizi Avropa Şurasına qəbul edib-etməməkdən gedirdi. Prezidentin yanına getdik. Dedi ki, sizi dinləyirəm. Onlar XİN-də mənə dediklərini təkrarladılar.

– Yaxşı, – Heydər Əliyev dedi, – sizi başa düşdüm. Deyirsiniz ki, biz Avropa Şurasına daxil olmağa hazır deyilik. Mən də

belə hesab edirəm. Əgər bizə belə qiymət verirsinizsə, Avropa Şurasına daxil olmağımıza ehtiyac yoxdur.

Bu, avropalı qonaqlar üçün tam iflas demək idi. Onlar bizim şuraya daxil olmaq məsələmizi həll etmək üçün gəlmişdilər. Nümayəndə heyəti üzvlərinin üz ifadələri dəyişdi, üzr istəməyə başladılar: "Siz bizi yanlış anladınız, elə demək istəmirdik..." və s. və i.a. Nəticədə söhbət başqa məcrada davam etdi. Onun ehtiyatında həmişə çoxlu variantlar olurdu və məsələni məhz həmin məqama uyğun həll etmək üçün ən doğru variantı seçə bilirdi. Onun uğurunun səbəblərindən biri də bu idi. Bəzi insanların xarizması söhbət, ünsiyyət zamanı ortaya çıxır, Heydər Əliyev isə susanda belə xarizmatik idi. Deyirlər, xarizma anlayışı o qədər əhatəlidir ki, əlavə təyinlər tələb etmir, amma mən yenə də onun ən parlaq xarizmaya malik olduğunu qeyd etməliyəm. Mənim danışdıqlarım Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli lideri kimi qəbul etməyə əsas verən keyfiyyətlərin yalnız kiçik bir hissəsidir.



# HEYDƏR ƏLİYEVİN DİPLOMATİYASI

*Təqdim olunan bu oçerk 1996-cı ildə nəşr edilən "Dünya diplomatiyası" adlı Azərbaycan diplomatiya məktəbi toplusuna yazılmış ön sözdür. Heydər Əliyevin fəaliyyəti müstəqil Azərbaycanın diplomatiya ənənələrinin formalaşmasının əsasını təşkil edir, həmin kitabda da bu barədə danışılır. Oxucu mənim tanınmış publisist, Xalq yazıçısı Elmira Axundova ilə müsahibəmdən də, bu topluya daxil edilən söhbətlərimdən də Heydər Əliyevin diplomatiyası haqqında çox şey öyrənə bilər.*

*Mən Azərbaycanı diplomatiya əyalətindən dünya siyasətinin mərkəzinə daşımağı bacaran Heydər Əliyevin diplomatik üslub və məharətinin şəxsən şahidiyəm.*

*Son iyirmi ildə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın diplomatik təcrübəsi yeni səviyyəyə yüksəlib. Ən əhəmiyyətli hadisə isə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsidir. Əgər Azərbaycan diplomatiyasının birinci, ilkin mərhələsini "Dünya Azərbaycanı tanımalıdır, tanımağa borcludur" formulu ilə qiymətləndirmək olarsa, diplomatiyamızın indiki*

*mərhələsini tam mənası ilə "Dünya Azərbaycanın problemləri və nailiyyətləri ilə hesablaşmalıdır" formulu əsasında dəyərləndirmək mümkündür. Bu iki mərhələ bir-biri ilə üzvi surətdə bağlıdır. Prezident İlham Əliyevin son iyirmi ildəki dövlətçilik fəaliyyəti iqtisadiyyat və xarici siyasət sahəsində uğurlara zəmin yaratdı – dünya bununla hesablaşmaya bilməzdi. Nəticədə Prezident İlham Əliyevin şəxsi diplomatik fəaliyyəti Azərbaycan həqiqətlərini və ölkəmizə qarşı ədalətli münasibətin zəruriliyini dünyaya çatdırdı.*

Azərbaycan diplomatiyasının əsas xüsusiyyətlərindən biri bundan ibarətdir ki, o bütün tarixi boyu sülhsevər, tolerant xarakterli olması ilə seçilib. Azərbaycan diplomatiyasının keçmişinə nəzər saldıqda görürük ki, tarixin, ilk növbədə ölkənin mühüm geosiyasi mövqeyindən irəli gələn bütün eniş-yoxuşlarına baxmayaraq, Azərbaycan hökmdarları daim regional sabitliyə, dövlətlərin maraqlarının tarazlığına nail olmağa, bütün mübahisəli məsələləri ədalətlə həll etməyə, bütün münaqişələrin həllində başlıca şərtin sülh olduğu bir siyasət yürütməyə çalışıblar. Azərbaycan tarixi eramızdan əvvəl III-II minilliklərə – ilk dövlət nümunələrinin yarandığı vaxtlara gedib çıxan, qədim və inkişaf etmiş dövlətçilik ənənələrinə malik ölkədir. Azərbaycan diplomatiyasının ilk cücərtiləri də həmin dövrdə yaranıb. Qədim dünyanın siyasi,





iqtisadi və mədəni mərkəzlərinin birində – İkiçayarası ərazidə cərəyan edən coşqun siyasi hadisələrə cəlb olunan ilk Azərbaycan dövlətləri yarandıqları vaxtdan başlayaraq müstəqilliklərini qoruyub saxlamaq uğrunda mübarizə aparmalı olub. Məhz belə bir vəziyyət xarici siyasətin özünəməxsusluğunu, ikitərəfli sazişlərin, hərbi və iqtisadi ittifaqların bağlanması, qarşılıqlı təhlükəsizlik sisteminin yaradılması kimi ilk diplomatik addımların istiqamətini müəyyən edirdi. Azərbaycanın qədim dövlətləri Manna, Midiya, Atropatena, Albaniya diplomatiya sahəsində Babil, Şumer, Assuriya, Persiya, Parfiya, Qədim Yunanıstan, Roma, Bizans və s. dövlətlərlə intensiv əlaqələr saxlayırdı.

Orta əsrlərdə əfsanəvi Oğuz xanın nəslini təmsil edən Azərbaycan sülalələri ardıcıl şəkildə bir-birini əvəzləyərək qüdrətli Azərbaycan dövləti yaratmış və diplomatik fəaliyyətlərini daha da genişləndirmişdi. Dövrünün ən böyük dövlətlərindən birinin hökmdarları tərəfindən həyata keçirilməsinə baxmayaraq, bu diplomatik fəaliyyət aqressiv xarakter daşımırdı, daha çox siyasi sazişlər və ittifaqlar bağlanmasına yönəlmişdi. Dövlətlərin başçıları arasında fəal yazışmalar gedir, Azərbaycan hökmdarlarının sarayına Fransa, Türkiyə, Almaniya, İngiltərə, Rusiya, İspaniya, İtaliya, Vatikan, Portuqaliya, Hindistan, Çin və s. ölkələrdən, Orta Asiyadan elçilər gəlirdilər. Azərbaycan hökmdarları da öz növbəsində həmin ölkələrə elçilərini göndərirdilər. Bağlanan ittifaqlar, sazişlər, bir qayda olaraq, yalnız bir məqsədə – bölgədə sülhün qorunmasına, hərbi təhlükənin və işğal təhdidlərinin aradan qaldırılmasına yönəlmişdi.

XVIII-XIX əsrlərdə yaranmış müstəqil Azərbaycan xanlıqlarının hakimlərinin diplomatiyası da bu şəkildə sülhsevər xarakter daşıyırdı, onlar bu prinsipi yalnız bir-birinə münasibətdə, həm də vahid və mərkəzləşdirilmiş Azərbaycan dövlətini bərpa etmək məqsədilə pozurdular. Onların öz qonşularına: Rusiya və Qacarlara münasibətdə atdığı diplomatik addımlar mehriban qonşuluq, sülh münasibətləri və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinin qorunub saxlanılmasına yönəlmişdi. Tale öz bildiyi kimi qərar verdi: "sülhpərvər" Gülüstan və Türkmənçay müqavilələri mahiyyət etibarilə müstəqil Azərbaycan dövlətçiliyini məhv etdi...

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra müstəqil Azərbaycan diplomatiyası yenidən dirçəldi. Onun əsas məqsədi Azərbaycanın beynəlxalq hüququn subyektinə çevrilməsini, dünya millətlər və dövlətlər birliyinə bərabərhüquqlu şəkildə daxil olmasını təmin etmək idi. 1920-ci ilin əvvəlində Versal konfransı Ali Şurasının iclasında Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyinin tanınmasına nail oldu və iştirakçı ölkələrin nümayəndələrini Cənubi Qafqazda sülhün qorunmasına yardım göstərməyə, suveren dövlətlərin sərhədlərinin toxunulmazlığını təmin etməyə çağırdı. 1920-ci ilin aprelində baş verən hakimiyyət dəyişikliyi isə son nəticədə Azərbaycanda məhdud müstəqillik dövrünün başlanmasına gətirib çıxardı.

Azərbaycan diplomatiyasının vəzifələri milli müstəqilliyin yeni mərhələsini yaşadığımız indiki zamanda da prinsip





etibarilə dəyişməyib. Həm dünya, həm də siyasət minilliklər boyu davam edən inkişafı yolunda mühüm təkamülə uğrasa da, Azərbaycan, onun rəhbərləri, diplomatik qurumları öz tarixinin başlanğıcında, yüz il bundan əvvəl, yaxud əsrin əvvəlində olduğu kimi dövlət müstəqilliyini, ölkənin ərazi bütövlüyünü, xalqının azad və inkişaf etmiş cəmiyyətdə yaşamaq hüququnu müdafiə edir.

Tarix XX əsrin sonlarında bu məsuliyyətli missiyanın həyata keçirilməsini Azərbaycan xalqının tanınmış lideri Heydər Əliyevə həvalə etdi.

Oxucunun əlində tutduğu bu kitab Azərbaycan Prezidenti Heydər Əliyevin xarici siyasətinin təhlilinə həsr olunub. Respublika rəhbərinin yeni tərəfdaşlar axtarışına, güclü iqtisadi və siyasi strukturlar sisteminin yaradılmasına yönəlmiş gərgin fəaliyyəti bu kitabda bütün çoxşaxəliliyi ilə göstərilib. Müxbir xronikası ilə siyasi təhlilin sintezi janrında yazılmış kitab prezidentin öncül xarakter daşıyan səfərlərinin ab-havasını, iri beynəlxalq forum və sammitlərdə, ikitərəfli danışıqlar prosesində fəaliyyətini canlandırır.

Müəllif Azərbaycanın xarici siyasətinin yeni strategiyasının və taktikasının təkmilləşdirilməsində xarici səfərlərin mühüm rolunu qeyd edərək oçerklərini Azərbaycanın və dünya diplomatiyasının konkret reallıqları ilə zənginləşdirir. Oxucu əmin ola bilər ki, Heydər Əliyevin Süleyman Dəmirəl, Fransua Mitteran, Bill Klinton, Con Meycor, Roman Hersoq, Helmut Kol, Boris Yeltsin, Jak Şirak, Tszyan Tszemin, Hüsnü Mübarək,

Tansu Çillər, Bənazir Bhutto, Əli Əkbər Haşemi Rəfsəncani, Əhməd xan Leğari, Eduard Şevardnadze, İslam Kərimov, Nursultan Nazarbayev, Askar Akayev, Saparmurad Niyazov, Butros Qali və bir çox digər xarici ölkə başçıları ilə diplomatik təmasları, Paris, Ankara, Oslo, Qahirə, London, Vaşinqton, Moskva, Brüssel, Kopenhagen, Tehran, İslamabad, Pekin, Lüksemburq, Aşqabad kimi paytaxt şəhərlərində keçirdiyi görüşləri və siyasi dialoqları informasiya və iqtisadi blokadaların yarılmasını təmin edib, siyasi əngəl və diplomatik təcridolunmaları aradan qaldırmağa və dünya siyasətini formalaşdıran dövlətlərlə simmetrik ittifaqa daxil olmağa imkan verib.

Heydər Əliyevin xarici siyasətini və diplomatik fəaliyyətini şərti olaraq üç mərhələyə ayırmaq olar. Birincisi onun SSRİ-nin tərkibində olan Azərbaycana rəhbərlik etdiyi, respublikanın birbaşa beynəlxalq əlaqələrinin əsaslarının yaradılması məqsədilə ciddi səylər göstərdiyi dövrdür. Həmin illərdə Bakıya müxtəlif hökumət və dövlət nümayəndə heyətləri, dünya miqyasında tanınan ictimai-siyasi xadimlər səfər edirdilər. Burada siyasi, iqtisadi, mədəni, dini mövzularda regional, ümumittifaq və beynəlxalq simpoziumlar, forumlar keçirilirdi. Bakıya dünya sivilizasiyasına, bəşəriyyətin sənaye tarixinə misilsiz töhfələr vermiş şəhərin şöhrəti qayıdırdı.

İkinci dövr Heydər Əliyevin Kremldəki fəaliyyəti ilə bağlıdır. O, SSRİ Nazirlər Soveti sədrinin I müavini kimi böyük dövlətin ali rəhbərliyinə daxil idi, bir çox ciddi beynəlxalq qərarların qəbul edilməsində fəal şəkildə iştirak





edir, nəticələri dünya birliyindəki qüvvələr balansına əhəmiyyətli təsir göstərən danışıqlarda SSRİ-nin nümayəndə heyətlərinə başçılıq edirdi. Heydər Əliyevin tərcümeyi-halının Kreml dövrünə görkəmli dövlət xadimləri və siyasətçilərlə çoxsaylı görüş və danışıqlar, keçmiş fövqəldövlətlə Qərb və Şərq ölkələri arasında müxtəlif sahələrdə əməkdaşlığın təməlini qoyan çox mühüm sənədlərin hazırlanması və təsdiqlənməsi daxil idi. O, Hindistan, Vyetnam, Yuqoslaviya, Mozambik, Anqola, Macarıstan, Meksika və digər xarici ölkələrdə rəsmi səfərdə olmuşdu. O illərdə sovet və dünya mətbuatı həmin səfərləri geniş şəkildə işıqlandırır, onları Kremlin beynəlxalq əlaqələri möhkəmləndirməyə yönəlmiş mühüm diplomatik addımı adlandırırdı. O, Moskvada işlədiyi müddətdə Azərbaycanı da yaddan çıxarmır, respublikanı beynəlxalq inteqrasiya əlaqələri sisteminə daha fəal şəkildə daxil etmək, eyni zamanda xarici siyasətçilərin və iş adamlarının diqqətini ona yönəltmək üçün əlindən gələn hər şeyi edirdi.

Nəhayət, üçüncü dövr Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi xarici siyasət fəaliyyətidir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınması, yaxın və uzaq xarici ölkələrlə ikitərəfli münasibətlərin qurulması, BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlıq dövrü idi. Bu, Azərbaycan xalqının və onun rəhbərinin respublikanın ərazi bütövlüyü, milli dövlətçiliyin sabit gələcəyi, beynəlxalq birlik tərəfindən qəbul edilən və

tanınan hüquqi normaların təntənəsi uğrunda gərgin mübarizəsi dövrü idi.

Heydər Əliyevin siyasi tərcümeyi-halının yeni dövründəki diplomatik fəaliyyəti mübaliğəsiz olaraq hərc-mərclik və tənəzzül şəraitində başlamışdı. Azərbaycan bir sıra daxili və xarici siyasi böhranlardan sonra hakimiyyətdə səriştəsiz rəhbərliyin olması nəticəsində sürətlə uçurumun başladığı xəttə doğru çəkilməkdə idi. Ölkənin xarici siyasəti dövlət fəaliyyətinin bu ən məsuliyyətli sahəsinin parodiyası şəklini almışdı. Səmimi müttəfiqlər əldə etməyin, möhkəm iqtisadi və siyasi ittifaqlar qurmağın çox vacib olduğu bir dövrdə diplomatiya üsulları iki ifratçılıqla məhdudlaşırdı: bəzilərinə qarşı kobud olmasa da, öcəşkən hücumlar, digərlərinə hörmətlə təzim halları. Burnunun ucundan uzağı görməyən bu cür balanslaşdırılmamış siyasət strateji cəhətdən əhəmiyyətli tərəfdaşlarla münasibətdə ciddi çətinliklər yaranmasına gətirib çıxarmışdı.

Heydər Əliyevin 1993-cü ilin yayında hakimiyyətə qayıtması bütün dövlət quruculuğu prosesinin, xüsusilə də xarici siyasətin bünövrəsinədək məhv edilməsi prosesini dayandırdı. Mən o vaxt BMT-də Azərbaycan Respublikasının daimi nümayəndəsi kimi fəaliyyət göstərirdim. Biz orada – Nyu-Yorkda müxtəlif ölkələrin diplomatlarının əhatəsində respublikanın ümumi siyasi böhrandan çıxması prosesinin başlanmasının ilk günlərindən gənc respublikanın xarici siyasətində və diplomatik fəaliyyətində dəyişikliklərin faydalı olduğunu görür, rəhbərliyin gücünü, iradəsini və peşəkarlığını təcrübədə





hiss edirdik. Beynəlxalq siyasətin tam mərkəzində, dünyanın bütün problemlərinin, o cümlədən də dövrümüzün ən uzunsürən və qanlı münaqişələrindən biri olan Ermənistan-Azərbaycan münaqişəsinin taleyinin həll olunduğu bir yerdə maraqlı ölkələrin səfirləri, BMT-nin yüksəkvəzifəli məmurları Azərbaycan liderinin peşəkarlığının Azərbaycanın nüfuzunu üst-üstə yığılmış mənfiliklərdən günlər və saatlarla ölçülən qısa müddət ərzində necə xilas etdiyinə, yenilikçilik dinamizminin köhnəlik ətalətinə necə üstün gəldiyinə məmnun halda şahid olurdular. Bütün bunlar ən yüksək səviyyəli siyasətçilərin və diplomatların nəzərində Azərbaycanın siyasi simasını heyrətamiz dərəcədə dəyişdirirdi.

1993-cü ildən – xalq, nəhayət, öz gələcəyinin və taleyinin layiqli prezidentini seçdikdən sonra Azərbaycanın dövlətlər arasında yeni münasibətlər sisteminə sivil şəkildə daxil olması başlayır. Azərbaycan dünyaya açılır. Ənənəvi əlaqələr bərpa olunur, yeni əlaqələr yaradılır, ziddiyyətlərin düyünləri çətinliklə açılmağa başlayır. Müstəqil Azərbaycanın yeni rəhbərinin apardığı sülhsevər xarici siyasət kursu beynəlxalq aləmdə rəğbətlə qarşılanır, Azərbaycan diplomatiyasının blok və ittifaqların çoxşaxəliliyinə istiqamətlənməsi, yeni və ənənəvi tərəfdaşlar arasında münasibətləri tarazlaşdırmaq səyləri getdikcə daha çox ardıcıllıq, sistemlilik və məntiqi tamlıq qazanırdı.

Mən Heydər Əliyevi xarici ölkələrə çoxsaylı səfərləri zamanı müşayiət edirdim və xarici siyasət fəaliyyətində uğurun

necə qazanıldığını bilirəm. Prezidentlə təmasda olanda onun tərəfdaşlarını öz sözlərinə və fikirlərinə görə məsuliyyət daşımağa vadar edən sözlərinin əhəmiyyətini və çəkisini xüsusilə aydın hiss edirdim. Prezident özünü və bütün komandanı ən ciddi nizam-intizama tabe edərək hər çıxışa, hər görüşə, hər dialoqa diqqətlə hazırlaşırdı. Bu irimiqyaslı işin nə qədər fiziki və mənəvi güc tələb etdiyini, prezidentin yuxusuz gecələrinin bitib-tükənməyən işlər və düşüncələrdə necə sürətlə axıb getdiyini, sənədlərin mətnlərinin necə uzun müddət redaktə olunduğunu və protokol detallarının dəfələrlə müzakirə edildiyini bilirəm. Bütün bunlar bir gün əvvəl baş verir, ertəsi gün isə mütləq parlaq nəticə əldə edilirdi: Azərbaycan üçün daha bir mühüm məqsədə nail olunur, onun növbəti marağı önə çəkilirdi... Qeyri-adi şəxsiyyətlərin xüsusiyyəti budur: onlar böyük işlər gördükləri zaman hamıdan çox yorulduqlarını büruzə vermirlər, dövlətin qayğı və problemlərinin ağır yükünü yenə də öz çiyinlərinə götürməyə hazır olurlar. Biz bunu təbii hal kimi qəbul etməyə alışmışıq və bəzən bu fenomenə təəccüblənmir, ona adi bir şey kimi baxırıq.

İstər ikitərəfli danışıqların gedişində, istərsə də beynəlxalq forumlarda iştirakı zamanı onun əsas vəzifəsi dünya ictimaiyyətinin, dövlət başçılarının, nüfuzlu təşkilatların diqqətini Azərbaycana, həm də onun təkcə Ermənistanın təcavüzü və qaçqınlar ordusunun mövcudluğundan irəli gələn problemlərinə və çətinliklərinə deyil, eyni zamanda böyük iqtisadi imkanlarına, xüsusilə də tükənməz xammal və enerji





resurslarına, intellektual və nəhayət, siyasi potensialına yönəltmək idi. O, Süleyman Dəmirəllə söhbətində respublikanın dirçəlişi və inkişafı məqsədilə əməkdaşlığın optimal modelini axtarır; Boris Yeltsinlə yorulmadan Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində vasitəçilik missiyasının aktivləşməsi problemlərini həll edir; incə diplomatik gedişlə Bill Klintonu burada dünyəvi demokratik cəmiyyətin möhkəmləndirilməsi naminə Amerikanın Azərbaycana yardımının miqyasını genişləndirməyin zəruriliyinə inandırır; müxtəlif vaxtlarda Yelisey sarayının sahibləri ilə: Fransua Mitteran və Jak Şirakla görüşərək "Yeni Avropa"nın siyasi kursunu istiqamətləndirən ölkə ilə əməkdaşlığın möhkəm təməlini qurur; Səudiyyə Ərəbistanının kralı Fəhd əl-Səudla görüşdə olarkən gənc müsəlman dövlətləri ilə nəinki ənənəvi mənəvi dəyərləri qoruyub saxlayan, həm də müasir texnologiyalara malik olan inkişaf etmiş müsəlman ölkələri arasında daha sıx tərəfdaşlığın zəruriliyindən danışır; Hüsnü Mübarəklə dialoqunu müstəqilliyin dirçəlişi mərhələsini nisbətən yaxın vaxtlarda keçirmiş ölkələrin həmrəyliyi probleminə yönəldir; Helmut Kolla uzun söhbətinin mövzusunu Azərbaycanda islahatların həyata keçirilməsini sürətləndirmək və onun dünya bazarına çıxışını asanlaşdırmaq yolları təşkil edir; Con Meycora "Azərbaycanın dəniz neftinə cəsarətlə sərmayə qoyun, sabah o bütün tərəfdaşları üçün enerji problemlərinin həllini təmin edə biləcək güclü, inkişaf etməkdə olan bir dövlət kimi dünya qarşısına çıxacaq" deyir; Eduard Şevardnadze ilə birlikdə Tbilisi

bəyannaməsini imzalayaraq Qafqaz evində sülh məsələsinin onun siyasi fəaliyyətinin mühüm prioritetlərindən biri olduğunu təsdiq edir; Rəfsəncani ilə söhbətində İranla mehriban qonşuluq münasibətlərini yüksək qiymətləndirir və daha fəal əməkdaşlığa çağırır; Bənazir Bhutto və Əhməd xan Leğari ilə görüşləri zamanı özünün iri regional sənaye, ticarət və nəqliyyat strukturlarının yaradılması ilə bağlı fikirlərini bölüşür; İon İliesku və Jelyu Jelevlə Balkanlardakı və Qafqazdakı münaqişə ocaqlarının ləğvi yollarında oxşarlıq və fərqlilik problemlərini müzakirə edirdi...

Heydər Əliyevin beynəlxalq forumlarda iştirakının mövzuları, həqiqətən də, tükənməzdir. O, BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyalarında çıxış edərək Azərbaycanın siyasi nüfuzunu gücləndirir; NATO-nun Brüsseldəki mənzil-qərargahında "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədini imzalamaqla Cənubi Qafqazda münaqişələrin nizamlanması üçün əlavə beynəlxalq təminatların əldə olunmasına çalışır; Kopenhagendə keçirilən beynəlxalq konfransda azərbaycanlı qaçqınların ağır vəziyyətindən danışır və bütün dünya ölkələrinin mülki əhalisinin qarşılıqlı sosial müdafiə sisteminin yaradılmasını təklif edir; Budapeşt sammitində ATƏT-in ən fəal islahatçılarından biri kimi çıxış edir; Kasablanka sammitində İKT-nin[1] Ermənistanı təcavüzkar kimi tanımasına nail olur; NATO-nun baş katibi Xavyer Solana ilə ərazi bütövlüyünün

[1] İslam Konfransı Təşkilatı. İndiki İslam Əməkdaşlıq Təşkilatı (İƏT) 2011-ci ilədək belə adlanırdı.





bərpasına və işğal olunmuş ərazilərin azad edilməsinə yardım mövzusunda dialoqlar aparır; BMT-nin baş katibi Butros Qali ilə və Avropa İttifaqı İqtisadi Komissiyasının sədri Jak Santerlə qaçqınlar probleminin həlli və humanitar yardımın həcminin artırılması yollarını müzakirə edir; Davos Beynəlxalq İqtisadi Forumunda yeni dünya iqtisadi standartlarının hazırlanması zəruriliyi ideyasını irəli sürür; Buxarestdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində "Qərb-Şərq" nəqliyyat xətti üzrə əməkdaşlıq konsepsiyası ilə çıxış edir; YUNESKO-nun Parisdəki mənzil-qərargahında Azərbaycan xalqının qədim mədəniyyəti və yüksək mənəviyyatından böyük ruh yüksəkliyi ilə danışır; Lüksemburqda Avropa Şurası ilə tərəfdaşlıq və ikitərəfli əməkdaşlıq haqqında saziş imzalamaqla Azərbaycanın Avropaya giriş istiqamətini qeyd edir; Londonda və Parisdə, Nyu-Yorkda və Kölndə iri sahibkarlar və nüfuzlu alimlər qarşısında çıxış edərək Azərbaycana geniş şəkildə sərmayə pəncərələri açırdı...

Prezident Heydər Əliyevin fəaliyyəti ilə bağlı şəxsi müşahidələrim onun diplomatiyasının başlıca cəhətləri və üslubu haqqında bir sıra nəticələr çıxarmağa imkan verir. O, diplomatiyada həmişə açıqlıq prinsipinə riayət edir və diplomatik eyhamların köməyinə ehtiyac duymurdu. Onun ikitərəfli və çoxtərəfli danışıqlarında Azərbaycan haqqında böyük həcmdə obyektiv informasiya olurdu. Heydər Əliyev müsahibindən heç nəyi gizlətmir, öz səmimiliyi ilə qarşı tərəfdə də uyğun reaksiya oyadırdı. Tərəfdaşlar da başa düşürdülər ki,

qarşılarında müstəqillik əldə edən, qanlı müharibəyə cəlb olunmuş və dəyişilən dünyaya ümid, şərəf və ləyaqətlə qədəm qoyan bir ölkənin prezidenti dayanıb. Bu gün cəsarətlə deyə bilərik ki, Azərbaycanın ətrafındakı informasiya blokadasının möhkəm divarları məhz onun açıq diplomatiyası sayəsində uçub-dağılmışdı.

Bir diplomat kimi Heydər Əliyevə xas olan mühüm keyfiyyət böyük həyat təcrübəsi nəticəsində cilalanmış, minlərlə dövlət əhəmiyyətli məsələni özündə cəmləşdirərək donmuş ehkamları deyil, yeni ideyalar və fikirlər üçün əlverişli mühiti bir növ yeni layihə və modellərin sınaqdan keçirildiyi "daxili laboratoriya"nı təşkil edən peşəkarlıq idi.

Heydər Əliyevin diplomatiyası genişmiqyaslı idi. O, ani, şəraitə uyğun maraqlara xidmət etmirdi, gələcəyə, uzunmüddətli perspektivə istiqamətlənmişdi. O, xarici siyasətin taktika və strategiyasını dünyanın "çoxqütblülüyü"nə və eyni zamanda qarşılıqlı asılılığına əsaslanaraq qururdu, onun diplomatik fəaliyyətinin çoxfunksiyalılığı da bundan irəli gəlirdi.

Bu diplomatiyanın "böyük ünsürü" siyasi və iqtisadi tərəfdaşlıq, mədəni əməkdaşlıq, hərbi əməkdaşlıq, humanitar yardım və s. kimi geniş problemlər dairəsini əhatə edirdi. O, əməkdaşlığın hüdudlarını müəyyənləşdirərkən öz cəsarəti, qlobal problemlərin birgə həllini nəzərdə tutan ideyalarının nəhəng miqyası, hərtərəfli xarakteri ilə seçilən inkişaf problemlərinin bütöv bir kompleksi ilə həmsöhbətlərini heyrətləndirir, eyni zamanda konkret layihələrin məqsədəuyğunluğu ilə tərəfdaşlarını valeh edirdi.





Heydər Əliyev diplomatiyasının əsas elementlərindən biri ən mürəkkəb və daxili dramatizmi ilə seçilən danışıqlar zamanı vəziyyəti idarə etmək bacarığı idi. Onun danışıqların ab-havasını "yumşaltmaq" üçün diplomatik vasitələr ehtiyatı həqiqətən bitib-tükənməz idi. Bu vasitələr gərginliyi və inamsızlığı aradan qaldırmağa, qarşılıqlı anlaşma mühiti və ən mürəkkəb problemlərin mənasını gözlənilmədən aydınlaşdıran, dinləyicilərdə respublikaya, onun problemlərinə böyük maraq oyadan dialoq məqamları yaratmağa imkan verirdi. Həmsöhbətini xüsusi cazibədarlığı ilə cəlb etmək, mövzuda gözlənilməz dönüş etməklə dinləyicilərin diqqətinə hakim olmaq bacarığı onu fərqləndirirdi. Nəhayət, onun özünü sərbəst aparmaq, rəsmi ziyafət və görüşlərin soyuq cansıxıcılığını zarafatları, hazırcavablığı ilə aradan qaldırmaq bacarığını da qeyd etmək lazımdır.

Mən təkcə Heydər Əliyevin çıxışlarına çoxsaylı auditoriyaların coşqun reaksiyasının deyil, həm də ona Qərb və Şərq ölkələrinin nüfuzlu liderlərinin böyük hörmət ifadə edən münasibətinin şahidi olmuşam. Onlar birbaşa dialoqlar zamanı Heydər Əliyevin böyük siyasi təcrübəsi, islahatçılıq fəaliyyətinin miqyası haqqında açıq heyranlıqla danışır və onun, şübhəsiz ki, beynəlxalq səviyyəli siyasi xadimlər arasında ən nüfuzlu liderlərdən biri olduğunu qeyd edirdilər. Həmkarlarım olan müxtəlif ölkələrin xarici işlər nazirləri də Prezident Heydər Əliyevin diplomatik fəaliyyətinin səmərəliliyi ilə bağlı öz təəssüratlarını mənimlə eyni heyranlıqla bölüşürdülər.

Azərbaycan liderinin diplomatik məktəbinin gücünü anlamağa çalışan əcnəbi həmkarlarım mənimlə söhbətlərində onun peşəkar siyasətçi olduğunu, dəmir iradəyə, güclü intellektə, dərin erudisiyaya, natiqlik istedadına malik lider kimi keyfiyyətlərini vurğulayırdılar. Bir sözlə, xarizmatik şəxsiyyət portreti çəkirdilər. Fikirlərinin obyektivliyi ilə razılaşaraq qeyd edirdim ki, əgər ona prezidentə xas dərin insaniyyət və yüksək ziyalılıq kimi cizgiləri də əlavə etməsək, portret natamam olar. Məhz insaniyyət nöqteyi-nəzərindən yanaşdıqda onun xarakteri, şəxsiyyəti bir liderin, dünya miqyaslı bir dövlət xadiminin keyfiyyətləri ilə ruhun ən kiçik titrəyişini anlayan, ünsiyyət üçün açıq və anlamağa hazır olan, hər cəhətdən ahəngdar bir insanın keyfiyyətlərini heyrətamiz dəqiqliklə özündə cəmləşdirən aspektdə üzə çıxır.

İbrahim Şükürovun kitabında prezidentin diplomatik fəaliyyətinin miqyasını göstərən çoxlu epizodlar, onun öz siyasi prioritetləri və baxışları cəhətdən müxtəlif tərkibli böyük auditoriyalarda həmfikir tapmağa və üz-üzə danışıqlar zamanı ən barışmaz tərəfdaşları inandırmağa imkan verən cazibə, intellektual güc kimi şəxsi keyfiyyətlərini özündə əks etdirən fraqmentlər var. Kitab haqqında geniş danışmayacağam, oxucu orada yeni Azərbaycan diplomatiyasının memarının qeyri-adi istedadının fərqli cəhətlərindən bəhs edən bir çox səhifələr tapacaq. Biz konstruktivlik, yaradıcı qüvvə, prinsipiallıq, yüksək məqsədlərə və sülh ideallarına sadiqlik, dost ölkələrin ittifaqı və tərəfdaşlığı ilə müəyyən edilən xarici siyasət kursunun





reallığına sıçrayışa görə məhz ona – böyük siyasətin strateqinə borcluyuq.

Mən və mənim müasirlərim Heydər Əliyevin fəaliyyəti, çoxşaxəli xarakteri haqqında hər şeyi bildiyimizə əmin olsaq da, onun gördüyü işlər o qədər uzunmüddətli və genişmiqyaslı, şəxsiyyəti o qədər qeyri-adidir ki, onları bütün əzəməti və dolğunluğu ilə yalnız gələcək üzə çıxaracaq. Bu şəxsiyyətin yaradıcı fəaliyyətinin yeni nəsillər tərəfindən qiymətləndirilməsi getdikcə daha böyük minnətdarlıq və heyranlıqla qeyd olunacaq.

Həqiqətən, böyüklük uzaqdan görünər!

# HEYDƏR ƏLİYEV VƏ BAKI

*Mən Heydər Əliyevin bütün siyasi fəaliyyətinin şahidi olmuşam. Bu oçerk mənim tərəfimdən 1994-cü ildə, onun Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının fəxri akademiki seçilməsi münasibətilə yazılıb. 1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının Bakıda keçirilən səfər sessiyasındakı və 1982-ci ildə onun xüsusi olaraq dəvət edildiyi Moskva Mərkəzi Memarlıq Evindəki çıxışlarının bilavasitə şahidi olmuşam. Heydər Əliyevin həmin çıxışları müasirləri olan görkəmli rəssam və memarlar tərəfindən proqram xarakterli çıxışlar kimi qiymətləndirilmişdi. Mən daha dolğun təsəvvür yaranması üçün "Heydər Əliyev və Bakı" mövzusunu Azərbaycanın minillik şəhərsalma təcrübəsinin icmalı kimi təqdim etməyə çalışdım.*

*Bu oçerkin yazılmasından çox illər keçib. Son iyirmi ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın minillik şəhərsalma ənənələrinə və Heydər Əliyevin fəaliyyəti dövründə inkişaf etdirilmiş güclü şəhərsalma bünövrəsinə söykənərək bu sahədə inanılmaz bir sıçrayışa nail olub. O, Azərbaycan*





*memarlıq təcrübəsini sovet qanunvericiliyinin məhdudiyyətlərindən qopararaq möhtəşəm mənzərə yarada bilib. İlham Əliyevə görə, şəhərsalma, sadəcə, şəhərin planlaşdırılması, təkcə Bakı şəhəri, ayrı-ayrı tikililər deyil. İlham Əliyevə görə, Azərbaycan şəhərsalması bütün Azərbaycanı əhatə edən vahid, qovuşuq, sahmanlı, sinxron şəhərsalma obrazıdır. Bu eyni zamanda yüksək səviyyəli yollar, şəhər və kəndlər üçün etibarlı həyat təminatı sistemi, landşaft memarlığı və sairədir. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında həyata keçirilən Qarabağın hərtərəfli dirçəlişi bu işlərin zirvəsini təşkil edir.*

Azərbaycan xalqının dühası dünya mədəniyyətini zənginləşdirən bir çox dəyərlər yaradıb: muğamlar və xalçalar, miniatür rəngkarlığı və daş heykəltaraşlığı, poeziya və fəlsəfə... Bu siyahını tərəfkeşlik və birtərəflilik ittihamlarından ehtiyat etmədən xalqın yaradıcı ruhunun ən qlobal və universal ifadəsi olan Azərbaycan şəhərləri ilə davam etdirmək olar. Qəbələ, Bərdə, Naxçıvan, Gəncə, Ərdəbil, Təbriz, Şamaxı, Həmədan, Bakı möhtəşəm paytaxtlar idi. Şuşa, Dərbənd, Quba, Şəki, İrəvan Azərbaycan xanlıqlarının alınmaz qalalarla taclanmış və ustalıqla tikilmiş mərkəzləri idi. Marağa, Culfa, Şəmkir, Zəncan, Qəzvin, Həmədan, Şabran, Ordubad Qərbdə və Şərqdə öz kitabxanaları, universitetləri, rəsədxanaları, məbədləri, emalatxanaları ilə məşhur olan şəhərlər idi.

Bu torpaqlarda əsrlər boyunca çoxlu dövlətlər yaranıb, onların hamısı şəhərlərin iqtisadi və mədəni qüdrəti sayəsində yüksəlib, möhkəmlənib. Antik dövrdə Azərbaycan ərazisində Qafqazın ən böyük dini komplekslərinə və güclü müdafiə qurğularına malik zəngin şəhərlər yaranmışdı. Erkən orta əsrlərdə Azərbaycan şəhərlərinin divarları arasında sonralar "Şərq intibahı" adlandırılacaq fenomen yetişib möhkəmlənirdi, onun ruhu memarlıqda, poeziyada, rəngkarlıqda, fəlsəfədə, sənətkarlığın bir çox sahələrində ifadə olunacaqdı.

Dünyanın müxtəlif istiqamətlərinə aparan karvan yolları və onların ən böyüyü olan İpək yolu Azərbaycan ərazisindən keçirdi. Burada bütün dünyada məşhur olan elm və sənət məktəbləri yaranırdı. Burada böyük şairlər və musiqiçilər, memarlar və astronomlar, həkimlər və filosoflar yaşayıb-yaradırdılar. Ənənəyə görə, onlar çox vaxt özlərinə bütün dünyada məşhur olan Azərbaycan şəhərlərinin adlarından yaranan təxəllüslər götürürdülər: Gəncəvi, Təbrizi, Naxçıvani, Bakuvi, Marağayi, Ordubadi, Ərdəbili, İrəvani, Şuşalı... Beləcə, Azərbaycanın qədim şəhərləri və dahi övladları əsrlərlə bir-birini məşhurlaşdırırdılar.

Azərbaycan şəhərləri özünəməxsus memarlıq ansamblları, saray, dini və yaşayış tikililəri kompleksləri, hamam və karvansaraları ilə bölgənin bir çox ölkələrinin memarları üçün nümunəyə çevrilmişdi. Azərbaycan memarlıq məktəbi bütün müsəlman Şərqində böyük nüfuza malik idi. Azərbaycan sənətkarları Konya və Bursada məqbərələr tikmiş, Səmərqənd





və Buxaranın meydanlarını bəzəmiş, Dəməşq və Qahirədə məscidlər, İsfahan və Bağdadda saraylar ucaltmışdılar...

Tarixin hökmü ilə bir vaxtlar dəbdəbəli və zəngin olan şəhərlər deyil, minilliklər boyunca kiçik bir əyalət şəhəri kimi qalan Bakı müasir Azərbaycanın paytaxtına çevrildi. Bakının Azərbaycan şəhərləri arasında kapitalist inkişafı bumunu yaşayan ilk şəhər olması, XX əsrin 18-ci ilində müsəlman Şərqində ilk demokratik respublikanın, hazırda isə yenidən dirçəlmiş müstəqil dövlətin paytaxtına çevrilməsi obyektiv şəraitin, sərt tarixi qanunauyğunluğun nəticəsidir.

İngilis alimi Flinders Petri "Bakı" adını qədim mətnləri e.ə. III minilliyə aid edilən misirlilərin "Ölülər kitabı"nda əks olunmuş, Misir mifologiyasından gələn "Bakhau" adı ilə eyniləşdirirdi. Əhəmənilər dövrünə aid Bisütun qayalarında isə "Baqa" sözü həkk olunub. Son araşdırmalara görə, bu söz sırf türk mənşəlidir.

Bakı ötən əsrin sonlarında nəhəng neft ehtiyatları sayəsində böyük geosiyasi əhəmiyyətə malik olan regionun ən çox inkişaf etmiş sənaye mərkəzlərindən birinə, "neft paytaxtı"na çevrilir. Qısa "Bakı" sözü dinamizmin rəmzinə, neft isə Bakını başgicəlləndirici sürətlə əyalət şəhərciyindən birincidərəcəli paytaxt şəhərinə çevirən mühərrikə çevrilir. Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və başqalarının şəxsində milli burjuaziya da formalaşır. Həmin vaxt şəhərdə artıq Rusiya, İngiltərə, İsveçrə, Çin, Hindistan, Avstraliya, Hind-Çin yarımadası ölkələrinə və digər istiqamətlərə neft ixrac edən onlarla neft mədəni, 100-dən artıq neft emalı zavodu var idi.

Neft bumu şəhərin görünüşünü xeyli dəyişdirir. Şəhərin tarixi özəyi olan İçərişəhərin qala divarlarından kənarda gedən sürətli tikinti işləri onun sərhədlərini genişləndirir. İsveçli Nobel qardaşları, fransız bankir Rotşild, ingilis Ceyms Vişau və başqaları Bakıya sərmayə qoyan ilk sahibkarlar idi. 1870-ci ildə dünya şəhərsalma təcrübəsində ilk dəfə məhz Bakıda şəhər strukturunun funksional olaraq yaşayış və sənaye zonalarına bölünməsi baş verir.

Şəhərdə telefon rabitəsi qurulur (1880), dəmir yolu çəkilir. Şərqin bir çox müasir mədəniyyət hadisələri ilk dəfə Bakıda baş verir. XIX əsrin sonları-XX əsrin əvvəllərində Şərqdə ilk dəfə məhz burada dünyəvi universitet, elmi-texniki cəmiyyət təsis olunub, demokratik mətbuat nəşr olunmağa başlayıb, dram teatrı, opera və balet teatrı, simfonik orkestr yaradılıb. Yeni küçə və prospektlər, çoxmərtəbəli binalar, mehmanxanalar, teatr binaları, milyonerlərin dəbdəbəli villa və sarayları, xalqın ianələri və himayədarların vəsaiti ilə ucaldılan məbədlər Bakıya özündə Şərq və Qərb mədəniyyətini birləşdirən, özünəməxsusluğu və romantik memarlıq üslubuna görə təkrarsız olan şəhər görünüşü verirdi.

XIX əsrin sonları-XX əsrin əvvəllərində Bakıda Azərbaycanın görkəmli memar və həm də inşaatçıları K.Hacıbababəyov, Z.Əhmədbəyov, M.İsmayılov və digərləri ilə yanaşı, başqa ölkələrin nümayəndələri də fəaliyyət göstərirdilər. Bakı çoxlarını öz istedadlarını üzə çıxarmaq, yaradıcılıq fantaziyalarını nümayiş etdirmək imkanına görə cəlb edirdi. Almanlar N.A.Fon-der Nonne, İ.V.Edel, A.V.Eyxler, V.O.Simonson,





P.Ştern, F.Lemkul, ruslar A.S.Kandinov, N.P.Tvyordoxlebov, A.A.Nikitin, F.A.Nikulin, polyaklar İ.V.Qoslavski, K.B.Skureviç, K.A.Borisoqlebski, İ.K.Ploşko, Y.Y.Skibinski, avstriyalı F.Qrosetti, italyanlar Bruni, L.Z.Rossi və bir çox başqaları burada yaşayıb-yaradır və tikib-qururdular. Bu eyni vaxtda yaradılan memarlıq tikililərinin fərqli: eklektizm, stilizasiya, modernizm, konstruktivizm, klassisizm, neoqotik, milli, Avropa və s. üslublara aid olduğu bir dövr idi. Üslub müxtəlifliyi onunla izah olunur ki, ənənəvi ilə yeni, milli ilə klassik, Avropaya xas olanlarla Şərqə xas olanlar arasında yaradıcılıq mübarizəsi gedirdi. Hər memar bura öz ölkəsinin ənənə və formalarına məxsus olan nəsə gətirir, amma Azərbaycan memarlığının böyük təsir gücünə laqeyd qala bilmir, nəticədə memarlıq forma və ənənələrinin unikal sintezi yaranırdı. Bakıya gətirilən hər hansı yeni üslub mütləq Azərbaycanın milli klassik memarlığı ənənələri üzərində qurulurdu. Qədimliklə müasirliyin, Şərqlə Qərbin bu vəhdəti Azərbaycan memarlığının milli-romantik məktəbi kimi tanınan misilsiz bir istiqamət yaratdı.

Bakı öz inkişafında bir neçə dövr yaşayıb. Bunları qədim, feodal, kapitalist və nəhayət, Azərbaycan dövlətinin paytaxtına çevrildiyi 1918-ci ildən bu günə qədərki mərhələ kimi təsnif etmək olar. Hər mərhələnin özünəməxsus inkişaf dinamikası, memarlıq üslubu, daş xətlərinin və həcmlərinin ahəngdarlıq və plastika qanunları var idi. Lakin şəhər daim öz fərdiliyini, təkrarsızlığını, genetik kodunu qoruyub saxlayırdı. Bu üslubi və konstruktivist dözümlülük Abşeron memarlıq

məktəbinin prinsiplərinə əsaslanırdı, antik yığcamlıq, ifadə vasitələrinin sərtliyi, işıq və kölgənin ziddiyyətli oyunu, müstəvi və qübbələrin, üfüqilik və şaquliliklərin növbələşməsi, yarımçöl landşaftı ilə dənizənginliklərinin vəhdəti, relyef ritmlərindən peşəkar istifadə və detalların aydın çəkilməsinə yüksək diqqət həmin məktəbin səciyyəvi xüsusiyyəti idi.

Şübhəsiz ki, Bakı özünə bərabər şəhərlər arasında birinci idi. Azərbaycanın bütün şəhərləri "bir-birinə qısılaraq" yolu neft nəhənginə vermişdi. Hətta müstəqil Azərbaycan Respublikasının bayrağını birinci ucaldan, qədim və şanlı tarixə malik Gəncə şəhəri belə estafeti yeni paytaxta – Bakıya ötürürdü. Yalnız tarix deyil, təbiətin özü də Bakını paytaxt olmaq, milyonlarla insanı və kapitalı özünə cəlb etmək üçün hazırlayırdı. Hələ orta əsrlərdə Bakının və onun liman funksiyalarının əhəmiyyəti və emosional təsiri o qədər güclü idi ki, Xəzər uzun müddət "Bakı dənizi" adlanırdı. Dəniz isti havanın bu quru subtropik zonada hər şeyi qurutduğu bir vaxtda şəhərə sərin küləklər göndərir, qışda isə çox vaxt isti cənub küləyi olan gilavar əsir... Bu səbəbdən Bakı "küləklər şəhəri" kimi tanınır. Alimlər Bakının yaxınlığında içində batıb qalmış tarixdən əvvəlki heyvan və quşların skeletlərini saxlayan bitum gölü aşkar ediblər. Dünya əhəmiyyətli bu tapıntılar sayəsində yoxa çıxmış fauna nümayəndələrinin zahiri görünüşünü bərpa etmək mümkün olub, paleontologiyada "Binəqədi dövrü" termini yaranıb.

Təbiət Bakıya münasibətdə xəsis, eyni zamanda səxavətli olub. Bakıya və ümumiyyətlə, bütün Abşerona bol bitki bəxş





etməmiş, əvəzində isə hər şey: üzüm, bal kimi əncir, zeytun, nadir zəfəran... yetişdirə biləcək torpaq verib. Bakının yaxınlığında daş yataqları yerləşib, oradakı karxanalarda hasil edilən əhəngdaşı o qədər möhkəmdir ki, ondan əsrlərə davam gətirəcək tikililərdə istifadə edilir. Əhəngdaşı eyni zamanda o qədər yumşaq və xoş görünüşlüdür ki, ondan binaların üzlənməsində istifadə olunur. Maviyəçalan ağdan qızılıyadək rəngləri ilə əlvan Abşeron əhəngdaşısı onun üzərində gözəl naxışlar yaradan daşyonanın əlinə çox rahat yatır. Təbiət bölgəni bol sulu çaylardan məhrum edib, amma haranı qazsan, yerin altından sərin içməli su çıxacaq.

Təbiət Xəzərin məhz bu hissəsində bir körfəz yaradıb, oradan şəhərin ağ terrasları amfiteatr şəklində ucalır. Abşeronun cənub sahilləri yamacların şıltaq yarğanlarından formalaşaraq Bakının özünəməxsus relyefini, dənizə açılan şimal sahili isə təkrarsız istirahət zonası yaradır. Bütün bunlar ərazini səmərəli şəkildə qurmağa, iki ünsürün: dəniz və qurunun, eyni zamanda da insan və təbiətin harmoniyasına nail olmağa imkan verir.

Bakı bölgəsində neft yataqlarının olması, yerdən öz-özünə alışan və əbədi alovlarla yanan qazların çıxması insanların diqqətini qədim zamanlardan cəlb edib. Məhz bu təbiət hadisəsi qədim azərbaycanlıların dünyagörüşünün formalaşmasının əsasını təşkil edib, oda sitayiş dinini yaradıb. Bakının "sönməyən odları" səyyahlar, coğrafiyaşünaslar, diplomatlar, tacirlər üçün daim yol göstərən nişan rolunu oynayıb. Bakı yaxınlığındakı ərazidə isə indi də nadir təbiət

hadisəsini – yamacları, demək olar ki, tarixdən əvvəlki dövrlərdən bu günədək yanan alovlara bürünmüş "Yanardağ"ı müşahidə etmək olar. Bu yerlərdə neftin çıxarıldığı, emal olunduğu, istifadə edildiyi və satıldığı qədim dövrlərdən bəri məlumdur.

Əfsanəvi Qız qalası öz əzəməti, çoxəsrlik taleyi, eləcə də yüzlərlə tədqiqatçının sonadək aça bilmədiyi forma və funksiya əlaqəsinin sirri ilə insanı heyrətləndirir. Tədqiqatçıların əksəriyyəti qalanın 3000 illik tarixi olan "Od" məbədinin yerində tikildiyi fikri ilə razılaşır. XVIII əsrdə hindli zəvvarlar tərəfindən bərpa edilən ekzotik Suraxanı atəşgahı da böyük təsir bağışlayır. Bəzi tarixçilər iddia edirlər ki, ən qədim od məbədlərindən biri də Bakı körfəzindəki Səbail adasında yerləşirmiş. Ola bilsin ki, həmin məkanda yerləşən qədim tikilinin ənənələri XII əsrdə onun xarabaları üzərində İslam incəsənətində nadir hallarda rast gəlinən, qədim türk ənənələrinə xas, bir-birinə qarışmış döyüşçü və totem heyvanları rəsmlərinin mürəkkəb heykəltaraşlıq hörgüsündən ibarət frizlə haşiyələnmiş unikal bir qalanın ucaldılmasına zəmin yaradıb.

Bakının yerləşdiyi Abşeron yarımadası qədim zamanlardan bəri bir çoxu sular altında qalan və Xəzər Atlantidası haqqında əfsanələrin yaranmasına səbəb olan kiçik sahil şəhərlərinin vətəni olub. Lap qədim zamanlarda Xəzərin sahilində öz sivilizasiyasının izlərini Qobustan qayaları üzərində qoymuş azərbaycanlıların ulu əcdadlarının məskəni var idi. Bu sivilizasiya bir çoxlarını, o cümlədən böyük səyyah





və tədqiqatçı Tur Heyerdalı da valeh etmişdi. 1898-ci ildə müasir Bakının mərkəzində aparılan qazıntılar zamanı daş qutularda qəbirlər aşkar edilmişdi, mütəxəssislər onları Tunc dövrü abidələrinə aid edirdilər. Su altında qalmış şəhərlərin yerində aşkar edilən gümüş sinilər Bakının ellin mədəniyyəti ilə əlaqəsini göstərir. Bakı körfəzinin dibində, eləcə də Böyük Zirə adasına gedən yolda həmin sivilizasiyanın qədimliyini və unikallığını təsdiqləyən qədim döşəmə yolun izləri və bir çox başqa şeylər aşkar olunub. Bakı ətrafındakı ərazidə Roma imperatoru Domisianın dövrünə aid, üstündə latın yazısı olan lövhə qorunub saxlanılıb. Orada yazılıb ki, eramızın I əsrində "Fulminata" ("İldırımsürətli") adlanan XII Roma legionu burada hərbi yürüşdə olub, lakin ölkəni fəth etməyib.

Şəhərin ərazisində aşkar edilən, həm Bakıda kəsilmiş, həm də kənardan gətirilmiş qızıl, gümüş və mis sikkə dəfinələri X əsrdən başlayaraq şəhərin dünya ilə geniş ticarət əlaqələrinin olduğundan xəbər verir.

Bakı bütün dünya dinlərinin şəhəridir, burada dünyanın ən qədim məscidləri və oda sitayiş məbədləri, orta əsrlərə aid xristian kilsələri və sinaqoqlar qorunub saxlanılıb.

X əsrdən başlayaraq Bakının adı stabil və ətraflı şəkildə çəkilməyə başlayır. Qədim Norveç saqalarında deyilir ki, Skandinaviyada böyük Vikinqlər dövlətini yaradanlar X əsrdə Azer – Odin adlı başçının rəhbərliyi ilə məhz Azərbaycanın bu yerlərindən köçüb gediblər.

Bakının qədim yerlərindən danışarkən paytaxt ərazisinin bir faizindən də az hissəsini – 21 hektar sahəni tutan nadir İçərişəhər qalasından bəhs etməmək mümkün deyil. İçərişəhər orta əsrlər şəhərinin planlaşdırma quruluşunu, görkəmini, ab-havasını qoruyub saxlayıb. Onun dar küçələrindən və kiçik meydanlarından şəhərin, bütün Şərq memarlığının və etnoqrafiyasının tarixini öyrənmək olar. Küçələrin qəribə dolanbacları bəzən dəlilik edən xəzrinin çılğınlığını yatırır, kiçik bağçaları və hovuzları olan kölgəli həyətlər isə bürküdən qoruyur. Məhz burada XIV əsrdən başlayaraq şəhər əhalisini su ilə təmin edən su kəməri və kəhrizlər sistemi yaranır. XIV əsrdə tikilmiş və indiyədək qorunub saxlanan karvansaralara (mehmanxanalara) orta əsrlər Şərqinin ən böyük şəhərləri olan Buxara və Multanı adlarının verilməsi Bakının geniş əlaqələrini təsdiqləyir.

İçərişəhərin təpələrindən birində Bakı akropolu, Azərbaycan memarlığının şah əsəri olan Şirvanşahlar sarayı ucalır. Bu, bəlkə də, bütün Şərqdə öz quruluşunu, müxtəlif tikililərin: taxt-tac salonu, dövlət şurasının iclaslarının keçirildiyi salon, qəbul palataları, divanxana, yaşayış otaqları, hamam, məscid, türbə və məqbərənin mürəkkəb qarşılıqlı əlaqəsini tamamilə qoruyub saxlayan yeganə saray kompleksidir. Bir sözlə, tam bir həyat, idarəetmə, müqəddəratı həlletmə dövrəsi...

Bunlar və yüzlərlə digər qədim abidələr Bakını əbədi şəhər hesab etməyə əsas verir. O həm yarandığı zaman baxımından, həm də daimi, ecazkar cəzbediciliyinə görə əbədi şəhərdir.





Bakının və onun memarlığının tarixi Sadıq Dadaşov, Mikayıl Hüseynov, Əbdülvahab Salamzadə, Sara xanım Aşurbəyli, Şamil Fətullayev, Davud Axundov, Leonid Bretanitski və bir çox digər müəlliflər tərəfindən tədqiq olunub. Lakin bu, həqiqətən, tükənməz bir mövzudur. Ona görə də nəinki şəhərin tarixinin böyük mərhələlərini, həm də zaman baxımından daha məhdud, bəzi hallarda on, yaxud iyirmi illik mərhələsini dönə-dönə təhlil etməyə ehtiyac yaranır. Bu, statik inkişafdan dinamik inkişafa bəzi partlayışa bənzər keçidlərlə izah olunur. Bakının inkişafı sıçrayışlar şəklində baş verirdi, onun tarixinin bəzi onillikləri tikintinin intensivliyinə, şəhər məhəllələrinin yenidən qurulması və abadlaşdırılmasının sürətinə görə əsrlərə bərabər olub. Elə indi də məhz keyfiyyətli sıçrayış və bum dövrləri təhlil üçün daha çox maraq doğurur.

Şübhəsiz ki, şəhərlərin inkişaf dinamikası obyektiv amillərin bütöv bir kompleksindən: sənayenin inkişafından, mədəni, elmi, informasiya strukturlarının genişləndirilməsindən, demoqrafik, etnik-mədəni, ekoloji proseslərdən və s. asılıdır.

...Tarix başqa bir şeyə də şahidlik edir: şəhərlərin yüksəlişində, onlara paytaxt möhtəşəmliyi və miqyası verilməsində ölkənin əsas şəhərini bir növ şəxsləşdirən, canlılaşdıran liderin iradəsindən, islahatçılıq istedadından, şəxsiyyətindən çox şey asılıdır. Liderin xarizması dövlət başçısının dövrünü və adını

təcəssüm etdirmək üçün nəzərdə tutulmuş tikililərdə özünü daha dolğun və təsirli şəkildə göstərir, bu vəziyyətdə xalqı, onun mənəvi və yaradıcı gücünü təmsil edən ümumi dəyər qazanır.

Liderlər müxtəlif tikililəri öz dövrünü əbədiləşdirmək, xalqı birləşdirmək, onu, təbii ki, ən möhtəşəmi paytaxt, bəzi hallarda isə hətta ayrı-ayrı abidələr olan dövlət rəmzlərinin ətrafında cəmləşdirmək istəyinə tabe olaraq ucaldırdılar. Məsələn, Afinada Periklin himayədarlığı ilə tikilən Akropol, XII əsrdə Azərbaycan hökmdarı Atabəy Cahan Pəhləvanın sifarişi ilə ucaldılmış Möminə xatun türbəsi, XV əsrdə Şirvanşah I Xəlilullah tərəfindən Bakıda tikilmiş Saray kompleksi, Böyük Moğollar sülaləsindən olan hökmdar Cahan şahın sifarişi ilə ucaldılmış Tac-Mahal bu cür abidələrdəndir.

"Lider və paytaxt" mövzusu onlarla assosiasiya yaradır. Dəyişilməyən cütlüklər sıralanır: İsfahan – Şah Abbas, Səmərqənd – Əmir Teymur, Vaşinqton – "qurucu atalar"... Əsası Makedoniyalı İsgəndər tərəfindən qoyulan və onun şərəfinə İsgəndəriyyə adlandırılan şəhərlər və Təbrizi dirçəldərək qüdrətli Azərbaycan dövlətinin paytaxtı elan edən sülalələrin missiyası yada düşür; Nevanın bataqlıq sahillərində Böyük Pyotrun dahiyanə əsəri olan Sankt-Peterburqun yaranmasının möhtəşəm mənzərəsi və Qarabağ xanlığının paytaxtı, Azərbaycanın görkəmli dövlət xadimi Pənah xan Cavanşir tərəfindən düşünülmüş və yaradılmış, ilkin adı Pənahabad olan gözəl Şuşa göz önündə





canlanır; Braziliya paytaxtının görkəmli memar Oskar Nimeyer tərəfindən yaradılmış fantastik cizgiləri gələcək şəhərlərin xəyalı kimi ortaya çıxır...

Böyüklüyünə və imkanlarına görə Azərbaycanın və bütövlükdə Qafqazın birinci şəhəri olan Bakı XX əsrin ikinci yarısında tarixinin yeni səhifəsinin başlanacağı, öz əzəmətinə görə heç də geri qalmadığı digər məşhur paytaxtlarla bərabər tutulacağı zamanı gözləyirdi. O zaman gəlib çatdı. Bakının şəhərsalma, memarlıq, sosial-iqtisadi və siyasi tarixinin müxtəlif zaman təbəqələri arasında XX əsrin 70-80-ci illəri xüsusi yer tutur. Həmin ərəfədə Bakıda "dəbdəbəli obyektlər"in tikintisi, müəyyən əhəmiyyətə malik memarlıq ansambllarının yaradılması prosesi dayanmış, şəhərsalma strukturlarının modernləşdirilməsi konsepsiyalarının bir çoxu arxivə verilmişdi. Bakı özünün paytaxt əzəmətini itirərək sıx əhalisi olan adi şəhərə çevrilirdi. Bakının "neft kraliçasının taxt-tacı"na bənzədilməsi artıq sırf tarixi xarakter daşıyırdı.

Bu halı yalnız respublikanın iqtisadi-ictimai vəziyyəti əsasında qiymətləndirmək və anlamaq olar. Azərbaycan həmin vaxt SSRİ-nin əsas yanacaq-enerji bazası kimi əhəmiyyətini itirmişdi. Rentabelli olmayan struktur və obyektlərə marağını itirən inzibati-bürokratik sistemin qüsurlu təcrübəsi nəticəsində Azərbaycanın iri və kiçik şəhərlərinin, o cümlədən də Bakının maliyyələşdirilməsinin, iqtisadi və demoqrafik proqramların, əsaslı tikintilərin, abadlıq işlərinin səviyyəsi kəskin şəkildə azalmışdı.

Nəhayət, 1969-cu ildə Azərbaycanın rəhbərliyinə öz xarakterində və iş üslubunda durğun, köhnəlmiş strukturları kökündən dəyişmək coşqunluğunu, praqmatik sərrastlıq və hesablama dəqiqliyini birləşdirən enerjili lider – Heydər Əliyev gəldi. Onun qarşısında Bakıya SSRİ-nin iqtisadi cəhətdən ən inkişaf etmiş və gözəl şəhərlərindən biri şöhrətini qaytarmaq, onu estetik baxımdan müasir, sənaye cəhətdən güclü, sosial cəhətdən təmin olunmuş, ekoloji cəhətdən təmiz bir şəhərə çevirmək vəzifəsi dururdu. Bütün bu problemlərin həll yolları iqtisadiyyatda idi. Aydın idi ki, sosialist əmək bölgüsü və kooperasiya sistemində birtərəfli, əsasən, hasilat sənayesinə, monokultura ilə səciyyələnən geridə qalmış kənd təsərrüfatına malik bir respublika mərkəzdən özünə qarşı xüsusi münasibət göstərilməsinə, büdcənin maliyyələşdirilmə və formalaşdırılması məsələlərində hansısa imtiyazlara iddia edə bilməzdi. Üstəlik SSRİ-nin mərkəzi siyasi və hökumət orqanlarında hökm sürən məmur bürokratiyası istənilən təşəbbüsə, xüsusilə də müttəfiq respublikalar arasındakı mövcud münasibətlər balansını poza biləcək təşəbbüslərə ehtiyatla yanaşırdı.

Belə bir vəziyyətdə Azərbaycanın potensial imkanlarını aşkar etmək, reallaşdırmaq və onu respublikaların kifayət qədər gərgin və dramatik keçən rəqabətində ön cərgəyə çıxarmaq xüsusilə çətin məsələ idi. Çünki bu və ya digər respublikanın rəqabətdə qələbəsi ona İttifaq büdcəsindən əlavə vəsait ayırmaları, nüfuzlu obyektlərin tikilməsi, sosial təminatların





genişlənməsi, hətta bölgədə daha böyük siyasi azadlıqlar verilməsini vəd edirdi.

Heydər Əliyevin israrlı səyləri nəticəsində İttifaqın mərkəzi orqanları bir sıra proqramlar qəbul etdi, onların həyata keçirilməsi Azərbaycanın sənaye profilini kökündən dəyişdirdi, kənd təsərrüfatını müasirləşdirməyə və bütün infrastrukturu yenidən qurmağa imkan yaratdı. Azərbaycan neft çıxaran respublikadan neft emal (istehsal) edən respublikaya çevrildi, neft maşınqayırmasında, məişət kondisionerlərinin, elektrotermik avadanlıqların, soyuducuların istehsalında ölkə üzrə aparıcı yerləri tutdu. Respublikada kompüter, radiotexnika, mühərrik, refrijerator istehsal edən zavodlar və onların filialları yarandı. Azərbaycan üzümçülük, faraş tərəvəzçilik sahəsində liderə çevrildi, çayçılıq və tütünçülükdə mövqelərini möhkəmləndirdi. Müharibənin bitməsindən otuz il sonra Bakı şəhərinin İkinci Dünya müharibəsində cəbhə bölgələrinin neft məhsulları ilə təchizatının təmin edilməsində xidmətlərinə görə SSRİ-nin ən yüksək mükafatı olan Lenin ordeni ilə təltif edilməsi Azərbaycanın və onun paytaxtının reytinqinə təsir edən siyasi addım idi.

Bütün bunlar Azərbaycanın həyatında böyük dəyişikliklərə səbəb oldu və Bakının tarixinin dönüş nöqtəsinə çevrildi. Başlanmış dəyişikliklər paytaxtın özünün ab-havasını, həyat tempini, iş tərzini, işgüzar görüşlərini, hətta onun sakinlərinin istirahətini də sürətlə dəyişdirdi. Həyat keyfiyyətinin özü də dəyişir, real obyektləri, vəziyyətləri, insanlar arasında,

hakimiyyət nümayəndələri ilə xalq arasında qarşılıqlı münasibətləri də dəyişdirirdi. Bu baxımdan 70-80-ci illər daha çox işgüzarlıq, qarşılıqlı məsuliyyət hissi, zərurətlə səciyyələnən yeni ünsiyyət tərzi illəri idi.

Müasirlik Bakıya sürətlə daxil olur, lakin ənənələri, qədimliyi də qoruyur, sanki onları özünə çəkir və yeni zamanəyə, cəmiyyətdə qızğın şəkildə təsdiqlənən yeni işgüzarlıq, estetika, mənəviyyat meyarlarına uyğunlaşdırırdı.

Heydər Əliyevin memarlıqla bağlı estetik zövqü Naxçıvanda, dahi memar Əcəmi Naxçıvaninin yaratdığı füsunkar orta əsr məqbərələrinin və Naxçıvanın digər qədim abidələrinin təsiri ilə formalaşıb. Onun doğulduğu və gənclik illərini keçirdiyi şəhəri əbəs yerə açıq səma altında muzey adlandırmırlar. Bir sıra arxeoloqların fikrinə görə, Naxçıvan yaşayış məskəni kimi təxminən 3500 il bundan əvvəl meydana çıxıb. Ulu əcdadlarımız burada – Əlincə qalasında igidlik və dəyanət məktəbi keçiblər. Bəzi tədqiqatçıların ehtimalına görə, Bibliya peyğəmbəri Nuh öz gəmisini məhz Naxçıvanda dayandırıb və burada ilk üzüm tingini basdırıb. Arxeoloqlar ən qədim insan məskənlərindən olan şəhərlərin divar qalıqlarını məhz burada aşkar ediblər. Naxçıvanın təbiəti dağ silsilələrindəki qəribə qırılmaları, yarımsəhraları, yaylaqları, duz mədənləri, coşqun Arazı, Batabatın şəlalə və gölləri, Ordubadın bağları ilə heyrətamizdir. Sanki onun özü insana xəyal qurmağı, yaratmağı öyrədir... Bu səbəbdən Naxçıvan memarlıq məktəbinin bütün yaxın və uzaq ölkələrə belə güclü təsir göstərməsi təbiidir.





Ola bilsin ki, müstəqil həyata başlayarkən taleyini memarlıq aləmi ilə birləşdirmək istəyi də mühitin özündən, yaxud da Heydər Əliyevin fitri qurub-yaratmaq həvəsindən irəli gəlirdi. O, Bakıda Politexnik İnstitutunun Memarlıq fakültəsinə daxil olmuşdu. Lakin onda qeyri-adi təşkilatçılıq bacarığı, qabarıq liderlik keyfiyyətləri sayəsində siyasətə sonradan yaranan maraq memarlıq həvəsindən güclü çıxdı. O kimdir: siyasətçi, yoxsa memar? Burada iki başlanğıcın, bir-birindən kifayət qədər uzaq olan iki meylin mübahisəsindən yox, sintezindən danışmaq yerinə düşər. Memarlıqla, şəhərlərin planlaşdırılması və tikintisi ilə bağlı maraqlar öz adekvat əksini siyasi təfəkkürün xüsusiyyətlərində, təcrübədə isə bu və ya digər dövlət tədbirinin keçirilməsinin üslubunda və xarakterində tapır.

Heydər Əliyevin siyasi imicini bəyanatlar deyil, görülən işlərin enerjisi və dinamikası müəyyən edir. O istər siyasətə, istərsə də tikintiyə aid məsələlərdə estetik və əməli vəzifələrə cavab verən konkret layihələri mücərrəd layihələrdən üstün tutur. İstənilən işə qüsursuz planla, fəaliyyətin bütün mərhələlərinin ətraflı işlənib-hazırlanması ilə, həyata keçirilməli olanın tam təsəvvürünün yaradılması ilə başlayır. Bu xəyali layihələndirmə prosesi hansısa sxemin, reallığın səthi birölçülü mənzərəsinin yaradılmasını deyil, bir çox cisimlərin, müxtəlif həcmlərin, xətlərin, rənglərin, səslərin məcmusunun incəliklərinədək aydın görüntüsünü, yəni həyatın özünün müxtəlifliyini nəzərdə tutur. Ona görə də onda şəhərsalma vəzifəsinin

miqyası və əhəmiyyəti detallara, dekorasiyaya, milli koloritə ciddi diqqət yetirməklə birləşir.

Heydər Əliyev köhnə ilə yeninin, ənənəvi olanla müasir Bakı konstruktivizmi və modernist cərəyanların yaradıcı birləşməsindən formalaşacaq "yeni Bakı" yaratmaq istəyirdi. Qarşıya Bakının orta əsrlərdən qalma hissəsinin şəhərsalma üsullarının bütün mövcud üsullarını, tarixi dəyərlərini, kamera həcmlərini qoruyub saxlamaq və eyni zamanda keçmiş SSRİ-nin dördüncü böyük şəhərinin bütün sənaye gücünü yeni istehsal zonalarında təcəssüm etdirmək vəzifəsi qoyulmuşdu. Bu plan elmi hesablamalara, diqqətlə yoxlanılmış iqtisadi, sosial və texniki proqramlara söykənirdi, volyuntarizmdən uzaq idi.

Arxitektorların ideyaları rəhbərin paytaxtı yenidən qurmaq planlarına uyğun şəkildə doğulur, eyni zamanda onun ideyaları da inşaatçıların imkanları, memarların yaradıcı təxəyyülü ilə düzəlişə məruz qalırdı. Ona görə də bu illərdə yeni obyektlərin tikintisi prosesində həm estetik, həm də texnoloji səviyyə çox yüksəlmişdi. "Yeni Bakı" adət-ənənələrin, memarlıq və tikinti üslublarının, bəzək detallarının müxtəlifliyi ilə təmsil olunan müasir şəhər kimi tikilir və ümumi kontekstdə yaddaqalan, maraqlı quruluşu ilə yeganə olan Azərbaycan paytaxtı görünüşü yaradırdı.

Memarlıq və şəhərsalma axtarışlarının formalaşmış konsepsiyası bir neçə komponentdən ibarət idi: dünyəvi və milli idealları özündə birləşdirən gözəllik, rasionalizm, etibarlılıq, rahatlıq, həm ənənələrə hörməti, həm də cəsarətli





eksperimentləri əks etdirən üslub ardıcıllığı, nəhayət, ətraf mühitə və demoqrafik dəyişikliklərə uyğunluq.

Mən Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda və onun paytaxtında gedən genişmiqyaslı tikinti və yenidənqurma proseslərini kənardan müşahidə edənlərdən deyil, nəhəng islahat proqramlarının birbaşa icraçılarından biri idim. Ona görə də bunu deməyə mənəvi haqqım var: məhz rəhbərin enerjisi, təşkilatçılıq istedadı, istər estetik, istərsə də praqmatik, əməli maraqlardan qaynaqlanan iradəsi Azərbaycanın və Bakının yeni dirçəlişinin, həqiqətən, epoxal proqramını həyata keçirməyə imkan verdi. Bu çox böyük bir iş idi və kollektiv iradə və intellekti birləşdirərək, böyük insan kütlələrinə enerji verərək, bütün cəmiyyətimizə yaradıcı impulslar verərək peşəkarlıqla və səriştəli şəkildə həyata keçirilirdi. Biz gündəlik zəruri ehtiyaclar üçün deyil, gələcək üçün, sonrakı nəsillər üçün, son nəticədə isə tarix üçün qurub-yaratdığımızı dərk edirdik.

Bakıda ən görkəmli arxitektura və memarlıq nümunələrinə onların tikintisinə maliyyə və ideoloji cəhətdən, müasir dillə desək, "sponsorluq" edən milyonerlərin, sənət himayəçilərinin, ictimai-siyasi xadimlərin adının verilməsi ənənəsi əzəldən bəri mövcud olub: Şirvanşahlar sarayı, Tağıyev teatrı, Muxtarov sarayı, Bağırov körpüsü, Hacınskinin evi, İsmailiyyə binası və s. Bakıda onlarla, bəlkə də, yüzlərlə bu cür "adlı" binalar var...

Lakin Bakıda Heydər Əliyevin təşəbbüsü ilə ucaldılan binaları bir yerə toplayıb funksional təyinatına uyğun yerləşdirsək, bütöv bir şəhər yaranar...

Yalnız quruda yerləşməyən, həm də dənizə, estakadalara, amfibiya-şəhər olan Neft Daşlarına çıxan, paytaxt strukturlarını və sənayeni, turizm və kənd təsərrüfatını (zəfəran plantasiyaları, zeytun bağları və s.), mədəniyyəti və təhsili eyni vaxtda inkişaf etdirməyə çalışan bu şəhərdə müxtəlif mədəniyyətlərin fenomenləri, qədimlik və müasirlik, prospektlərin genişliyi və kiçik şəhər bağlarının rahatlığı bir-biri ilə bəhsə girmir, ahəngdar şəkildə yanaşı yaşayırdı. Həmin illərdə ucaldılan inzibati binalar xüsusi əzəməti, ciddi dəbdəbəsi ilə seçilirdi. Onlar şəhər mənzərəsinin əsas yerlərini tutur və ətraf ərazilərin: Prezident Administrasiyasının, Ali Sovetin (hazırda Milli Məclisin), DTK (DTX), Neft Maşınqayırması İttifaqı ("Soyuzneftemaş"), Tikinti Bankı ("Stroybank"), Texnoloji Tikintinin Təşkili ("Orqtexstroy") kimi idarələrin, respublika prokurorluğunun, Səbail, Nərimanov, Nəsimi və digər rayonların inzibati mərkəzlərinin binalarının bütün tikinti və yenidən qurulmasının xarakterini müəyyən edirdi. Yeni "sənaye estetikası" ilə birləşən konstruktiv sadəlik və funksionallıq sənaye obyektlərinin layihələşdirilməsi və tikintisində əsas üslub istiqamətinə çevrilmişdi. Nəhayət, zavod və fabrik binaları aydın ifadə olunan fərdilik əldə etmişdi. Bu obyektlərdən heç olmasa bəzilərini xatırlayaq: Məişət Kondisionerləri Zavodu, Elektron Cihazlar Zavodu, "Ulduz", Şampan Şərabları Zavodu, Dərin Özüllər Zavodu, "Elektroterm" zavodu, Ayaqqabı Fabriki və s.

Azərbaycan memarlıq məktəbində və dünya memarlıq-tikinti təcrübəsində toplanmış ən yaxşı ənənələrin hamısı





mədəniyyət, idman və sosial sahə obyektlərində öz əksini tapmışdı. Bakı təkcə orta əsr memarlığının şah əsərlərinə, kapitalizm dövründə ucaldılmış binalara görə deyil, həm də müasir dövrün möhtəşəm tikililərinə görə tanınmağa başladı. Memarların təxəyyülü Respublika sarayı, Gülüstan sarayı, İdman sarayı, Televiziya Qülləsi, Əl oyunları sarayı, Bakı və Zuğulbada dövlət qonaq evləri, "Azərbaycan", "Abşeron", "Moskva" mehmanxanaları, Şərq bazarı, "Moskva" univermaqı kimi tikililərin cəsarətli forma və cizgilərini yaratdı.

Həmin illərdə təhsil sisteminin, elmi bazanın intensiv şəkildə yenilənməsi və inkişafı prosesi gedirdi. Bu, təhsil ocaqları və elmi institutlar üçün binaların tikilməsini stimullaşdırırdı. Azərbaycan Ensiklopediyasının, Partiya Tarixi İnstitutunun və Partiya Arxivinin, Bakı Xoreoqrafiya Məktəbinin binalarının görünüşü çox möhtəşəmdir.

Səhiyyə müəssisələrinə xüsusi diqqət ayrılır, bu da özünü onların memarlıq görünüşündə, tikintisinin keyfiyyətində göstərir. Oftalmoloji xəstəxana, Diaqnostika Mərkəzi, Onkoloji Mərkəz və başqa müəssisələr öz genişliyi ilə fərqlənir.

Paytaxtın meydanlarında, demək olar ki, hər il yeni möhtəşəm abidələr: Nəriman Nərimanovun, Nəsiminin, Cəfər Cabbarlının, Rixard Zorgenin, Hüseyn Cavidin, Səttar Bəhlulzadənin heykəlləri ucaldılırdı.

Bakının indi fəxrlə "Azadlıq" adını daşıyan baş meydanı simasını dəyişib. Onun vaxtilə formasız olan sahəsi əsaslı surətdə düzəldilib və planlaşdırılıb. Meydanı kənarlardan əhatə

edən "Azərbaycan" və "Abşeron" mehmanxanalarının hündür binaları, yaşayış binaları və Mərkəzi Poçtamt binasının sayəsində vaxtilə təkbaşına ucalan Hökumət Evinin ahəngdar surətdə uyğunlaşdığı bir ansambl yaranıb.

Bakı nəqliyyat və yol qovşaqlarının, "Nizami"-"Memar Əcəmi" xətti boyunca metro stansiyalarının tikintisində belə bir miqyasa şahid olmamışdı. Yeni metro xətlərinin istifadəyə verilməsi şəhərin quruluşundakı qeyri-müəyyənliyi aradan qaldırdı, onun mikrorayonlarını, yaşayış və sənaye məhəllələrini mərkəzə yaxınlaşdırdı. Bir vaxtlar Bakıda istifadəyə verilən metro "ilk sovet elektrik qatarı" kimi artıq şəhərin və şəhərlilərin həyat ritmini müəyyən edirdi. Qaqarin və Sabunçu yolötürücülərinin istifadəyə verilməsi nəqliyyatın yüklənmə dərəcəsini əhəmiyyətli şəkildə azaltdı.

Həmin vaxt paytaxtda Dəmiryol və Dəniz vağzallarının müasir və möhtəşəm binaları yarandı, hava limanının tikintisinə başlanıldı.

Bakının ətraf ərazilərində, bütün Əhmədli yaylasında kütləvi şəkildə aparılan tikintilər paytaxtın inkişafında mühüm mərhələlərdən biri oldu. Burada mahiyyət etibarilə cəmi bir neçə il ərzində yeni şəhər yarandı. Yeni mikrorayonlar daim böyüyür, öz hüdudlarını genişləndirirdi.

Kürün suyu borularla Bakıya gətiriləndən sonra onu ölkənin yaşıllığı ən çox olan şəhərinə çevirmək üçün real imkanlar yarandı. Əvvəllər istifadəyə yararlı olmayan daşlı torpaqlarda: Şıxov çimərliyində, Bakıxanov və Badamdar qəsəbələrində





yeni parklar salındı. Bakı-Binə hava limanı yolunu yaşıllıqlar bəzədi. Bakıda Respublika sarayının qarşısında, eləcə də Lermontov küçəsindən yuxarıda su şəlalələri ilə bəzədilmiş gözəl meydanlar yarandı.

Kifayət qədər yığcam verilmiş bu siyahıya İçərişəhərdə, Qobustan arxeoloji qoruğunda, atəşpərəstlərin məbədi Atəşgahda, Əmircan və Təzəpir məscidlərindəki əsaslı bərpa işlərini də əlavə etsəniz, Bakıda aparılan qızğın quruculuq işlərinin geniş miqyasını təsəvvür edə bilərsiniz.

Bütün bu tikililər paytaxtın mənzərəsinə ahəngdar şəkildə uyğunlaşır, ona yeni ifadəli xüsusiyyətlər əlavə edir, görünüşünü müasirləşdirirdi. Onların miqyası, dinamik cizgiləri, bəzəklərin və interyerin yeni tərzdə anlaşılan və yozulan milli detalları, tikinti materiallarının yığma dəmir-beton, mərmər, qranit və travertinlə qarışıq ənənəvi Abşeron əhəngdaşısından ibarət zəngin çeşidləri, onların planlaşdırılmış quruluşu və ekoloji əhatəsi bu gün o dövrün dinamikasını, estetik ideallarını, insanlarının müəyyən əmək və məişət xüsusiyyətlərini bərpa etməyə imkan verir. Həmin dövrdə tikilmiş obyektlər diqqət və düşüncələri təkcə miqyasının böyüklüyü və detallarının nəfis təsviri ilə cəlb etmir. Onların şərti mənzərəsini anlayaraq, taleyini düşünərək labüd bir nəticəyə gəlirsən: bu tikililər sanki Bakının daş salnaməsinin yeni parlaq səhifələrinə, eyni zamanda da gələcəyinin timsalına çevrilərək, tamamilə orijinal və həyat qabiliyyətli, uzun müddətə hesablanmış geniş şəhərsalma təmayüllərini formalaşdırır.

Bu illərdə ölkə memarlığının nəzəri bazası əhəmiyyətli dərəcədə möhkəmləndi. Müstəqil İnşaat Mühəndisləri İnstitutunun yaradılması ilə ölkədə ən nüfuzlu peşələrdən biri olan neftçi peşəsi ilə yanaşı, memarlıq və inşaat ixtisasları üzrə mütəxəssislərin hazırlanması üçün daha geniş imkanlar yarandı. Həmin illərdə memarlıq üzrə ixtisaslaşmış namizədlər və doktorlar arasından çox fəal alim və professor-müəllim qrupu formalaşmışdı. Azərbaycan və İslam memarlığının aktual məsələləri üzrə çoxlu tədqiqat aparıldı, milli memarlığın tarixi, bu günü və gələcəyinə dair Moskvada, Leninqradda, Bakıda nəşr olunan bir sıra monoqrafiyalar, kollektiv əsərlər ortaya çıxdı.

Azərbaycanlı mütəxəssislər bir çox ümumittifaq və beynəlxalq yarışmalarda iştirak edirdilər. Azərbaycan memarlarının, layihəçi və inşaatçılarının axtarış və kəşfləri keçmiş İttifaqın müxtəlif regionlarında öz həllini tapmış bir çox şəhərsalma, mədəni-estetik və sosial vəzifələrin həyata keçirilməsində əməli şəkildə çox geniş tətbiq olunurdu. Azərbaycanlı memar və heykəltaraşların layihələri Moskva, Leninqrad, Ulyanovsk, Tbilisi, Daşkənd, Düşənbə, Aşqabad, Mahaçqala, Vladiqafqaz, Taqanroq və Krımda uğurlu şəkildə həyata keçirilmişdi.

Heydər Əliyev SSRİ Rəssamlıq Akademiyasının 1981-ci ildə Bakıda keçirilən səfər sessiyasında çıxış edərkən Azərbaycanda həyata keçirilən və bütün ölkənin diqqətini cəlb edən genişmiqyaslı quruculuq proqramını nəzəri cəhətdən ətraflı şəkildə





əsaslandırdı. O, müasir siyasi funksionerlər arasında ilk dəfə olaraq yeni memarlıq və tikinti meyarlarının praktikada tətbiq edilməsinin zərurətindən danışdı. Bu meyarlara əsasən, məlum "qənaətcillik" tələbi estetik kateqoriyaların həyata keçirilməsinə mane olmayacaqdı. Heydər Əliyev akademiyanın strukturunda memarlıq şöbəsinin yaranmasını sevindirici hal kimi qeyd etdi. Onun sözlərinə görə, bu, memarlıq və təsviri sənətin sintezi kimi aktual bir məsələnin uğurlu həllinə imkan yaradırdı.

Heydər Əliyevin Moskvada, xüsusi olaraq dəvət olunduğu Arxitektorlar evində çıxışı proqram xarakteri daşıyırdı. O, arxitektura haqqında yüksək estetik prinsipləri özündə cəmləşdirən və bununla yanaşı, böyük ictimai, siyasi və iqtisadi əhəmiyyət daşıyan intellektual sahə kimi danışırdı. Bütün tikinti kompleksinin təkmilləşdirilməsi, obyektlərin tikinti müddətini qısaltmağa, tikintinin keyfiyyətini yüksəltməyə imkan yarada biləcək güclü texnoloji xətlərin yaradılması yolları haqqında danışırdı. İnşaatçılar, memarlar və park landşaftları, yaşıllıq zonaları üzrə mütəxəssislər, arxitektorlar və monumentalist rəssamlar arasında sıx yaradıcılıq əlaqəsinin zəruri olduğunu vurğulayırdı. O, ölkədə və bütün dünyada məşhur olan nüfuzlu arxitektorlar qarşısında çıxış edirdi və onlar iqtisadi, sosial və mədəni sahələrdə, o cümlədən memarlıq və şəhərsalma sahələrində ən enerjili və cəsarətli islahatçı kimi şöhrət qazanmış bu insana diqqətlə qulaq asırdılar.

"Hesab edirik ki, – o öz çıxışında vurğulayırdı, – respublikamızın arxitektorları öz yaradıcılıqlarında fəal mövqe tutmalı,

tikilməkdə olan hər obyektin yüksək arxitektura ifadəliliyinə nail olmalı, öz istedadlı və görkəmli sələfləri kimi gözəl əsərlər yaratmalıdırlar".

Rəhbərin qeyd etdiyi bütün tikinti-arxitektura kompleksinin yenilənməsi proqramı son dərəcədə konkret, kifayət qədər real idi və eyni zamanda öz böyük miqyası ilə heyrətləndirirdi. Bu görüşlərin iştirakçılarının təsəvvürlərində gələcəyin şəhərləri, yüksək funksionallığı və müasir tərtibatı ilə seçilən binalar, ansambllar, sənaye kompleksləri canlanırdı. Bu şəhərlərdə rahat yaşamaq, məhsuldar işləmək və faydalı istirahət etmək üçün lazım olan hər şey nəzərə alınmışdı. Hamı bilirdi ki, cari və uzunmüddətli vəzifələr kimi nəzərdə tutulan bu işlərin böyük hissəsi artıq Azərbaycanda, Bakıda, respublikanın 100-dək irili-xırdalı şəhərində öz təcəssümünü tapıb. Amma eyni zamanda Azərbaycanın tikinti sənayesi qarşısında qoyulmuş vəzifələr o qədər böyükmiqyaslı idi ki, bütün layihələri kifayət qədər məhdud vaxt ərzində həyata keçirməyə imkan vermirdi. Bu layihələr, əsasən, gələcəyə hesablanmışdı və yeni əsrin böyük şəhərinin konturlarını ifadə edirdi.

Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri oldu. Odur ki çertyoj və planşetlərdə nəzərdə tutulanların çoxu Heydər Əliyev Azərbaycanı tərk edəndən sonra da reallaşmaqda davam edirdi. Onu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində yeni islahatçılıq işləri, yeni nailiyyətlər gözləyirdi. Heydər Əliyev böyük ölkənin ən həyati əhəmiyyətli sahələrinə nəzarət edirdi: o, nəhəng BAM-ın və həmin istiqamətdə





dəmiryol vağzallarının və şəhərlərin tikintisinə cavabdeh idi; Moskvada Rumyantsev (Lenin) kitabxanasının, Tretyakov qalereyasının, Kiçik Teatrın və Böyük Teatrın yenidən qurulmasına, ölkədə maşınqayırma və yüngül sənaye obyektlərinin planlaşdırılmasına və tikintisinə rəhbərlik edirdi...

Lakin o, işinin çoxluğuna baxmayaraq, doğma Azərbaycanı da yaddan çıxarmırdı. Onun təşəbbüsü ilə İttifaq hökuməti respublikanın taleyi üçün çox mühüm olan qərarlar qəbul etmişdi: Azərbaycanın Xəzər sahillərinin SSRİ-nin ikinci mühüm kurort və turizm bazasına çevrilməsi haqqında; Gəncədə böyük avtomobil zavodunun tikilməsi haqqında; Ermənistan ərazisindən keçməklə Naxçıvana avtomobil yolunun çəkilməsi haqqında; Bakı metropoliteninin gələcək inkişafı haqqında və s.

Qanunauyğun tarixi proseslər nəticəsində SSRİ dağıldı. Bir çox möhtəşəm sosial-iqtisadi proqramlar onun dağıntıları altında qaldı. 1990-cı ilin əvvəlinin həm faciəli, həm də qəhrəmanlıqla dolu hadisələri Azərbaycanın, Bakının taleyində çox şeyi dəyişdirdi. Müstəqillik uğrunda mübarizə, ərazi bütövlüyü uğrunda müharibə, onların yaratdığı siyasi gərginlik, sosial problemlər, iqtisadi böhran bizi keyfiyyətcə fərqli vəzifələri həll etmək, ekstremal problemlərin aradan qaldırılması və dövlətin yenilənməsi haqqında düşünmək zərurəti qarşısında qoydu...

Biz çox qurbanlar verdik, lakin əsas məqsədə – müstəqillik əldə etməyə nail olduq. Biz dünya birliyində ləyaqətlə təmsil olunuruq, bütün dünyada tanınırıq, suveren dövlətə

çevrilmişik və bizim Nyu-York, İstanbul, Neapol, Pekin, Madrid kimi şəhərlərlə eyni coğrafi enlikdə yerləşən paytaxtımız təkcə coğrafi baxımdan deyil, həm də sosial-iqtisadi, siyasi, geostrateji baxımdan onlarla bərabər olmağa çalışır.

Azərbaycan Prezidenti Heydər Əliyev mühüm xidmətlərinə görə 1994-cü ildə Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının fəxri akademiki seçilmişdir. Əminəm ki, Bakının bundan sonrakı yenidən qurulması ilə bağlı onun nəzərdə tutduğu xətt Azərbaycan paytaxtının yeni dirçəlişi üçün əsas olacaq. Bakını intibahın yeni mərhələsi gözləyir: o, iqtisadi-siyasi fırtınalardan sarsılmış, ekoloji və sosial cəhətdən mürəkkəb şəhərdən inkişaf etmiş dövlətin paytaxtına, dünya mədəniyyətinin, elm və təhsilinin mərkəzlərindən birinə çevriləcək. O zaman biz XX əsrin 70-80-ci illərində formalaşmış şəhərsalma dərslərini və təcrübəsini bir daha xatırlayacağıq və həqiqət bizə bütün aydınlığı ilə görünəcək: paytaxt və lider tarixi davam etdirmək, xalqını bütün dünyaya tanıtmaq, milli dövlətçiliyimizin bünövrəsini möhkəm və sarsılmaz etmək üçün bir-birində təcəssüm olunur və bir-birində davam edir.



# GƏLƏCƏK HAQQINDA... XATİRƏLƏR

(Bakı, 10 sentyabr 2021-ci il, AzərTAc)

*Şuşaya səfərin nəticələri əsasında yazdığım bu oçerki mən keçmiş haqqında xatirələri gələcək üçün vəzifələrlə heyrətamiz şəkildə birləşdirməyi bacaran Prezident İlham Əliyevin çıxışlarının təsiri ilə "Gələcək haqqında... xatirələr" adlandırdım.*

❈

2021-ci il avqustun 25-i... Saat 17:59-da dövlətimizin başçısının köməkçisi Anar Ələkbərov zəng vuraraq bildirdi ki, Prezident İlham Əliyev məni Şuşada keçiriləcək Vaqif Poeziya Günlərində iştiraka dəvət edir. Bu xəbəri böyük sevinclə qarşıladım və dəvətə görə prezidentə mənim təşəkkürümü çatdırmasını xahiş etdim. Sonra bütün fikirlərim doğma Qarabağ və əfsanəvi Şuşa şəhəri ilə qarşıdakı görüş üzərində cəmləşdi.

Avqustun 28-də səhər tezdən biz, qarşıdakı Vaqif Poeziya Günlərinin yüzdən çox iştirakçısı, Şuşaya yola düşdük. Bu şəhər son 30 ilə yaxın müddətdə erməni işğalı altında olmasına baxmayaraq, Azərbaycan xalqının onunla mənəvi əlaqələri daha da möhkəmlənib.

Mən həyatım boyu Azərbaycanı çox gəzməli olmuşam, lakin əvvəlkilərdən əsaslı şəkildə fərqlənən bu səfərin məndə doğurduğu emosiyaları üstələməyə çətinlik çəkirdim... Son illərdə Azərbaycan necə gözəlləşib, necə keyfiyyətli magistral yollar salınıb, nə qədər yeni, gözəl tikililər yaranıb, rayon mərkəzləri qəsəbələrdən abad şəhərlərə çevrilib, hər bir kənddə peşəkar memarlığı ilə seçilən iki-üç mərtəbəli yeni binalar var.

Xəyal məni uzaq keçmişə aparır. Bu diyarda çox xalqlar yaşayıb, onların ən məşhurları müasir türklərin əcdadları kimmerlər və skiflər olub, bu tayfaların Qamir və Aşquz dövlətləri barədə eramızdan əvvəl VIII-VII əsrlərə aid Assuriya mixi mətnlərində məlumat verilir. Qafqaz dağlarından Araz çayının sol sahilinə, Xəzər sahillərindən Cənubi Qafqazın mərkəzi hissələrinə qədər olan əraziləri bir-birinin ardınca bu dövlətlər tutub. Məhz Cənubi Qafqazın şərq hissəsində yerləşən Aşquz ölkəsində yaşayan skiflər Atropatena-Adorbayqan-Azərbaycan adlı yeni çarlıq yaradıblar. Bu ölkə Qafqaz dağlarından Zaqros dağlarının şərq ucqarlarına, Xəzər sahillərindən Kappadokiyada Qalis çayına qədər olan ərazini tuturdu. IV əsrdə yaşayıb-yaratmış romalı müəllif Ammian Marsellin bildirir ki, bu





hadisə eramızdan əvvəl 612-ci ildə Assuriya imperiyasının süqutu nəticəsində baş verib. V əsr Suriya salnaməçisi de bet Selox bildirir ki, bunu skif çarı, Arbak-Arpat-Orbay tituluna sahib olan Madi edib. 1748-ci il tarixli ingilis nəşrində və 1765-ci ildə dərc edilmiş Fransa Ensiklopediyasında bildirilir ki, Madi adlı skif çarı, əslində, türklərin böyük əcdadı Oğuz xan olub. Azərbaycan (Atropatena-Adorbayqan) adlı dövlətin Oğuz xan tərəfindən yaradılması barədə XIII əsr Azərbaycan tarixçisi Fəzlullah Rəşidəddin də yazır. İlkin orta əsrlər dövrünə aid üç ərəbdilli və farsdilli mənbədə VII əsr hadisələrindən bəhs edilərək deyilir: "Azərbaycan türklərin diyarıdır. Onlar qədim vaxtlardan orada cəmləşib və bir-biri ilə qarışaraq inkişaf edib, güclənibiblər"...

Mənim tarixə meylimi nə ilə izah etmək olar? Bəlkə, yaşımla? Ola bilər. Axı mənim yaşım 80-i keçib... Lakin indiki halda Vətənimiz döyüş meydanlarında müdafiə edildiyi bir vaxtda bizim tariximizin qorunması xüsusi əhəmiyyət kəsb edir. Axı bizim torpaqlara qəsd edilməsi ilk növbədə tariximizə qəsd edilməklə həyata keçirilir. Buna görə də bizim nəslin qismətinə öz Vətənimizi həm qılıncla, həm də qələmlə qorumaq zərurəti düşüb. Prezidentimiz İlham Əliyev buna nümunə göstərir, çıxışlarının çoxunu tarixi paralellərlə illüstrasiya edir, tarixi hadisələrə, əlamətdar günlərə, toponimlərə müraciət edir. O, yaxın vaxtlarda çıxışlarının birində xalqımızın qarşısında birmənalı olaraq belə bir vəzifə qoyub: "Biz öz tariximizi unutmamalıyıq!"

...Kür çayının üstündən salınmış körpüdən keçirik. Aran adlanan bölgə buradan başlanır. Bu toponim ərəblərin buraya ilk gəlişi ilə bağlıdır. Onlar ərəb qrammatikasına uyğun olaraq, bu bölgəni müxtəlif şəkildə – "Alran" və ya "Arran" adlandırıblar. XII-XIII əsrlərdə yaşamış yazıçı və tarixçi Yaqut əl-Həməvi yazır ki, "Aran bu geniş vilayətin ərəbcə adı deyil", tarixçi Həmdullah Qəzvini (1281-1349) isə əlavə edir ki, "Aran əyaləti iki çay: məhz Araz və Kür arasında yerləşən torpaqlardır (ara, aralıq)". Bununla əlaqədar olaraq, "Aran" adı etimoloji baxımdan "çayarası" mənası verən qeyri-ərəb sözü kimi izah edilir. Başqa bir versiyaya görə, yerli əhali bu regionu sak mənşəli birinci alban çarı Aranın şərəfinə belə adlandırıb (bu barədə M.Kaqankaytuklu bildirir). Herodot isə öz növbəsində bu hadisələrdən neçə əsr əvvəl yazırdı ki, skiflər və saklar eyni xalqdır. Eramızdan əvvəl 612-ci ildən Atropatenanın tərkibində olmuş albanlar və saklar eramızdan əvvəl I əsrdən etibarən onun tərkibindən çıxaraq özlərinin Alban çarlığını yaradıblar. Eramızdan əvvəl VII əsrə aid Assuriya salnamələrində bildirilir ki, bu yerlərin ən qədim əhalisi skiflər – oğuzlar olub. Eramızdan əvvəl VI əsrə aid Bisütun mətnlərində qeyd edilir ki, burada saklar yaşayıblar. Makedoniyalı İsgəndərin bioqrafı Arrian eramızdan əvvəl IV əsrdə baş vermiş hadisələri təsvir edərək burada sakların və albanların yaşadığını bildirir. Daha sonra antik dövr müəllifləri Böyük Plini (b.e. 22-79-cu illər) və Strabon (b.e.ə. I əsr – b.ə. I əsr) bildirirlər ki, Kür və Araz çayları arasındakı





ərazidə saklar yaşayırdılar, bu regionu isə çox vaxt "Sakasena" adlandırırdılar.

...Artıq Azərbaycanın Qarabağ regionuna çatmışıq. Bütün ölkədə olduğu kimi, burada da bizi qarşılayan lövhədə Müzəffər Prezidentimiz İlham Əliyevin "Qarabağ Azərbaycandır!" sözləri yazılıb.

...Assuriya dövründə Qamir ölkəsinin, daha sonra Aşquzun tərkibinə daxil olmuş bu region antik dövrdə "Sakasena" adlanırdı. Bizim eranın VII əsrindən başlayaraq artıq "Aran" adı işlənir, F.Rəşidəddinin yazdığına görə, yalnız XIII əsrdən başlayaraq Aranın bir hissəsi Aran Qarabağ və ya, sadəcə, Qarabağ adlanmağa başlayıb. Minilliklər ərzində adlar dəyişib, lakin skif-sakların və onların hüquqi varisləri olan türklərin simasında yerli əhalinin etnik mahiyyəti dəyişməz qalıb. Paytaxtı Təbriz olan Azərbaycanın hökmdarı Qazan xan Hülakü də Azərbaycan dövlətçiliyinin prioritet mərkəzi kimi Qarabağın əhəmiyyətini vurğulayırdı. O, 1295-ci il noyabrın 3-də bir müsəlman kimi hökmdar taxt-tacına əyləşməsi münasibətilə andiçmə mərasimini məhz Qarabağda keçirib...

Rəngi solmuş asfalt yol qurtarır və 2020-ci il noyabrın 16-da salınmış, tünd-qara rəngli təzə asfalt döşənmiş yeni yol başlanır. Bu, Zəfər yoludur. Prezident İlham Əliyev bu yolu ordumuz Şuşa şəhərini azad edərkən keçdiyi yol haqqında xatirəni əbədiləşdirmək məqsədilə belə adlandırıb. Bu lövhəni hər kəs ən qiymətli dəyər kimi qarşılayır... Tezliklə Şuşaya çatacağıq və səfər yoldaşlarımın çoxu kimi, mən də hələ lap təzə, yaxın

vaxtlarda bu yerlərdə gedən döyüş əməliyyatları ilə bağlı fikirlərlə növbələşən xatirələrə dalıram... Allah bütün şəhidlərimizə rəhmət eləsin!

❉

...Mən Şuşaya ilk dəfə 1967-ci il yayın sonunda, hökumət komissiyasının tərkibində gəlmişdim. Həmin komissiyaya tapşırılmışdı ki, yaxın vaxtlarda burada baş vermiş qanlı cinayətin təfərrüatını araşdırsın. Hadisə isə belə olmuşdu: 1967-ci ilin may ayında keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin kəndlərinin birində azərbaycanlıya məxsus torpaq sahəsində vəhşicəsinə qətlə yetirilmiş erməni oğlanın cəsədi aşkar edilmişdi. Həmin uşağın öldürülməsində üç nəfər azərbaycanlını təqsirləndirərək "isti izlər"lə həbs etmişdilər. Az sonra Stepanakert (Xankəndi) şəhərində açıq məhkəmə oldu. Müttəhimlərin təqsiri sübut edilmədi, ittiham isə buna əsaslanırdı ki, cəsəd onlardan birinə məxsus torpaq sahəsində tapılıb. Kifayət qədər sübut olmadığına görə məhkəmə işi əlavə istintaqa göndərildi. Buna baxmayaraq, müttəhimləri linçləmək istəyən ermənilər onları döyüb öldürdülər, meyitləri isə yandırdılar. Elə həmin gün başlanan kortəbii mitinqlər dövlət müəssisələrinin talan edilməsi həddinə çatdı. Uzun illər keçəndən sonra həmin hadisələrlə bağlı bəzi sənədlər dərc edildi. Azərbaycan rəhbərliyinə, respublika DTK-nın sədri Heydər Əliyevə ünvanlanmış məktub bu sözlərlə qurtarırdı:





"Bu il iyunun 23-dən 24-nə keçən gecə Stepanakert şəhərinin bəzi küçələrində erməni dilində yazılmış 300-ə yaxın vərəqə yayılıb, həmin vərəqələrdə Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi barədə tələblər və millətçi xarakterli böhtan və uydurmalar var".

Vəziyyət gərginləşməkdə davam edirdi. 1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycanın rəhbəri seçildi. O, qısa müddətdə respublikada vəziyyəti sabitləşdirməyə, tezliklə siyasi həyatda və iqtisadiyyatda da sanballı uğurlara nail oldu. Bütün respublika ilə birlikdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də inkişaf edirdi. Burada yeni təhsil müəssisəsi – Pedaqoji İnstitut yaradıldı, Xankəndiyə dəmir yolu çəkildi, yeni sənaye müəssisələri yaradılır, yaşayış məntəqələri abadlaşdırılırdı. Azərbaycanın maddi rifahı Sovet İttifaqında ən yüksək sürətlə artırdı. Respublikanın sürətli inkişafından bütün Azərbaycan, o cümlədən muxtar vilayətin erməni əhalisi də bəhrələnirdi.

Bütün bu illər ərzində mən Heydər Əliyevin komandasında işləyirdim, o mənə müxtəlif sahələri tapşırırdı. 1979-cu ilin yanvarında mən Gəncə şəhərinin rəhbəri təyin edildim, 1981-ci ilin yanvarında isə Heydər Əliyev məni Bakıya, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin elm, təhsil, mədəniyyət və xarici əlaqələr məsələlərinə kuratorluq edən katibi vəzifəsinə keçirdi. Elə ilk görüşümüzdə o mənim hansı məsələlər üzərində işləməli olduğumu göstərdi. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı gündəlik diqqət tələb edən məsələlər ən vacib və mühüm problemlərdən idi.

Bir dəfə Heydər Əliyev gözlənilmədən məndən soruşdu: "Sən şair Vaqifi tanıyırsanmı?" Mən cavab verdim: "Əlbəttə, tanıyıram". O mənə diqqətlə baxdı və dedi: "Yox, sən hamısını bilmirsən". Sonra söhbət bizim cari kommunist və beynəlmiləlçi vəzifələrimizdən uzaq mövzuya keçdi. Heydər Əliyev dedi ki, Şuşada Vaqifin məqbərəsini tikməyi qərara alıb. Məqbərənin layihəsi hazırlanır, yer seçilib, tikinti başa çatandan sonra məqbərənin təntənəli açılışını və Vaqif poeziya bayramını keçirmək nəzərdə tutulur. Heydər Əliyev sözünə davam edərək dedi: "Sən bu məsələləri ən yaxın vaxt üçün prioritet məsələ kimi qəbul etməlisən. İstəyirəm ki, sən mənim əsas məqsədimi biləsən. İndiki halda Vaqif bizim üçün, sadəcə, şair, məqbərə, sadəcə, qəbirüstü abidə, bayram, sadəcə, şeirlər oxumaq deyil, Vaqif bizim üçün Azərbaycanın dövlət xadiminin rəmzidir və belə də olacaq. Şuşadakı məqbərə bizim üçün Qarabağ xanlığının timsalında Azərbaycan dövlətçiliyinin rəmzi, poeziya bayramı bu torpaqda Azərbaycan dilinin əbədi təntənəsinin rəmzidir".

Oxuculara xatırladıram ki, bütün bunları Kommunist Partiyasında ən yüksək vəzifələrdən birini tutan insan deyirdi. Bu həmin partiyadır ki, bizi öz tariximizi unutmağa, xüsusən gəlmə erməniləri bu ərazilərdə kütləvi şəkildə məskunlaşdırmış, torpaqlarımızı vəhşicəsinə işğal etmiş Rusiya imperiyası tərəfindən məhv edilmiş Azərbaycan xanlıqlarının tarixini unutmağa məcbur edirdi. Bu həmin partiyadır ki, Azərbaycan torpağında Azərbaycan dilinin istifadəsini açıq-aşkar məhdudlaşdırırdı. Üstəlik bu deyilənlər Azərbaycandan ayrılmaq cəhdlərinin ara





vermədiyi regiona aid idi. Desəm ki, eşitdiklərim məni heyrətləndirdi, hesab edin ki, heç nə deməmişəm. Eşitdiklərimin təsiri altında Heydər Əliyevin mənə bu cür etimadlı münasibətinə görə təsviredilməz dərəcədə qürur hissi keçirirdim.

Məqbərənin tikintisi başa çatmağa yaxınlaşırdı, abidənin açılışını yayda qeyd etmək, bunu Vaqif Poeziya Günləri ilə eyni vaxta salmaq ideyası vardı. Heydər Əliyev bu ideyaya düzəliş etdi: "Məqbərəni onu tikintisi başa çatandan dərhal sonra açacağıq, poeziya bayramını isə yayda da keçirmək olar. Məhz bu səbəbdən məqbərə bütün Şuşanın qarla örtüldüyü vaxtda açıldı, poeziya bayramının isə yayda keçirilməsi nəzərdə tutuldu. Əslində, məqbərənin açılışı Qarabağ xanlığına ehtiram əlaməti, poeziya bayramı isə Azərbaycan dilinin şərəfyab edilməsi oldu. Onları burada təsvir etməyəcəyəm, çünki bu haqda o dövrün mətbuatında oxumaq olar.

Heydər Əliyev poeziya bayramı günlərini keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbər işçiləri və yaradıcı ziyalıları ilə görüşün keçirilməsi ilə eyni vaxta saldı. Biz vilayət partiya komitəsinin binasına gəldik, həmin görüş burada keçirilməli idi. Vilayət partiya komitəsinin rəhbərinin kabinetində biz üç nəfər idik. Vilayət partiya komitəsinin birinci katibi Boris Gevorkov Heydər Əliyevə lap yaxınlaşdı və az qala pıçıltı ilə ona nə isə deməyə başladı. Heydər Əliyev ona uca səslə cavab verdi: "Xeyr, əgər kimsə bu barədə danışmağa cəhd göstərsə, mən münasibət bildirəcəyəm və fikrimi deyəcəyəm". Gevorkov dinməzcə kabinetdən çıxdı, Heydər Əliyev isə mənə

müraciətlə dedi: "O məni fikrimdən döndərmək istəyir ki, mən nəzərdə tutduğumu deməyim". Mən məsələnin mahiyyətini bilirdim, buna görə dedim ki, Gevorkovun bu dərəcədə sadəlövh olduğunu düşünmürdüm. Hər ikimiz güldük.

Zal adamla dolu idi. Orada iştirak edən 400 nəfərin xeyli hissəsi özlərinin anti-Azərbaycan və separatçı cəhdlərini həyata keçirmək xatirinə hər cür provokasiyalara hazır idi. Heydər Əliyev öz çıxışında Azərbaycanda siyasi və iqtisadi vəziyyəti təsvir etdi. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində baş vermiş dəyişikliklərin güclü təsir bağışlayan mənzərəsini təqdim edərək dedi: "Biz Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində abadlıq işləri aparır, əhalinin rifahını yüksəldirik". Bunlar o sözlər idi ki, Boris Gevorkov Heydər Əliyevi onları deməməyə razı salmaq istəyirdi. Zala tam sükut çökmüşdü.

Bu hadisələrdən az sonra Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində ən yüksək vəzifələrdən birinə irəli çəkildi. O, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və ölkənin siyasi rəhbərliyinin orqanı olan Siyasi Büronun üzvü kimi Moskvaya köçdü. Son 13 ildə cınqırını çıxarmağa qorxanların hamısı başlarını qaldırmağa başladılar.

❈

1988-ci ildə başlanan hərəkat, Ermənistanın fikrincə, ermənilərin "böyük xalq" kimi qəbul edilməsinə və firavanlaşmasına





gətirib çıxarmalı idi. Onların uydurma miflərə və nağıllara əsaslanan cəhdləri gerçəkləşə bilməyəcək fantaziya olaraq qaldı. Onların seçdiyi yol Dağlıq Qarabağın hüquqi baxımdan tanınmasına gətirib çıxarmadı. Ermənilərin "böyük xalq" kimi qəbul edilməsi əvəzinə, Ermənistan BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının dərhal azad olunmasını tələb edən və Dağlıq Qarabağ regionunun müstəsna olaraq Azərbaycana mənsubluğunu təsdiq edən dörd qətnaməsi ilə pislənildi. Bütün genişmiqyaslı regional və qlobal layihələrdən təcrid olunmuş Ermənistan firavanlaşmaq əvəzinə, hər hansı iqtisadi artım perspektivlərindən məhrum oldu, sürətlə yoxsullaşdı, onun əhalisinin rifahı isə durmadan azalmağa başladı.

Ermənistanla müharibə başlandı. Azərbaycan bu müharibəyə zorla cəlb edilmişdi. Birinci Qarabağ müharibəsi dövründə daxili çəkişmələr cəngində olan Azərbaycan bu savaşa hazır deyildi. Ermənistan həmin müharibədə ölkəmizin ərazilərinin xeyli hissəsini işğal etdi və təqribən 30 il ərzində işğal altında saxladı. Özünü "döyüşkən xalq", "məğlubedilməz ordu sahibi" hesab edən ermənilər lovğalanaraq özlərini "müzəffər Tiqran"ın varisləri kimi təqdim edirdilər. Bu həmin Tiqrandır ki, romalılar onu iki dəfə məğlub edib devirmişdilər. Böyük antik yazıçı və filosof Plutarx onun haqqında yazırdı: "Tiqran öz çar tacını Pompeyin ayaqları altına ataraq vur-tut Romanın bir əyalətinə çevrilmiş çarlığını utancaq halda qəbul etdi". Tiqranın hökmdarlığı belə

şərəfsiz şəkildə başa çatıb, ermənilər isə onu mifləşdirərək bu gün də "müzəffər" kimi təqdim edirlər.

Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti vəzifəsinə 1993-cü ilin oktyabrında seçilmişdi. O vaxt postsovet məkanında baş vermiş məlum tarixi hadisələr nəticəsində əmələ gələn mürəkkəb siyasi, psixoloji və iqtisadi problemlərin həlli Azərbaycanın qarşısında kəskin zərurət kimi dururdu. O öz qətiyyəti, möhkəm iradəsi, bir neçə addım irəlini görmək bacarığı sayəsində ölkədə siyasi vəziyyəti sabitləşdirməyə, pozucu qüvvələrin dağıdıcı fəaliyyətini dayandırmağa, xarici siyasətin əsas prinsiplərini formalaşdırmağa, Azərbaycanın Avropanın aparıcı strukturlarına daxil olması istiqamətində işlərə başlanılmasına, prioritet əməkdaşlıq ölkələrini müəyyən etməyə nail oldu; Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla nizamlanmasına dair sistematik danışıqlar aparılırdı; respublikada gələcək iqtisadi artımın təməli qoyulmuşdu.

İlham Əliyevin prezident seçilməsi ilə, təbii ki, Azərbaycan tarixində yeni dövr başlandı. 2003-cü ildə o artıq yaradılmış platformaya əminliklə söykənərək ölkəyə rəhbərlik etməyə başladı. İlham Əliyevin 17 illik prezidentlik yoluna nəzər salsaq, aşkar görmək olar ki, o, hakimiyyətdə olduğu lap ilk günlərdən Qarabağ probleminin həllinə hədəflənmişdi. Azərbaycan iqtisadiyyatının artımı sürətləndi, bu iqtisadiyyat sabit gəlirli səviyyəyə çatdırıldı. İqtisadi əlaqələrin dairəsi ölkənin siyasi maraqları ilə sıx birləşir. Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşına çevrildi ki, bu da qitənin





aparıcı ölkələri ilə uğurlu əməkdaşlığa gətirib çıxardı. İlham Əliyevin diplomatik bacarığı Azərbaycana dünyanın bir çox aparıcı ölkələrinin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu tərəfdaşı olmaq imkanı verdi. Eyni zamanda ordunun ən müasir silahlarla təchiz olunmasını, zabit və əsgər heyətinin ixtisas səviyyəsinin artırılmasını, ordunun döyüş qabiliyyətini müəyyən edən mənəvi və psixoloji keyfiyyətlər məcmusunun formalaşdırılmasını nəzərdə tutan hərbi quruculuq işləri gedirdi.

Tezliklə Azərbaycan öz ərazilərinin azad olunması naminə müharibəyə hazır idi. Lakin o, hərbi yola əl atmaq istəmirdi, güman edirdi ki, Ermənistanın rəhbərləri sağlam düşüncəni əsas tutacaq, başa düşəcəklər ki, özgə ərazilərini işğal altında saxlamaq perspektivsizdir. Amma məlum oldu ki, Ermənistanda hakimiyyət sükanı arxasında olanlar sağlam düşüncəni və praqmatizmi deyil, öz şəxsi ambisiyalarını və mifik təsəvvürlərini rəhbər tuturlar. Buna baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair danışıqlar davam edirdi. Bu halda Azərbaycan münaqişənin uğurla həll olunacağını, Ermənistan isə uğurla uzanacağını nəzərdə tuturdu.

2020-ci il sentyabrın 27-də yekdilliklə Vətən müharibəsi kimi qəbul edilən İkinci Qarabağ müharibəsi başladı. Çoxmillətli Azərbaycan xalqı yekdilliklə öz torpaqlarının azad edilməsi uğrunda mübarizəyə qalxdı. Azərbaycanlı əsgər və zabitlərin öz Vətəninin azadlığı naminə şəhid olmağa hazır olduqları qəhrəmanlıqla dolu 44 gecə və gündüz. Prezident

və Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 gecəsi və gündüzü. Bu günlər ərzində o, döyüş əməliyyatlarına rəhbərlik edir, eyni zamanda öz xalqı ilə sıx təmasda olur, xarici KİV-lərə çoxsaylı müsahibələr verərək, informasiya mübarizəsinin ön xəttində olur və Azərbaycan xalqının öz torpaqlarını azad etmək hüququnu izah edirdi.

Prezident İlham Əliyevin yüksək diplomatik məharəti öz bəhrəsini verdi. Dünyanın əksər ölkələri bizim beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qərarlarına güvənərək, tarixi torpaqlarımızı öz gücümüz hesabına azad etmək səyimizə anlaşıqlı yanaşdı. Bizə dost ölkələr yanımızda idi. Onların arasında Türkiyə xüsusi yer tutur.

Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın böyük hissəsi silah gücünə azad olundu. 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi Azərbaycan Ordusunun Zəfər yürüşünün kulminasiya nöqtəsi oldu. Azərbaycanın aşkar hərbi-siyasi üstünlüyünü görən erməni tərəfi Kəlbəcər, Laçın və Ağdam rayonlarını bir güllə atılmadan boşaltmağa məcbur oldu. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs və bütün hərbi əməliyyatların tam dayandırılması barədə üçtərəfli bəyanat imzaladılar.

İşğaldan azad edilmiş torpaqlara həmin rayonlarda doğulanlar, ictimai xadimlər, həmçinin əcnəbilər,ələlxüsus da





Ermənistan-Azərbaycan münaqişəsi və İkinci Qarabağ müharibəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmağı bacaran və bunu ürəkdən istəyən əcnəbilər səfər edirlər. Azad olunmuş torpaqlardan çəkilən video və fotomateriallar yayılmağa başlayıb, dünya qədim sivilizasiyaya mənsub olmalarını çox həvəslə hamıya inandırmağa çalışan xalqın nümayəndələrinin vəhşiliyinin və vandalizminin şahidinə çevrilir.

Müharibənin başa çatması ilə ölkəmiz zəfər eyforiyasına uymadı, onun üçün yeni adi iş günləri başladı. Müharibədən sonra elə ilk günlərdən məlum oldu ki, Prezident İlham Əliyev bu günlərə artıq çoxdan hazırlaşmışdı. Qələbədən dərhal sonra ictimaiyyət Qarabağın dirçəldilməsi üzrə möhtəşəm planlar barədə məlumatlandırıldı və eyni zamanda praktik iş başlandı. İşğaldan azad olunan şəhərlərin inkişafı üzrə baş planlar hazırlanır, yeni hava limanları, geniş avtomobil yolları, elektrik yarımstansiyaları və elektrik ötürmə xətləri şəbəkəsi tikilir, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında yaşayış məntəqələri yaradılır, dağıdılmış mədəniyyət abidələri və məbədlər bərpa edilir.

...Avtobusumuz Zəfər yolu ilə hərəkəti davam etdirir. Yol boyunca çoxsaylı tikintilər görürük. Lakin Füzuli aeroportunun, avtomobil yollarının tikintisi, elektrik ötürücü xətlər üçün dirəklərin quraşdırılması xüsusilə güclü təsir bağışlayır.

Uzaqda artıq məşhur Şuşa qayaları görünməyə başlayır. Qəhrəman Azərbaycan döyüşçüləri, demək olar ki, ölümə meydan oxuyaraq, ölümün gözünün içinə düz baxaraq, həmin qayalara dırmaşaraq, Şuşa şəhərini, sözün əsl mənasında, əlbəyaxa döyüşdə azad ediblər. Biz hər bir azərbaycanlı üçün müqəddəs olan bu şəhərin azad edilməsi naminə canından keçən şücaətli əsgərlərimizin xatirəsini anmaqdan ötrü sürücüdən sürəti azaltmasını xahiş edirik. Allah onlara rəhmət eləsin...

Erməni hərbi analitiklər İkinci Qarabağ müharibəsinin yekunlarını araşdıraraq, tez-tez vurğulamağa çalışırlar ki, Azərbaycan Ordusu pilotsuz uçuş aparatları (PUA) sayəsində qalib gəlib. Əlbəttə, pilotsuz uçuş aparatlarının rolunu inkar etmək olmaz. Lakin erməni analitiklər o barədə danışmırlar ki, ermənilər PUA-nın tətbiq edilmədiyi Şuşada niyə uduzublar, azərbaycanlılar odlu silahdan məhdud istifadə etdikləri bir vaxtda şəhər erməni hərbi texnikası ilə, o cümlədən tanklarla və təpədən dırnağadək silahlanmış çox sayda işğalçılarla dolu idi. Müasir müharibələrdə müasir silahların rolunu inkar etmək ağılsızlıqdır, lakin əgər bu müasir silahlar ədalətli müharibə aparan Azərbaycanla bağlı olduğu kimi döyüşçülərin yüksək mənəvi-psixoloji keyfiyyətləri və özlərinin haqlı olduğunu dərk etməklə möhkəmləndirilməzsə, o halda metal yığını olaraq qalacaq.

...Tezliklə biz işğaldan azad olunan Şuşaya, çox əziyyətlər görmüş Şuşaya çatacağıq. Şəhərə yaxınlaşdıqca mən onun tarixinin faciəli səhifələrini yada salırdım.





Dəfələrlə hücumlara məruz qalan Şuşa şəhərinin əsası 1752-ci ildə Pənahəli xan Cavanşir tərəfindən qoyulub.

1795-ci ildə Şuşa Qacar sülaləsindən olan Ağa Məhəmməd şah tərəfindən ələ keçirilib. Şuşanın Qacarın əsarətində qalması iki il davam edib, 1797-ci ildə saray əhli tərəfindən sui-qəsd nəticəsində Ağa Məhəmməd şahın ölümündən sonra şəhər azad edilib.

1805-ci ildə Gəncə xanlığının məhv edilməsindən sonra və Kürəkçay müqaviləsinin imzalanması nəticəsində bütün Qarabağ xanlığı kimi, Şuşa da Rusiya imperiyasının hakimiyyəti altına keçib. Tezliklə Qarabağ hökmdarı İbrahimxəlil xan rusiyalı zabit Lisaneviç tərəfindən qətlə yetirilir. 20 ildən sonra Lisaneviç Ömər adlı qumuq (azərbaycanlılara qohum olan Şimali Qafqaz xalqı) tərəfindən güllələnir. Qarabağ xanlığının zəbt olunmasına rəhbərlik edən və Gəncə xanlığının qanında əli olan general Sisiyanov 1806-cı ildə Bakının Qala qapılarının yaxınlığında Bakı xanlığı sülaləsinin təmsilçisi İbrahim bəy tərəfindən öldürülür.

1920-ci il martın 23-nə keçən gecə, Novruz bayramı qeyd olunduğu vaxt erməni silahlı dəstələri XI Qırmızı Ordu qoşunlarının yaxın vaxtlarda Azərbaycana hücum edəcəyi xəbərindən istifadə edərək Şuşa, Əsgəran və Xankəndidə yerləşən Azərbaycan qarnizonlarına qəflətən soxulublar. Məqsəd həm bu şəhərləri zəbt etmək, həm də Azərbaycan Ordusunu ölkənin sərhədlərini qorumaqdan yayındırmaq idi. Azərbaycanın hərbi nazirliyi tələsik şəkildə qoşunları Bakıdan Qarabağa

göndərməyə və ölkənin şimal sərhədlərini boş qoymağa məcbur oldu. Ermənilərin qısamüddətli uğuruna baxmayaraq, zəbt edilmiş bütün əraziləri general Həbib Səlimovun, Qarabağ və Zəngəzurun general-qubernatoru Xosrov bəy Sultanovun səyi ilə azad etmək mümkün oldu. Şuşa, Xankəndi, Əsgəran birinci, ikinci və üçüncü Azərbaycan respublikalarının tərkibində qaldı.

1992-ci il mayın 8-də erməni qoşunları Şuşanı işğal etdi. Hər bir azərbaycanlı üçün müqəddəs olan bu şəhər düz 28 il yarım erməni əsirliyində qaldı. Lakin düşmən nə qədər çalışsa da, Şuşanın əzmini qıra, onu fəth edə, ona xas olan Azərbaycan ruhunu məhv edə, buradan Azərbaycan mədəniyyətinin izlərini silə bilmədi.

2020-ci il noyabrın 8-də Azərbaycan Ordusu Şuşanı işğaldan azad etdi. Məhz həmin günlərdə Prezident və Müzəffər Ali Baş Komandan İlham Əliyev hər bir azərbaycanlı üçün müqəddəs enerjili, Azərbaycanın çoxəsrlik tarix salnaməsinə daxil edilməyə layiq olan sözləri dilə gətirdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

...28 avqust 2021-ci il. Biz artıq Şuşadayıq... Şuşa bizi gözləyirdi, biz isə 28 ildən artıq bir müddətdə qəlbimizdə Şuşa həsrəti ilə yaşamışıq. Biz 28 il ədalətsizliyin şahidi olaraq, tez-tez qəzəb və həyəcanla BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqının iclas salonlarından, dünyanın aparıcı ölkələrinin





yüksəkvəzifəli şəxslərinin kabinetlərindən Şuşanın və bütün Qarabağ regionunun taleyinə baxırdıq. Budur, çoxdan gözlənilən yenidən qovuşma baş verdi. Şuşanın gözlədiyi əsl sahibləri gəlib çıxdılar.

Biz əvvəlcə şəhərə sanki yuxudaymışıq kimi daxil oluruq, yalnız tədricən xəyal reallığa çevrilir... Bəli, biz Şuşadayıq, 2020-ci il noyabrın 8-də müzəffər Azərbaycan Ordusunun azad etdiyi şəhərdə.

Bu il yanvarın 14-dən başlayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Şuşaya ilk səfərindən sonra şəhərin bərpasına start verilib. Mayın 7-də Prezident Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Ötən müddətdə burada artıq orijinal memarlıq üslubunda yeni məscidin təməli qoyulub, "Xarıbülbül" musiqi festivalı keçirilib, sərgi salonları açılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günləri ərəfəsində Şuşada hotel və konfrans mərkəzinin, yeni yaşayış kompleksinin təməlini qoyub, böyük xanəndə Bülbülün ev-muzeyinin, dahi bəstəkar Üzeyir Hacıbəylinin abidəsinin, həmçinin Molla Pənah Vaqifin büstünün bərpadan sonra açılışını edib, Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan işlərlə tanış olublar. Şuşanın və onun ətrafının bərpasına aid olan 200-dən çox memarlıq və mədəni irs obyektinin siyahısı elan olunub. Azərbaycan mədəniyyətinin incilərinin bərpasında əsas rol ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya məxsusdur.

...Poeziya bayramının iştirakçıları Cıdır düzünü müqəddəs ocaq kimi ziyarət edir, daha sonra hər bir azərbaycanlının qəlbinə əziz olan yerləri – Mehmandarovların, Əhməd Ağaoğlunun, Sadıqcanın, Nəvvabın və digərlərinin evlərini axtarmaq üçün ayrılırlar. Bütün bu abidələr və görməli yerlər erməni vandalizminə məruz qalıb, lakin onlar Şuşanın və bütün Qarabağın dirçəldilməsi üzrə irimiqyaslı işlər çərçivəsində hökmən bərpa olunacaq. Vilayət Quliyevlə mən Polad Bülbüloğlunun lütfkar dəvətini qəbul edərək, Bülbülün çox gözəl bərpa olunmuş ev-muzeyi ilə tanış olduq.

29 avqust. Vaqif Poeziya Günlərinin açılışına gedirik. Tədbir dahi şair və dövlət xadiminin məqbərəsinin qarşısında təşkil olunacaq. Erməni vandalları tərəfindən talan edilən və dağıdılan məqbərənin əks olunduğu fotoşəkilləri həyəcanla yada salıram. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səyləri nəticəsində çox qısa müddətdə bərpa edilmiş, demək olar, yenidən hazırlanmış əzəmətli abidə qürur doğurur. Sözsüz ki, Vaqifin məqbərəsinin bərpası Azərbaycanın mədəni irsinin yorulmaz himayədarı Mehriban xanımın ən əhəmiyyətli xeyriyyəçilik işlərinin sırasına aid edilməlidir.

Çox keçmədən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva gəlirlər. Bayram başlanır... İlk olaraq 39 il bundan əvvəl Vaqifin məqbərəsinin və Poeziya Günlərinin açılışı münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmiş, o vaxt diplomat olmağa hazırlaşan 20 yaşlı tələbə olmuş şəxs çıxış edir. Heydər Əliyevdən vətənpərvərlik, müdriklik





və qətiyyət dərsi almış bu şəxs 17 il bundan əvvəl xilaskarlıq kimi böyük missiyanı öz üzərinə götürüb və buna nail olaraq Azərbaycan tarixinin səhifələrinə əbədi daxil olub. Hazırda İlham Əliyev Azərbaycan Prezidenti, Ali Baş Komandan kimi Şuşadan dünyaya bu sözlərlə müraciət edir: “İşğal dövründə bir çoxlarımız: həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq”.

# MÜƏLLİF HAQQINDA

**HƏSƏN ƏZİZ OĞLU HƏSƏNOV** 1940-cı il oktyabrın 20-də Tbilisi şəhərində doğulub. 1960-1966-cı illərdə komsomol təşkilatında işləyib. 1967-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi aparatının Tikinti şöbəsində məsul vəzifəyə irəli çəkilib. 1969-cu ilin yanvarında Moskvaya, ÜİLKGİ MK aparatına köçürülüb və orada Qazaxıstan üzrə məsul təşkilatçı kimi çalışıb. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra, 1971-ci il fevralın 2-də isə əvvəlki iş yerinə – MK-nın Tikinti şöbəsinin təlimatçısı vəzifəsinə qayıdıb. 1971-ci ilin dekabrında həmin şöbədə bölmə müdiri, 1974-1975-ci illərdə isə MK-nın Tikinti şöbəsinin müdir müavini vəzifəsini icra edib. 1975-ci ilin dekabrında Bakının 26 Bakı komissarı (indiki Səbail) Rayon Partiya Komitəsinin birinci katibi, 1978-ci ilin oktyabrında Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, 1979-cu ilin yanvarında Gəncə Şəhər Partiya Komitəsinin birinci

katibi seçilib. 1981-ci ilin yanvarında MK-nın İdeologiya şöbəsinin katibi seçilib və 1983-cü ilin dekabrınadək həmin vəzifəni daşıyıb. 1983-cü ilin dekabrından 1988-ci ilin dekabrınadək MK-nın tikinti və nəqliyyat üzrə, 1988-ci ilin dekabrından isə iqtisadiyyat üzrə katibi vəzifələrində çalışıb. 1990-cı ilin yanvarında Azərbaycan Nazirlər Sovetinin sədri (baş nazir) təyin olunub. 1992-ci ilin aprelində Azərbaycanın BMT yanında daimi nümayəndəsi təyin edilib. 1993-cü ilin sentyabrından 1998-ci ilin fevralınadək xarici işlər naziri kimi fəaliyyət göstərib. 2000-ci ilin noyabrınadək I çağırış Milli Məclisin deputatı olub. 2004-cü il sentyabrın 1-dən 2021-ci ilin yanvarınadək Azərbaycan Respublikasının Macarıstanda, daha sonra Polşadakı fövqəladə və səlahiyyətli səfiri kimi diplomatik xidmətdə olub.

2001-ci ildən ədəbi və elmi fəaliyyətlə məşğuldur. 2021-ci ildən Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvüdür. Tarix elmləri doktorudur. "Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti", "Birinci Respublikaya doğru", "Tarixin hədəfi (bəşəriyyətin siyasi tarixinin fəlsəfəsi)", "Makedoniyalı İsgəndər və Atropat", "Tarixi-coğrafi atlas" və digər monoqrafiyaların müəllifidir. Həsən Həsənovun "Brüsseldən məktublar" pyesi iyirmi ilə yaxındır ki, Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulur.

Bu kitab Heydər Əliyevin çoxillik titanik fəaliyyətindən, onun hansı keyfiyyətlərinə görə Azərbaycan xalqının Ümummilli lideri hesab olunmasından bəhs edən bir kitabdır. Sovet dövründə azərbaycanlı siyasətçilərin və ziyalıların iki tipi formalaşmışdı. Onlardan bəziləri Moskvanın iradəsinə tabe olaraq xalqın ruslaşdırılması və milli maraqların kommunist ideologiyasına tabe etdirilməsi siyasəti ilə razılaşırdı. Lakin azərbaycanlı siyasətçilərin və ziyalıların başqa bir tipi də var idi. Onlar mövcud vəziyyətlə əlaqədar sovet dövləti və kommunist partiyası strukturları ilə əməkdaşlıq etsələr də, öz qarşılarına xalqın maraqlarını müdafiə etmək, milli şüuru daha da inkişaf etdirmək və gücləndirmək kimi ali məqsədlər qoymuşdular. O zamanlar kommunist partiyasına üzv ola da bilərdin, olmaya da bilərdin, amma bu partiyanın, sovet hakimiyyətinin çox sərt tələb və məhdudiyyətlərinin olduğu şəraitdə öz xalqına xidmət etmək, onun milli maraqlarını qorumaq, demək olar ki, mümkün deyildi. Bunu yalnız ikinci tipə mənsub siyasətçilər bacarırdı. Heydər Əliyev onların ən parlaq nümayəndəsi idi. Onilliklər boyu hakimiyyətdə olan bu dahi şəxsiyyət öz həyatını milli maraqlar uğrunda mübarizəyə həsr edib, Sovet İttifaqının beynəlmiləlçilik ideologiyasının sərt tələbləri çərçivəsində Azərbaycan xalqının milli şüurunun güclənməsinə nail olub. Bir neçə onillik ərzində yüksək dövlət vəzifələrində çalışan Heydər Əliyev bu fəaliyyəti sayəsində həm öz xalqı, həm də dünyanın aparıcı siyasi xadimləri arasında böyük nüfuz qazanıb.

Qiymәti: 7,90₼

ISBN 978-9952-563-27-6

TEAS PRESS

www.teaspress.az